**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin**
**2020-ci il ərzində gördüyü işlər haqqında**

# HESABATI

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi, iş mexanizmində operativliyin təmin edilməsi, idarəçilik metodologiyasının modernləşdirilməsi, tabeliyindəki müəssisələrin iş prinsiplərinin müasirləşdirilməsi və bütün sistem üzrə koordinasiyanın qurulması məqsədilə “Mədəniyyət Nazirliyinin İnstitusional İslahatlarının icrasına dəstək Proqramı” hazırlanmışdır. Proqram mədəniyyət sahəsinin müxtəlif istiqamətləri üzrə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan 16 layihədən ibartədir.

Hesabat dövründə “Mədəniyyət Nazirliyinin İnstitusional İslahatlarının icrasına dəstək Proqramı” çərçivəsində “Azərbaycan Respublikasının Mədəniyyət Strategiyası”ının hazırlanmasına başlanılmış, yeni strategiyaya uyğun olaraq restrukturizasiya, nazirliyin insan resurslarının inkişafı sisteminin qurulması və idarə olunması, idarəçilikdə səmərəliliyin yüksəldilməsi, dövlət-özəl tərəfdaşlıq və autsorsinq idarəetmə modellərinin, davranış mədəniyyəti, milli geyim və milli ritm standartlarının hazırlanması, tabelikdə olan bir sıra müəssisələrin funksionallığının artırılması və dövlət büdcəsindən asıllığının aradan qaldırılması məqsədilə publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsi və digər istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilmişdir.

## İNCƏSƏNƏT

### Teatr

2020-ci ilin 18-19 yanvar tarixlərində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyinin sifarişi ilə 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş “Şəhərin qış gecələri” tamaşasının premyerası keçirilmişdir.

2020-ci ilin mart ayından etibarən teatrlar öz tamaşalarını virtual şəkildə - teatrların saytlarında və sosial şəbəkələr vasitəsilə nümayiş etdirilmişdir.

2020-ci ilin aprel ayından etibarən “Mədəniyyət” kanalı ilə birgə “Bizi birləşdirən Mədəniyyət” layihəsi çərçivəsində əvvəlki illərdə lentə alınmış tamaşaların mütəmadi olaraq nümayişi təşkil olunmuşdur.

Mədəniyyət Nazirliyinin “Evdə qal, evdə yarat” təşəbbüsü çərçivəsində teatrlarda çalışan sənətçilər müxtəlif videoçarxlarla, performanslarla çıxış etmişlər.

Mədəniyyət Nazirliyinin 2020-ci il üçün təsdiq olunmuş Repertuar planına əsasən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında V.Şekspirin “Kral Lir”, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Elçinin “Stalin”, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında A.Ostrovskinin “Tufan”, Azərbaycan Dövlət Pantomima Teatrında B.Xanızadənin “Yük” tamaşalarının dövlət sifarişi yolu ilə hazırlanması nəzərdə tutulsa da pandemiya səbəbindən tamaşalara baxış keçirilməmişdir.

Teatr sahəsinin bütün janrları və peşə istiqamətləri üzrə gənc istedadların dəstəklənməsi, kadr hazırlığı və əlavə təhsil sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsilin, müştərək layihələrin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 18 may 2009-cu il tarixli 277 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramının tədbirlər planının 2.11 bəndinə əsasən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Rusiyanın Y.Vaxtanqov adına Dövlət Akademik Teatrının nəzdində B.Şukin adına Teatr İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqaviləyə uyğun olaraq B.Şukin adına Teatr İnstitutunda azərbaycanlı tələbələr üçün xüsusi aktyor-rejissor kursu yaradılmışdır.

2020-ci ilin 25 sentyabr tarixində həmin kursda təhsil alan tələbələrdən 6 nəfəri (Vüsal Mehrəliyev, Bəhruz Əliyev, Ramail Bayramlı, Ruslan Pavlov, Mikayıl Əliyev, Abdula İsmayılov) kursu başa vurmuş diplom müdafiə edərək 1 oktyabrda Bakıya qayıtmışdır.

2020-ci il 1 dekabr tarixindən Abdula İsmayılov və Ruslan Pavlov Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, digər 4 nəfər isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyətə başlamışdır.

Teatr sahəsində idarəetmənin təkmilləşdirilməsini nəzərdə tutan islahatlar çərçivəsində 2020-ci ilin 30 noyabr tarixində Qusar Dövlət Ləzgi Dram Teatrının baş rejissoru Laləzar Hüseynova tutduğu vəzifədən azad edilərək Salyan Dövlət Kukla Teatrına direktor təyin olunmuşdur.

## Musiqi

2020-ci ilin 18 yanvar tarixində 20 Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər planına uyğun olaraq Azərbaycan Dövlət Akademik Filarmoniyasında anım tədbiri keçirilmişdir. Tədbirdə Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış etmişdir.

2020-ci ilin 24 yanvar tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasında beynəlxalq müsabiqələr laureatı, tanınmış rusiyalı pianoçu Filip Kopaçevskinin iştirakı ilə konsert keçirilmişdir. Tədbirdə Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə P.İ.Çaykovski, S.Raxmaninov və D.Şostakoviçin əsərləri səslənmişdir.

2020-ci ilin 4 fevral tarixində Beyləqanda və fevralın 7-də Bakıda Heydər Əliyev Sarayında görkəmli bəstəkar-müğənni, ictimai xadim, Xalq artisti, “İstiqlal” və “Şərəf” ordenli Polad Bülbüloğlunun 75 illiyinə həsr olunmuş yubiley gecələri keçirilmişdir. Tədbirlərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası və solistlər iştirak etmişlər.

“TÜRKSOY” Beynəlxalq Təşkilatının təşəbbüsü ilə 5-11 fevral 2020-ci il tarixində Bosniya və Serbiyada görkəmli qazax şairi Abay Kunanbayevin 175 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək məqsədilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Əməkdar artist Fəridə Məmmədova Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə fevralın 5-dən 9-dək Sarayevo və Zenitsa şəhərlərinə, 9-dan 11-dək isə Belqrad şəhərinə ezam olunmuşdur.

“TÜRKSOY” Beynəlxalq Təşkilatının təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə cari il fevralın 9-da Türkiyə Respublikasının Ankara şəhərində görkəmli qazax şairi Abay

Kunanbayevin 175 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir. Konsertdə çıxış etmək üçün Azərbaycan Dövlət Akademik Filarmoniyasının Dövlət Xor Kapellasının artisti, Prezident mükafatçısı, Əməkdar artist İlham Nəzərov və Dövlət Akademik Musiqili Teatrının solisti Eleonora Mustafayeva Ankara şəhərinə ezam olunmuşlar.

12 fevral 2020-ci il tarixində Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri, Xalq artisti Rüfət Xəlilzadə Mahaçqala şəhərində Rus Dram Teatrının səhnəsində SSRİ Xalq artisti, görkəmli bəstəkar Murad Kajlayevin "Asiyat" baletinin premyerasında fəxri qonaq qismində iştirak etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən Dağıstana ezam olunmuşdur.

"Koronavirus" (COVİD-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-konsert müəssisələrində "Evdə qal, evdə yarat" təşəbbüsü çərçivəsində xüsusi layihələr həyata keçirilmişdir. Bu layihələr çərçivəsində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Oqtay Zülfüqarovun "Şənlən mənim xalqım" əsəri lentə alınmış və "Euronews" telekanalı vasitəsilə şərhsiz nümayiş olunmuşdur. Xüsusi karantin rejimi olduğunu nəzərə alaraq, çəkiliş heyəti hər bir musiqiçinin ifasını ayrı-ayrılıqda görüntüləyərək sonradan montaj etmişdir.

Mədəniyyət Nazirliyinin "Evdə qal, evdə yarat" təşəbbüsü çərçivəsində 2020-ci ilin aprel-may aylarında Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş "Virtual vətənpərvərlik mahnısı" müsabiqəsi keçirilmişdir. Cari ilin 10 aprel-9 may tarixlərində keçirilən müsabiqə bir kateqoriya üzrə - vətənpərvərlik ruhunda mahnı – seçim turundan ibarət olmuş və seçim mərhələsi audio yazılara əsaslanmışdır.

Müsabiqə iştirakçıları Firəngiz Əlizadə (sədr), Cəlal Abbasov, Gövhər Həsənzadə, Həcər Babayeva, Elnara Dadaşova və Lətifəxanım Əliyevanın (koordinator) daxil olduğu münsiflər heyəti tərəfindən dəyərləndirilmişdir.

2020-ci ildə COVİD-19 infeksiyasının mədəniyyət müəssisələrində yarada biləcəyi təhlükənin qarşısının alınması və bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Mədəniyyət Nazirliyinin müvafiq qərar və əmrlərinə əsasən teatr-konsert müəssisələrində keçirilməsi planlaşdırılan tədbirlər təxirə salındığı üçün Mədəniyyət Nazirliyi və "Mədəniyyət" kanalının birgə təşkilatçılığı ilə Bakıda virtual olaraq Üzeyir Hacıbəylinin 135 illiyinə həsr olunmuş Beynəlxalq Telefestival təşkil olunmuşdur.

Cari ilin 15 oktyabr tarixində Bolqarıstanın Kırcalı şəhərinin "Kadriye Latifova" Dövlət Musiqili Teatrında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının premyerasının təşkili məqsədilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev 2020-ci ilin fevral ayında Bolqarıstana ezam olunmuşdur. Tamaşa böyük müvəffəqiyyətlə 15 və 22 oktyabr tarixlərində nümayiş olunmuşdur.

2018-ci ildən etibarən dünyaca məşhur "Mezzo" telekanalı ilə qurulmuş sıx əməkdaşlıq əlaqələri çərçivəsində yeni layihə həyata keçirilmişdir. Beləki, cari ilin 21 oktyabr tarixində P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının böyük zalında Əməkdar artist, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Fuad İbrahimovun rəhbərliyi altında Y.F.Svetlanov adına Rusiya Dövlət Akademik Simfonik Orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri səslənmişdir. Layihədə solist qismində Əməkdar artist, tanınmış tarzən Sahib Paşazadə çıxış etmişdir. Adıçəkilən konsert proqramı sosial izolyasiya tədbirləri ilə bağlı tamaşaçıların iştirakı olmadan keçirilmiş və "Mezzo" telekanalı vasitəsilə

lentə alınmışdır. Telekanal ilə imzalanmış razılaşmaya əsasən lent yazısı 5 il müddətində müəyyən aralıqlarla efirdə nümayiş olunacaqdır.

**Təsviri və dekorativ sənət**

17 yanvar 2020-ci il tarixində Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə Bakı Xətai Sənət Mərkəzində “Azadlıq aşiqləri günü-20 Yanvar” adlı respublika uşaq rəsm müsabiqəsinin yekun sərgisi açılmışdır. Müsabiqəyə Respublikamızın müxtəlif güşələrindən 400-ə yaxın uşaq, 600-ə qədər əsəri ilə virtual qaydada qatılmışdır. Tədbirə 210 uşaq hər birindən bir əsər olmaqla sərgilənmək üçün dəvət olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə 3 fevral 2020-ci il tarixində “Baku Book Center”də “Gənclər günü”nə həsr olunmuş gənc rəssamların “AXIN” adlı qrup sərgisi keçirilmişdir. Sərgi gənclərin istedad və bacarıqlarının üzə çıxarılması, cəmiyyətdəki fəallığını təmin etmək məqsədi ilə həyata keçirilmişdir. Sərgidə 30-dan çox gənc rəssamın 60-a yaxın rəsm əsəri sərgilənmişdir. Tədbirin sonunda rəssamlar diplomla təltif olunmuşdur.

Xalq artisti, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Vasif Adıgözəlovun yaşadığı binaya (Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 23) barelyefi (müəllif: Mahmud Rüstəmov) vurulmuşdur.

Hesabat ilinin 5 mart  tarixində Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Akademik Opera və Balet Teatrında rəssam, heykəltəraş və fotoqrafların “Harmoniya” adlı qrup sərgisi keçirilmişdir.  Beynəlxalq Qadınlar Gününə həsr olunan sərgidə 30-a yaxın rəssam, heykəltəraş və fotoqraf iştrak etmiş, ekspozisiyada 50-dən çox əsər sərgilənmişdir. Sərgidə həmçinin "PARLAQ" Yaradıcı Gənclər ictimai birliyinin üzvləri musiqi proqramı ilə çıxış etmişlər.

Azərbaycan Respublikası Prezidentinin 11 mart 2020-ci il tarixli 1916 nömrəli Sərəncamına əsasən məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərində abidəsinin (müəllif: Xalq rəssamı Xanlar Əhmədov) ucaldılması ilə bağlı zəruri sənədləşmə işləri aparılmış, heykəlin hazırlanması işi təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 12 mart 2020-ci il tarixli 1927 nömrəli Sərəncamına əsasən SSRİ Xalq artisti Müslüm Maqomayevin Bakı şəhərində abidəsinin (müəllif: Xalq rəssamı Ömər Eldarov) ucaldılması ilə bağlı zəruri sənədləşmə işləri aparılmış və müəllif tərəfindən heykəlin hazırlanması və tamamlanması işlərinə nəzarət həyata keçirilmişdir.

Rəssamlıq istedadına malik olan uşaqların, yeniyetmə və gənc rəssamlar tərəfindən COVİD-19 pandemiyası zamanı səhiyyə işçilərinin, hüquq mühafizə orqanlarının əməkdaşlarının, o cümlədən Azərbaycan polisinin göstərdiyi fədakarlıq nümunələrinin təsviri sənət əsərləri vasitəsi ilə təbliği və tərənnümü məqsədi ilə “Minnətdarıq” adlı Respublika Rəsm Müsabiqəsi keçirilmişdir. Müsabiqədə respublikanın müxtəlif şəhər və rayonlarından olan rəssamlar iştirak etmişlər. Nazirliyin 127-f nömrəli 30.06.2020-ci il tarixli əmrinə əsasən münsiflər heyəti tərəfindən fərqlənən 8 nəfər iştirakçı pul mükafatı və xüsusi diplomla təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 iyul tarixli 1318 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 iyul 2019-cu il tarixli 514-S nömrəli Sərəncamına əsasən məşhur azərbaycanlı geoloq, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun Şəmkir şəhərində heykəlinin ucaldılması məqsədilə zəruri sənədləşmə işləri aparılmış, heykəlin hazırlanması işinə nəzarət həyata keçirilmişdir. Müəllif tərəfindən işlər tamamlanmaq üzrədir.

Azərbaycan Respublikası Prezidentinin "Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında" 6 avqust 2007-ci il tarixli, 612 nömrəli Fərmanının 2-ci bəndinin icrası təmin edilmişdir.

22 may 2020-ci il tarixində Azərbaycan Rəspublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə "Global message" adlı virtual sərgi keçirilmişdir. Sərgi rəssam Zaur Kantemirov tərəfindən yaradılan plakatlar vasitəsilə bütün dünyanı təsiri altına alan koronavirus (COVID-19) pandemiyasından insanları qorumaq, karantin qaydalarına əməl etmək və orijinal yanaşmanı göstərmək məqsədi ilə həyata keçirilmişdir.

6 iyul 2020-ci ildə "ARTAP" adlı layihəyə start verilmişdir. Layihə incəsənətə aid maraqlı suallarla, intellektual bilikləri müəyyənləşdirməyə, zənginləşdirməyə stimul verir. "ARTAP" layihəsinin sualları hər həftənin birinci günü qalereyanın sosial media hesablarında paylaşılır;

14 avqust 2020-ci ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası, İWS Globe – Beynəlxalq Suluboya Cəmiyyətinin Azərbaycan nümayəndəliyi (İWS Azerbaijan) və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə start verilən "Xəzərin dalğaları" adlı I Bakı Beynəlxalq Suluboya festivalı çərçivəsində rəssam Cəlal Ağayev, Fəxrəddin Qəhrəmanlı, İlham Məhərrəmoğlu və Səbinə İskəndərin onlayn ustad dərsləri keçirilmişdir.

2 sentyabr 2020-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən "Digitalart-lab" adlı yeni layihəyə start verilmişdir. Layihə Azərbaycan rəssamlıq sənətinin müasir inkişafından qaynaqlanan rəqəmsal incəsənətin formalaşması, rəssamların bədii yaradıcılıq axtarışlarını, onların yaradıcılıqlarındakı bədii tendensiyaları, üslub özəlliklərini, orijinal ideyaları geniş ictimaiyyətə təqdim etmək məqsədi daşıyır. "Digitalart-lab" Azərbaycanda rəqəmsal incəsənətə həsr olunmuş ilk iri miqyaslı layihədir.

7 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Artgift.az rəsm əsərlərinin satış portalının təşkilatçılığı ilə Azərbaycan rəssamlarının onlayn satış sərgisi təşkil edilmişdir. "Azərbaycan Rəssamlarının Onlayn Satış Sərgisi" respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini inkişaf etdirmək, alıcı və satıcılar arasında yeni əlaqələrin yaradılmasına dəstək olmaq, art biznes sahəsində rəqabət qabiliyyətini gücləndirmək məqsədi ilə həyata keçirilmişdir.

15 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə "Öncə Vətəndir" adlı onlayn foto-plakat sərgisi keçirilmişdir. Hərbi vətənpərvərlik mövzusunda təşkil edilən sərginin ekspozisiyası Müdafiə Nazirliyinin aidiyyəti arxivinə məxsus artilleriya silahlarının, döyüş sursatlarının, hərbi təlimlərdən və paradlardan çəkilmiş fotoşəkillərdən, rəssam Zaur Kantemirov və Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı tərəfindən hazırlanan plakatlardan ibarət olmuşdur.

25 sentyabr 2020-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2020-ci il Sərəncamına əsasən tədbirlər planına uyğun olaraq əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illiyi münasibətilə virtual sərgi keçirilmişdir.

COVİD-19 pandemiyası səbəbi ilə sərgi salonların bağlı olması ilə əlaqədar hesabat dövründə Azərbaycanın tanınmış rəssamları Xalq rəssamı Toğrul Nərimanbəyov, Əməkdar incəsənət xadimi Kamal Əhməd, Xalq rəssamı Nadir Əbdürrəhmanov, Əməkdar rəssam Aydın Rəcəbov, Xalq rəssamı Güllü Mustafayeva, Xalq rəssamı Rafiq Mehdiyev, əfsannəvi kəşfiyyatçı, rəssam Mehdi Hüseynzadənin həyat və yaradıcılığından ibarət onlayn təqdimatlar təşkil olunmuşdur.

Nazirliyin və Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən "Evdə Qal-Qalib Gəl!" devizi altında rəssamlar və sənətsevərlər həmrəyliyə dəvət edilmişdir. Qalereya tərəfindən Azərbaycanın tanınmış rəssamları yaradıcılıq prosesindən ibarət silsilə videoçarxlar yayınlamağa bşlanılmışdır. 27 mart tarixindən Cəlal Ağayev, Vüqar Muradov, Mirazər Abdullayev, Vüqar Əli, İnna Kostina, Ayan Əziz, Şəhla Qəhramanlı, Arif Əziz, Məzahir Rüstəmov, Fərhad Yalquzaq, Lalə Hüseynzadə kimi tanınmış rəssamlar layihəyə qoşulmuşdur.

## MUZEY İŞİ VƏ MƏDƏNİ SƏRVƏTLƏRƏ NƏZARƏT

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərin 2020-ci il üçün statistik hesabatları toplanılmış və Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsində qeydiyyata alınmışdır.

1990-cı il 20 yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı respublikanın muzey və Heydər Əliyev mərkəzlərində silsilə tədbirlər keçirilmişdir. Belə ki, 17 yanvar 2020-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Qan yaddaşımız" adlı rəsm sərgisi təşkil olunmuşdur. Sərgidə rəssamlar Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Hafiz Məmmədov, Vidadi Nərimanbəyov, Sara Manafova, Şamo Abbasov, Cahangir Rüstəmov, Fərman Qulamov, Arif Hüseynov, Elmira Şahtaxtinskaya, Xanlar Əhmədov və Sahib Quliyevin "Bakı müsibəti", "19 yanvar 1990-cı il", "Şəhidlər", "Narahat axşam", "Təcavüz", "Şəhidlərə ithaf", "Allah bizə kömək olsun" adlı əsərləri nümayiş olunmuşdur.

17 yanvar 2020-ci il tarixində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Azərbaycan Dövlət Teatr Muzeyi ilə birgə 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə "20 Yanvar faciəsi Azərbaycan bəstəkarlarının yaradıcılığında" və "20 yanvar faciəsi qan yaddaşımızdır" mövzularında mühazirələr oxunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "2 fevral - Gənclər günü kimi qeyd olunması haqqında" Sərəncamına, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən Mədəniyyət Nazirliyi tərəfindən 1-5 fevral 2020-ci il tarixində təşkil edilmiş ənənəvi "Gəncliyin səsi" festivalı çərçivəsində Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərdə "Açıq qapı günü" elan olunmuşdur.

Cari ilin 19 fevral tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Çingiz Fərzəliyev və Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin Muzeylərlə iş sektorunun müdiri Nərgiz Abdullayeva

Rusiya Dövlət Ermitajının direktoru Mixail Piotrovski ilə görüş keçirmişlər. Görüş nəticəsində mədəniyyətimizin təbliği məqsədilə Dövlət Ermitajında qorunub saxlanılan ölkəmizə məxsus mədəniyyət nümunələrindən ibarət "Azərbaycan incəsənəti" adlı daimi ekspozisiyanın yaradılmasına nail olunmuşdur. Bununla bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən müvafiq maliyyə dəstəyi göstərilmiş və növbəti il qeyd edilən ekspozisiyanın təntənəli açılış mərasiminin keçirilməsi nəzərdə tutulmuşdur.

Cari ilin 26-27 fevral tarixində Belarus Respublikasının Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində MDB iştirakçı dövlətlərinin İşçi qrupu tərəfindən «Virtual Mədəni İrs Muzeyi» internet-portalı haqqında əsasnamə layihəsinin hazırlanması ilə bağlı iclas keçirilmişdir.

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Özbəkistan respublikalarının və Rusiya Federasiyasının, həmçinin MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişdir. İclas iştirakçıları Konsepsiya layihəsini genişləndirərək «MDB İştirakçı Dövlətlərin Virtual Mədəni İrs Muzeyi» internet-portalında bölmələr yaratmaqla hazırki milli internet resurslarına bağlantıların göndərməsi, habelə burada Virtual Mədəni İrs Muzeyi portalında keçidlərin (banerlərin) yerləşdirilməsi nəticəsinə gəldilər.

Xocalı Soyqırımının 28-ci ildönümü ilə bağlı respublikanın muzey və Heydər Əliyev mərkəzlərində sərgilər, xatirə görüşləri, tədbirlər keçirilmişdir.

Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi məqsədilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün muzey müəssisələri (133 muzey və 59 Heydər Əliyev mərkəzi) müəyyən müddət ərzində tamaşaçılar üçün bağlanılmışdır. Muzey müəssisələri pandemiya dövründə onlayn fəaliyyət vasitəsilə çox qısa zamanda öz işlərini karantin dövrünün tələblərinə uyğunlaşdırmışdır. Bu müddət ərzində bir sıra onlayn sərgilər keçirilmiş, uğurlu layihələr reallaşdırılmış, muzeylərin sosial şəbəkələrdəki səhifələrində mütəmadi olaraq məlumatlar paylaşılmışdır. Belə ki, respublikada fəaliyyət göstərən muzeylər VR (Virtual reallıq), onlayn, distant xidmətlərə keçmişlər. Bu baxımdan Bakı şəhər muzeyləri aktiv rejimdə müxtəlif saytlar (http://mct.gov.az/ , https://museum.az/ , https://creative.az/ və s.), YouTube, Facebook, Twitter, Instagram və s. sosial şəbəkələr vasitəsilə 182 onlayn xidmət (ekspozisiya və sərgilərin virtual turu, tarix, təsviri və tətbiqi sənət, ədəbiyyat, musiqi, ustad və s. dərsləri, mühazirələr, konsert proqramları) tamaşaçılar üçün nümayiş etmişlər. Eyni zamanda, insanların evdə olduqları müddətdə asudə vaxtlarını daha səmərəli keçirilməsi məqsədilə muzeylər müxtəlif layihələrə ("Virtual muzey", "Muzey eksponatının hekayəsini sən danış", "Muzey kolleksiyasının inciləri", "Muzey hamı üçün", "Bir eksponatın tarixi" və s.) start vermişdir.

Hesabat ilində Mədəniyyət Nazirliyi tərəfindən yüksək səviyyəli ekskursiyaların təşkili məqsədilə Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna alınmış "ORPHEO Touche" cihazları üçün Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində audio bələdçiliklə bağlı mobil tətbiqlər hazırlanmışdır. Dünyanın ən məşhur muzeylərində (Fransanın Orse Muzeyində, Versal Sarayında, Tokyo Metropolitan Muzeyində) istifadə olunan bu avadanlıqlar üçün 5 dildə, həmin dillərin xarici ekspertləri tərəfindən mətnlər tərcümə edilmişdir.

2020-ci ildə Tovuz Tarix-Diyarşünaslıq Muzeyi və Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin bədii tərtibat işlərinin görülməsi yekunlaşmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Tovuz rayonuna səfəri

çərçivəsində 2020-ci ilin martın 4-də hər iki muzeyin açılışında iştirak etmiş və yaradılan şəraitlə tanış olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının 10 aprel 2020-ci il tarixli 2/235 nömrəli məktubuna əsasən ölkədə fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin vahid ekspozisiya tərtibatı konsepsiyasının hazırlanması məqsədilə Mədəniyyət Nazirliyinin nəzdində İşçi qrup yaradılmışdır. Qeyd edilən İşçi qrupa Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında "Geodeziya və Kartoqrafiya" MMC-nin nümayəndələri daxil edilmişdir. Cari ilin 21 aprel tarixindən etibarən İşçi qrupun üzvlərinin iştirakı ilə video konfranslar keçirilmişdir. Konfranslarda aparılan müzakirələr nəticəsində Mədəniyyət Nazirliyi tərəfindən cari ilin may ayında "Tarix-diyarşünaslıq muzeylərinin bədii tərtibat və ekspozisiya planlarının bələdçisi"nin ilkin layihəsi hazırlanmışdır. Bu layihənin hazırlanması zamanı beynəlxalq təcrübəyə istinad edilmiş, bir çox xarici ölkələrin muzey ekspozisiya bələdçiləri tədqiq edilmiş və müvafiq qaydada onlardan istifadə olunmuşdur. İşçi qrupun üzvləri arasında layihənin hazırlanmış ilkin variantına dair fikir mübadiləsi aparılmış və onlar tərəfindən verilmiş təklif və düzəlişlər layihəyə əlavə olunmuşdur. Yekun düzəlişlərdən sonra sözügedən bələdçi layihəsi yaxın gələcəkdə nəşr edilməsi məqsədilə təsdiq üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

14 aprel 2020-ci il tarixində Azərbaycan mədəniyyətini, xalça və xalçaçılıq, təsviri və dekorativ sənət nümunələrinin ən yaxşı hekayəsi ilə bağlı "Muzey eksponatının hekayəsini sən danış" adlı müsabiqə elan edilmişdir. Müsabiqənin təşkilində əsas məqsəd ölkəmizdə yeni koronavirus (COVİD-19) infeksiyası ilə bağlı tətbiq edilən karantin rejimi ilə əlaqədar ev şəraitində asudə vaxtın səmərəli və faydalı təşkil edilməsi, muzey sahəsində cəmiyyətin yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi, istedadlı müəlliflərin aşkara çıxarılması, həmçinin mədəniyyətimizə marağın artırılması və yeni fikirlərin toplaması olmuşdur. Müsabiqə çərçivəsində "Museum.az" Facebook səhifəsinin izləyicilərinə Bakı şəhərinin aparıcı muzeyləri – Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Milli Xalça Muzeyinin fondunda qorunub saxlanılan, zəngin tarixə malik olan Azərbaycan incəsənəti, xalça, təsviri və dekorativ-tətbiqi sənət nümunələrindən seçilmiş tarixi, bədii, elmi əhəmiyyət kəsb edən 14 unikal eksponat təqdim edilmişdir. Müsabiqə iştirakçıları eksponatlardan birini seçərək ona həsr olunmuş yeni hekayə yazmışdır. Müsabiqənin dörd kateqoriya – "Qran Pri" kateqoriyası üzrə 3, "Ən yaxşı xarici dildə yazılan hekayə" kateqoriyası üzrə 4, "Ən yaxşı məktəbli hekayəsi" kateqoriyası üzrə 3 və "Ən yaxşı hekayə" kateqoriyası üzrə 9 olmaqla ümumilikdə 19 qalibi münsiflər heyəti tərəfindən seçilmiş və mükafatlandırılmışdır. Belə ki, cari ilin 16 sentyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində adıçəkilən müsabiqənin qaliblərinin bir qismi - iki əsas kateqoriya (Qran Pri və "Ən yaxşı məktəbli hekayəsi) üzrə 5 qalib Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov tərəfindən mükafatlandırılmışdır. Digər qaliblərin isə mükafatlandırılma mərasimi Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsi tərəfindən təşkil edilmişdir. Qaliblərə diplom və hədiyyələr təqdim edilmişdir.

9 may 2020-ci il tarixində "Museum.az" internet səhifəsində yaradılmış "Virtual exhibitions (virtual sərgilər)" adlı platformada "9 May Qələbə günü"nə həsr olunmuş "Azərbaycanın Böyük Vətən Müharibəsinə verdiyi tövfələr" adlı virtual sərgi təqdim edilmişdir. Sərgidə Azərbaycan Milli İncəsənət, Azərbaycan Milli Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr, Azərbaycan İstiqlal, Üzeyir Hacıbəylinin Ev, Bülbülün Memorial, Niyazinin Xatirə, Yusuf Məmmədəliyevin Memorial və digər muzeylərin fondlarında

qorunub saxlanılan seçilmiş eksponatlar Azərbaycan və rus dillərində nümayiş etdirilmişdir. Virtual sərgi Azərbaycan Respublikasında koronavirus infeksiyasının (COVİD - 19) yayılması ilə bağlı yaranmış vəziyyət ilə əlaqədar muzeylərin fəaliyyətinin dayandırılması nəzərə alınaraq hazırlanmışdır.

Cari ildə 18 may Beynəlxalq Muzeylər Günü “Muzeylər bərabərlik üçün: müxtəliflik və inklüzivlik” devizi altında onlayn formatda silsilə təqdimatlar və tədbirlərlə qeyd edilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyi görmə qabiliyyətini tamamilə və ya qismən itirmiş uşaqların rəsmlərindən ibarət sərgi təqdim etmişdir. Bu rəsmlər muzeydə “Sərhədsiz incəsənət” adlı beynəlxalq seminar çərçivəsində Tbilisi Rəssamlıq Akademiyasının professoru Georgiy Quramoviç Quraspaşvillinin xüsusi metodikası ilə keçirilmiş ustad dərsləri zamanı 5 nömrəli respublika xüsusi internat məktəbinin və Reabilitasiya Mərkəzinin şagirdləri tərəfindən yaradılmışdır. Virtual sərgi muzeyin “Facebook”, “İnstagram” və “Twitter” səhifələrindən nümayiş etdirilmişdir.

Azərbaycan Milli Xalça Muzeyinin “Muzeydə virtual tur” layihəsi çərçivəsində tanınmış ictimai simalar muzeyin ekspozisiyası, burada nümayiş olunan xalça və digər dekorativ-tətbiqi sənət nümunələri haqqında bələdçi qismində çıxış etmişlər. Virtual tur rus və ingilis dillərində də təqdim olunmuşdur. Həmçinin ekskursiya muzeydə ilk dəfə “Muzeylər bərabərlik üçün: müxtəliflik və inklüzivlik” devizinə uyğun olaraq surdo-tərcümə ilə müşayiət edilmişdir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi öz kolleksiyalarını üç dildə “Dinləyin bizdə nələr vardır”, “Təsviri sənət əsərləri Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində” kimi müxtəlif rubrikalar altında geniş auditoriyaya təqdim etmişdir.

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi 18 may Beynəlxalq Muzeylər Günü münasibətilə “Dünya bizim hamımızın” adlı proqram hazırlamışdır. Proqrama “Birgə və Sağlam İctimai Birlik” ətrafında toplaşan spektr pozuntular qrupundan olan uşaqların rəsmlərindən ibarət virtual sərgi və “Əsa” İnklüziv Teatrının “Göy quş” tamaşası sosial şəbəkədən canlı yayımlanmışdır.

Azərbaycan İstiqlal Muzeyi “Zoom” tətbiqi proqramı ilə cəmiyyətin həssas qrup vətəndaşları üçün “Bərabərlik” adlı onlayn ekskursiya təqdim etmişdir.

Cəfər Cabbarlının Ev-Muzeyi muzeydə qorunan nadir tarixi eksponatlardan, eləcə də müxtəlif illərdə həyata keçirilmiş uğurlu layihələr və maraqlı tədbirləri əks etdirən fotoşəkillərdən ibarət “Dan ulduzu” adlı fotosərgi təqdim etmişdir.

18 may Beynəlxalq Muzeylər Gününə həsr olunmuş silsilə tədbirlərin təşkilində regionlarda fəaliyyət göstərən muzeylər də yaxından iştirak etmişdir. Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi tərəfindən məktəblilər arasında “Muzeylər bərabərlik üçün: müxtəliflik və inklüzivlik” və “Mənim eksponatım” devizi ilə “Sirli-sehrli aləm” adlı onlayn rəsm müsabiqəsi keçirilmişdir. Masallı Tarix-Diyarşünaslıq Muzeyi tərəfindən sosial şəbəkələr üzərindən “Halay” folklor musiqi və rəqs ansamblının ifasında “Folklorumuzun keçmişi və bu günü” mövzusunda virtual təqdimat keçirilmişdir.

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri və muzeylərdə 28 May - Respublika Günü və Ramazan bayramı münasibəti ilə yaranmış qeyri-iş günlərində vətəndaşların asudə vaxtlarının səmərəli təşkil olunması və Azərbaycan xalqının zəngin mədəni irsi və qədim tarixi ilə yaxından tanış olmaq məqsədi ilə 25-28 may tarixlərində “açıq qapı” günləri təşkil olunmuşdur. Qeyd edilən tarixlərdə adıçəkilən müəssisələrə giriş sərbəst olmuş və müəssisələrin fəaliyyəti Nazirlər Kabineti yanında Operativ Qərargah

tərəfindən təqdim olunmuş zəruri sosial davranış və sanitar epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilmişdir.

Cari ilin 24 avqust tarixində “Avropada mədəniyyət siyasəti və təmayülləri Kompendiumu” Assosiasiyasının Ekspertlərinin onlayn görüşündə Kompendium layihəsi üzrə milli ekspert, Nazirliyin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin Mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun müdiri Yaşar Hüseynli iştirak etmişdir. Görüşdə Assosiasiyanın 2021-2023-cü illər üçün İş Planı müzakirə edilmiş, Assosiasiyanın İdarə Heyətinin yeni üzvləri təqdim olunmuş və seçilmiş, Avropa və milli mədəniyyət siyasətləri müzakirə edilmişdir. Y.Hüseynli tərəfindən Nazirlikdə aparılan islahatlar barədə məlumat verilmiş, həmçinin Kompendium Assosiasiyası ilə daha sıx əlaqələrin qurulması imkanlarının araşdırılması haqqında fikir mübadiləsi aparılmışdır.

2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyi erməni işğalından azad olunduqdan sonra Azərbaycan Silahlı Qüvvələri tərəfindən təhlükəsizliyi bərpa olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 23 sentyabr 2020-ci il tarixli 154-f nömrəli əmri ilə Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin Cocuq Mərcanlı filialı yaradılmışdır. Cari ilin 12-14 iyul tarixlərində Ermənistan silahlı qüvvələrinin ölkəmizə hücumu nəticəsində torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin və general-mayor Polad Həşimovun xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar muzeydə müvafiq işlər görülmüş, yeni stendlər quraşdırılmış, banerlər yenilənmişdir. Lakin ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən karantin rejimi ilə əlaqədar cari ildə keçirilməsi nəzərdə tutulan Cocuq Mərcanlı Muzeyinin açılış mərasimi təxirə salınmışdır.

Cari ildə Azərbaycan Respublikasının Xalq rəssamı Əzim Əzimzadənin 140 illik yubileyi qeyd olunmuşdur. Bununla bağlı uzun illər səmərəli fəaliyyət göstərən, həmçinin gənclər arasında incəsənətin təbliğatında böyük rol oynayan Əzim Əzimzadənin Mənzil-Muzeyinin əməkdaşları muzey işi sahəsində səmərəli iş fəaliyyətləri nəzərə alınaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Fəxri Fərmanları ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2020-ci il üçün tərtib olunmuş İş Planının müvafiq bəndinin icrasını təmin etmək məqsədilə Sabirabad Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibatı ilə bağlı işlərə başlanılmışdır. Bu işlərin 2021-ci ilin birinci yarısında tamamlanması nəzərdə tutulmuşdur.

16 noyabr 2020-ci il tarixində Azərbaycan Milli Xalça Muzeyində Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunmuş videoçarx təqdim edilmiş, “Azərbaycan Milli Xalça Muzeyi təcrübəsində boyanmamış yundan toxunan xalçalar” adlı sərgi nümayiş olunmuşdur.

Cari ilin 27 sentyabr tarixindən başlayan Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 gün sürən hərbi əməliyyatları zamanı Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsi tərəfindən mütəmadi olaraq cəbhə bölgəsində fəaliyyət göstərən muzeylərə nəzarət edilmişdir. Belə ki, muzey əşyalarının siyahıları hazırlanmış və evakuasiya ilə bağlı müvafiq görüşlər keçirilmişdir. Həmçinin Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində fəaliyyətini bərpa edəcək muzeylərin və muzey eksponatlarının siyahısı hazırlanmışdır. Hazırda qeyd edilən

ərazidə muzey müəssisələrinin fəaliyyətinin bərpası ilə əlaqədar müvafiq işlər həyata keçirilməkdədir.

Cari ilin 8-9 oktyabr tarixlərində Romada təşkil olunmuş "Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında" UNİDROİT-in Konvensiyası"nın 25-ci ildönümünə həsr olunmuş beynəlxalq onlayn konfransda Nazirliyin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin Mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun müdiri Yaşar Hüseynli iştirak etmişdir. Nazirliyin nümayəndəsi çıxışında oğurlanmış mədəni sərvətlərin qanunsuz ticarətinin qarşısının alınması, xüsusi kolleksiyalarda, auksionlarda, sənət bazarlarında və s. mədəni sərvətlərin mənşəyinin şəffaflığının artırılması kimi vacib məsələlərə, həmçinin erməni işğalçıları tərəfindən 30 ilə yaxın müddət ərzində Azərbaycanın işğal altında olan ərazilərində törədilmiş mədəni terrora diqqət çəkmiş, məsələnin həlli kimi Konvensiyanın həyata keçirilməsi üçün tətbiq olunan mexanizmlərin təkmilləşdirilməsini, Konvensiyanın Əməliyyat Təlimatları kimi beynəlxalq sənədin hazırlanmasının məqsədəuyğun olduğunu qeyd etmişdir.

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" 3 dekabr 2020-ci il tarixli Sərəncam imzalanmışdır. Bununla əlaqədar Mədəniyyət Nazirliyinə Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yeri və layihələndirilməsi ilə bağlı təkliflərin hazırlanaraq iki ay müddətində Nazirlər Kabinetinə təqdim edilməsi tapşırılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən Zəfər muzeyinin məzmununun hazırlanması və qısa müddət ərzində bununla bağlı işçi qrupunun yaradılması Mədəniyyət Nazirliyinə həvalə edilmişdir. Göstərilənlərlə bağlı müvafiq işçi qrupun yaradılması və muzeyin konsepsiyasının hazırlanması ilə bağlı Nazirlər Kabinetinə və aidiyyəti dövlət qurumlarına müraciət ünvanlanmışdır. Hazırda qeyd edilən istiqamətdə işlər davam etdirilir.

Cari ilin 11 dekabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində 2 əlamətdar hadisəyə həsr olunmuş tədbir keçirilmişdir. Birinci mühüm hadisə İtaliyanın məşhur Sartirano yarmarkasında satışa çıxarılan XVII-XIX əsrlərə aid elmi, bədii, tarixi və muzey əhəmiyyəti kəsb edən 3 (üç) ədəd unikal Azərbaycan xalçasının Nazirlik tərəfindən satın alınaraq öz doğma vətəninə qaytarılmasıdır. Tədbir çərçivəsində Qarabağın ən məşhur xalçalarından olan "Çələbi" xalçası Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialına, "Quba" xalçası Azərbaycan Milli Xalça Muzeyinə, Qarabağ xalça qrupuna aid olan digər orijinal xalça isə Azərbaycan Milli İncəsənət Muzeyinə hədiyyə edilmişdir. Tədbirin digər mühüm hissəsi isə Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətə başlamasının 40-cı ildönümünə həsr olunmuşdur. Bununla əlaqədar muzeyin əməkdaşlarının yorulmaz fəaliyyətini, əldə etdikləri nailiyyətləri, qürbət həyatı yaşamalarına baxmayaraq daima muzeyin kolleksiyalarının zənginləşdirilməsi üçün çalışdıqlarını nəzərə alaraq, Nazirlik tərəfindən onların hər biri pul mükafatı və Fəxri fərman ilə təltif edilmişdir. Tədbirdə Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin 40 illiyinə həsr olunan videoçarx nümayiş etdirildikdən sonra muzeyin xilas edilmiş dəyərli eksponatlarından ibarət sərginin açılışı keçirilmişdir. Sözügedən sərgi pandemiya ilə əlaqədar izləyicilərə virtual formatda "museum.az" platformasında təqdim edilmişdir.

Şöbə tərəfindən mədəniyyət sərvətlərinə nəzarətin gücləndirilməsi, müvafiq məlumat bazalarının və reyestrlərin yaradılması, doldurulması və aparılması istiqamətində 2020-ci il ərzində mövcud pandemiya və sosial məsafənin qorunması şəraitində bir sıra mühüm işlər görülmüşdür.

“Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri”nin (http://intangible.az/front/az) məlumat bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor, Arxeologiya və Etnoqrafiya, Memarlıq və İncəsənət institutları ilə qurulmuş əlaqələr nəticəsində cari il ərzində 400-ə yaxın qeyri-maddi mədəni irs nümunəsinin məlumat bazası formalaşdırılmışdır. Məlum olduğu kimi, “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri” portalı 2018-ci ilin oktyabrında ictimaiyyətin istifadəsinə verilmişdir. Həmin vaxtdan etibarən, 850-dən artıq qeyri-maddi mədəni irs nümunəsinin məlumat bazası formalaşdırılmış, həmçinin 180 qeyri-maddi mədəni irs daşıyıcısı, 68 qurum və təşkilat haqqında məlumat portalda yerləşdirilmişdir. Reyestrin siyahısında yer alan peşə növləri və əsnaflar, nəqliyyat vasitələri, tikinti mədəniyyəti, yaşayış məskənləri, milli geyim, tikmə sənəti, toxuculuq, dulusçuluq, dəmirçilik, misgərlik, silahsazlıq, zərgərlik sənətlərinə dair nümunələrin əksəriyyətinin məlumat bazası formalaşdırılmışdır. Cari il ərzində “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri”nin portalı daim işlək vəziyyətdə saxlanılmış, müntəzəm olaraq xəbərlər və günün nümunələri yerləşdirilmiş, daxil edilmiş yeni nümunələr haqqında vaxtaşırı ictimaiyyətə məlumat verilmişdir.

Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərinin informasiya portalının (https://heydaraliyev-centers.az/) davamlılığı təmin olunmuş və portala Heydər Əliyev mərkəzləri tərəfindən mütəmadi olaraq müvafiq məlumatlar əlavə edilmişdir. Həmçinin cari il ərzində Heydər Əliyev mərkəzlərinin fəaliyyəti üzrə bir sıra müşahidə və monitorinqlər təşkil edilmiş və məlum olmuşdur ki, daha müasir tələbatlara uyğun səviyyədə təşkil edilməsi məqsədilə qeyd olunan müəssisələrin fəaliyyəti təkmilləşdirilməli, bununla əlaqədar normativ-hüquqi, inzibati, maliyyə, informasiya, kadr, infrastruktur kimi təminat mexanizmlərində islahatlar aparılmalıdır. Məsələ ilə əlaqədar “Heydər Əliyev mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi” layihəsi hazırlanmışdır.

Muzey sərvətlərinə nəzarətin gücləndirilməsi məqsədilə müvafiq İT şirkəti ilə birgə yaradılmış “Muzey əşyalarının daimi mühafizə portalı”nın (https://museums.com.az/) proqram təminatı, veb təminatı və vahid idarəetmə sistemi cari il ərzində təkmilləşdirilmişdir. Hazırda respublikada fəaliyyət göstərən rayon (şəhər) Heydər Əliyev mərkəzləri, aparıcı muzeylər, ev və xatirə muzeyləri, rayon (şəhər) tarix-diyarşünaslıq muzeyləri tərəfindən muzey fondlarında qorunub saxlanılan eksponatlar həmin portala daxil edilməkdədir.

Mədəniyyət sərvətlərinin ekspertizasının keçirilməsi, tarixi, bədii, elmi dəyərinin müəyyənləşdirilməsi və respublikadan çıxarılması üçün şəhadətnamə (icazə sənədi) verilməsi üzrə nazirliyin Azərbaycan Milli İncəsənət, Azərbaycan Milli Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət muzeyləri, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında yerləşən Ekspert Komissiyalarının səlahiyyətli nümayəndələri ilə birgə fəaliyyəti davam etdirilmiş və müvafiq tədbirlər görülmüşdür. Azərbaycan Milli Xalça Muzeyində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən cari il ərzində mədəniyyət sərvətlərinin ekspertizasının keçirilməsi, tarixi, bədii, elmi dəyərinin müəyyənləşdirilməsi üçün əhali tərəfindən daxil olmuş 395 müraciətə baxılmış, 1144 ödənişli, 41 ödənişsiz icazə sənədi (Şəhadətnamə) verilmiş, tarixi, bədii, elmi, texnoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün 10 rəy bildirilmişdir. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Ekspert Komissiyası tərəfindən 2020-ci il ərzində 235 ədəd musiqi alətinin ekspertizası keçirilmişdir. Onların arasında həm Azərbaycan milli musiqi alətləri – tar, kamança, nağara, qaval və s., həm də Avropa orkestr musiqi alətləri – violin, fortepiano, klarnet, gitara və s. var. Azərbaycan Milli İncəsənət Muzeyində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən cari il ərzində rəsm əsərləri, heykəllər, ikonalar, qılınc,

xəncər, dekorativ vazlar, müxtəlif suvenirlər və s. üçün 299 rəy, 1300 ədəd sertifikat (icazə sənədi) və rəsm əsəri üçün 1 ədəd müvəqqəti çıxarış üçün icazə sənədi verilmişdir.

Nazirliyin rəhbərliyinin göstərişinə əsasən Qarabağın mədəniyyəti, incəsənəti və s. haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması məqsədilə "Qarabağnamə" adlı portalın struktur-layihəsi hazırlanmışdır. Azərbaycan, ingilis, rus və fransız dillərində məlumatların təqdim olunması nəzərdə tutulan portalda "Qarabağın tarixi", "Vətən müharibəsi", "Toponimlər", "Abidələr/qoruqlar", "Daşınar mədəni sərvətlər", "Musiqi", "Ədəbiyyat", "Kino", "Sənətkarlıq", "Mətbəx", "Xadimlər", "Mədəniyyət müəssisələri", "Kitabxana/mediateka", "Xəbərlər", "Əlaqə və təkliflər" bölmələri yer alacaq, hər bölmədə mövzuya uyğun zəngin məlumatlar öz əksini tapacaqdır.

Nazirlikdə aparılan islahatlar və Mədəniyyət strategiyasının hazırlanması ilə əlaqədar şöbə tərəfindən "Muzeylər üçün 2021-2025 Strateji Yol Xəritəsi"nin layihəsi hazırlanmışdır. Sözügedən layihə ümumilikdə 11 istiqamət - "Normativ hüquqi bazanın yenilənməsi", "Muzey infrastrukturunun təkmilləşdirilməsi", "Muzeylərdə maddi-texniki baza", "Muzeylərdə optimallaşdırma və idarəetmənin təkmilləşdirilməsi", "Muzey sahəsində təhsil, peşəkar kadr hazırlığı", "Sərgi və ekspozisiya", "Muzey fondlarının konservasiya və restovrasiyası", "Muzey eksponatlarının kataloqlaşdırılması", "Muzeylərin təbliğatı", "Muzeylərdə göstərilən xidmətlərin təkmilləşdirilməsi", "Yeni muzeylərin yaradılması", "Beynəlxalq əməkdaşlıq" üzrə muzey sahəsində təkmilləşdirilmə ilə bağlı təkliflərdən ibarətdir.

## MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin müvafiq fərmanları, sərəncamları, qərarları, əmrləri və qanunvericilikdən irəli gələn digər göstərişlərinə uyğun tədbirlər görülmüşdür.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli 195 nömrəli Sərəncamı ilə təsdiqlənmiş"Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı müvafiq işlər həyata keçirilmişdir.

Belə ki, Tədbirlər Planının 2.1.1 yarımbəndinin (abidələrin yeni siyahısının tərtib edilməsi) icrasının təmin olunması məqsədilə Dövlət Xidməti tərəfindən aparılmış monitorinqlər başa çatdırılmış, nəticələri təhlil edilmiş və razılaşdırılması üçün AMEA-ya göndərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" 22 oktybar 2019-cu il tarixli Sərəncamına əsasən bir sıra tarix-mədəniyyət qoruqlarının fəaliyyəti təkmilləşdirilmiş, nəticədə "Çıraqqala" və "Şabran şəhəri" tarixi qoruqlarının ərazisi "Çıraqqala–Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmiş, "Nizami Gəncəvi məqbərəsi" kompleksi Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibində fəaliyyətini davam etdirməyə başlamış, eyni zamanda Azərbaycan Respublikasının Şəmkir rayonunun və Ağsu rayonunun tarixi ərazisi müvafiq olaraq "Qədim Şəmkir Şəhəri" və "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix Memarlıq Qoruqları elan edilmişdir. Sərəncamın icrası çərçivəsində Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti yerli icra hakimiyyəti orqanları tərəfindən adları qeyd olunan qoruqların sərhədlərini

və mühafizə zonalarını müəyyən edən xəritələri və əsasnamələrinin qərar layihələri hazırlanmış və təsdiq üçün 2020-ci il 23 mart tarixli, 10/18-16 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir. Ədliyyə Nazirliyinin rəyi nəzərə alınaraq qoruqların sərhədlərini və mühafizə zonalarını əks etdirən xəritələr yenidən işlənilmiş və tövsiyə edilmiş bütün qurumlarla razılaşdırılaraq Nazirlər Kabinetinə göndərilmişdir.

“Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili” haqqında Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli Fərmanının 7.8-ci bəndinin icrası üçün Dövlət Xidmətinin əməkdaşları işğaldan azad olunmuş rayonlara ezam edilmiş və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi ilə bağlı vəzifələrin yerinə yetirilməsinə başlanılmışdır.

“Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyətinin təşkil edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2020-ci il tarixli 168 nömrəli Sərəncamı ilə Tarix və mədəniyyət abidələri, mədəniyyət müəssisələri üzrə İşçi Qrupu yaradılmışdır.

İşçi Qrupunun məqsədi işğaldan azad olunmuş ərazilərimizdə mədəni sərvətlərin qeydə alınması, bərpası, qorunması və istifadəsi sahəsində genişmiqyaslı, çoxşaxəli və əlaqələndirilmiş fəaliyyəti təmin etməkdir.

Hal-hazıradək İşçi Qrup tərəfindən beş rayonda aparılan ilkin monitorinqlər zamanı 177 tarix-mədəniyyət abidəsinə və 105 tarixi, memarlıq, arxeoloji əlamət daşıyan obyektə (yeni aşkar olunmuş abidə-72) baxış keçirilmişdir. Monitorinqlər zamanı əksər abidələrin dağıdıldığı, mənimsənildiyi və digər vandalizm aktlarına məruz qaldığı aşkar edilmişdir. Hazırda monitorinq davam edir.

Şuşa Dövlət Tarix-Mədəniyyət Qoruğunun fəaliyyətinin yenidən bərpa olunması, maddi-texniki bazasının təmin edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə müraciət ünvanlanmışdır.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən daşınmaz tarix-mədəniyyət abidələrinin qorunması və idarə edilməsi tədbirlərinin gücləndirilməsi məqsədilə həmin ərazilərdə Dövlət Xidmətinin regional bölmələrinin yaradılması ilə bağlı təkliflər hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

Dövlət Xidməti tərəfindən Respublika ərazisində yerləşən bir çox abidəyə müdaxilə hallarının aradan qaldırılması məqsədilə yerli icra hakimiyyəti və hüquq mühafizə orqanları ilə birgə iş aparılmış və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərinə uyğun olaraq tədbirlər görülmüşdür. Abidələrin icarədarları, mülkiyyətçiləri olan aidiyyəti hüquqi və fiziki şəxslərlə görüşlər keçirilmiş, abidələrin qorunması istiqamətində müxtəlif təbliğat və təşviqat işləri aparılmış, törətdikləri xətalara görə xəbərdarlıq edilmiş və qanunamüvafiq tədbirlər görülmüşdür. Həmçinin Dövlət Xidməti tərəfindən Respublika ərazisində yerləşən abidələrin mülkiyyətçisi və ya istifadəçiləri olan fiziki və hüquqi şəxslər ilə abidələrin qorunması və onlardan istifadə qaydalarına dair mühafizə müqavilələri bağlanmışdır. Bir sıra abidələr üzrə sonrakı idarəetmənin həyata keçirilməsi məqsədilə həmin abidələrin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin balansına verilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin məktubu əsasında bəzi abidələrin balansa götürülməsi ilə bağlı işlər davam etdirilmiş, eləcə də bir sıra abidələrin balans mənsubiyyətinin müəyyənləşdirilməsi məqsədilə 40/18-16 nömrəli, 18.11.2020-cil tarixli məktubla Azərbaycan Respublikasının Nazirlər

Kabinetinə müraciət olunmuşdur. Nazirliyin tabeliyində fəaliyyət göstərən tarix-mədəniyyət qoruqlarının fəaliyyəti Azərbaycan Respublikasında "COVİD – 19" Pandemiyasının yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrinə, eləcə də Mədəniyyət Nazirliyinin müvafiq əmirlərinə uyğun şəkildə təşkil olunmuşdur.

Dövlət Xidməti və tabe qurumlar tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna, həmçinin Koronavirusla Mübarizəyə Dəstək Fonduna müvafiq maliyyə vəsaiti köçürülmüşdür.

Cari ilin 27 sentyabr tarixindən etibarən Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının yaşayış məntəqələrini atəşə tutulması ilə bağlı cəbhəyanı bölgələrdə fəaliyyət göstərən əməkdaşların təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər görülmüş və müvafiq təlimatlandırma işləri aparılmışdır.

Hesabat dövründə qoruqların ərazisində yerləşən tarix-mədəniyyət abidələrinin mühafizəsi və toxunulmazlığı təmin edilmiş, qoruqların sərhədləri daxilində abidələrdən digər məqsədlərlə istifadə olunmasına, müxtəlif tədbirlərin keçirilməsinə yol verilməmişdir.

Cari il ərzində qoruqlara gələn ziyarətçilərin ümumi sayı 28305 nəfər təşkil etmişdir ki, bunlardan da 8217 nəfəri xarici, 20088 nəfəri isə yerli ziyarətçilər olmuşdur.

Dövr ərzində Respublika ərazisində təbii təsirlər (yağış və sel sularının təsiri və s.), habelə insan fəaliyyəti nəticəsində üzə çıxmış arxeoloji abidələrin və digər maddi mədəniyyət nümunələrinin qorunması və tədqiqi üçün Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə müvafiq tədbirlər görülmüşdür. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunun 20-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının rayonları ərazisində arxeoloji qazıntı işləri aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən verilmiş 45 vəkalətnamə Dövlət Xidmətində qeydiyyatdan keçirilmiş və aparılan qazıntı işlərinə aidiyyəti üzrə yerli abidə mühafizəçiləri tərəfindən mütəmadi olaraq nəzarət təşkil edilmişdir.

Həmçinin növbəti ildən Respublika ərazisində aparılacaq arxeoloji qazıntı işlərinin səmərəli təşkili, qazıntı işləri başa çatdıqdan sonra konservasiya işlərinin aparılması və bununla bağlı digər işlərin daha praktik və çevik həyata keçirilməsi barədə Arxeologiya və Etnoqrafiya İnstitutu ilə müzakirələr aparılmışdır.

Cari il ərzində "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il tarixli, 3593 nömrəli Sərəncamında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üzrə aşağıda adları qeyd olunan layihələrin icrası istiqamətində müvafiq işlər davam etdirilmişdir.

- Qazax rayonu "Sınıq körpü" abidəsində (inventar №-7) bərpa-konservasiya işləri tam yekunlaşmış və qəbul komissiyasının aktlarının alınması üçün sənədlər hazırlanmaqdadır;
- Bakı şəhəri, Binəqədi rayonunda yeləşən "İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında əsaslı təmir və yenidənqurma işləri" davam etdirilmişdir,
- Tovuz rayonu Mədəniyyət evinin yenidənqurulması işlərinin başa çatdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2019-cu il tarixli, 1752 nömrəli Sərəncamına əsasən qeyd olunan obyektdə yenidənqurulma işləri yekunlaşmaq üzrədir,

- “Çıraqqala” abidəsində bərpa-konservasiya və möhkəmləndirmə işləri davam etdirilmişdir. Dövlət Xidmətinin əməkdaşları vaxtaşırı qalada olmuş, işlərin gedişatına nəzarət etmişlər. 30.09.2020-ci il tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini, rəisin vəzifə səlahiyyətlərini icra edən Azad Cəfərli "Çıraqqala-Şabran Dövlət Tarix-Mədəniyyət Qoruğunda olaraq qalada gedən təmir, tikinti və konservasiya işləri ilə tanış olmuşdur.

Lənkəran şəhərində yerləşən “Dairəvi qala”nın bərpasına maliyyə vəsaitinin ayrılması üçün layihə-smeta sənədləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur. Gədəbəydə sərt cografi relyefdə yerləşən “Qız qalası” abidəsində bərpa-möhkəmləndirmə işlərinin aparılması mümkünlüyünün müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciət olunmuşdur.

Büdcə vəsaitinin səmərəli istifadəsi məqsədilə abidələrin bərpası üçün əlavə maliyyə mənbələrinin müəyyən edilməsi məqsədilə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin qarşılıqlı əlaqələrin yaradılması və müştərək layihələrin həyata keçirilməsi istiqamətində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında bağlanmış niyyət məktubuna əsasən Böyük Mərdəkan qəsri və Tuba şah məscidinin bərpası ilə bağlı layihə işləri tamamlanmışdır.

Qorunma işinin kompleks şəkildə təmin edilməsi məqsədilə ötən ilin ikinci yarısında Dövlət Xidmətinin sifarişi ilə icrasına başlanılmış daşınmaz tarix və mədəniyyət abidələri üzrə 72 mühafizə zonasının və 110 pasport layihəsinin hazırlanması işləri yekunlaşdırılmış, bunlardan mühafizə zonaları üzrə 71 layihə müvafiq rayon-şəhər icra hakimiyyətləri, İqtisadiiyyat Nazirliyi Əmlak Məsələləri Dövlət Komitəsi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə, abidə pasportları üzrə isə 104 pasport layihəsi Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institutları ilə razılaşdırılmışdır. Digər layihələr isə müvafiq dövlət qurumlarında razılaşma prosesindədir. Bu istiqamətdə işlər davam etdirilir.

Carı il üçün abidələrin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi üzrə müvafiq dövlət təşkilatından ehtimal dəyər alınmış və müvafiq podrat təşkilatı ilə müqavilənin bağlanması üçün İqtisadiyyat Nazirliyinə müraciət olunmuşdur.

Abidələrə aid məlumatların səmərəli istifadəsi və idarə olunması üçün kompleks məlumat bazasının yaradılması məqsədilə Dövlət Xidməti tərəfindən mövcud abidələr barədə xəritə əsaslı informasiya sisteminin qurulması istiqamətində müvafiq işlərə başlanılmışdır. Platforma abidələr barədə istənilən məlumatın daha çevik və keyfiyyətlə istifadə olunmasına, məlumatların əldə olunması üçün sərf olunacaq vaxta qənaət olunmasına şərait yaradacaqdır.

Ölkəmizdə fəaliyyət göstərən televiziyalar və informasiya portallarının Dövlət Xidmətinin fəaliyyət istiqamətinə uyğun olaraq ünvanladıqları çoxsaylı suallar cavablandıırlmış, müsahibələr təşkil olunmuş, AzTV, İTV, CBC və sair kanallarda sahə üzrə təşkil edilmiş proqramlarda Dövlət Xidmətinin rəhbərliyi və əməkdaşlar səviyyəsində qonaq qismində iştirak təmin edilmişdir.

Uzun illər işğal altında saxlanılan ərazilərdə yerləşən tarix-mədəniyyət abidələrinin hazırki vəziyyəti, qorunması, bərpası, tanıdılması və gələcəkdə istifadəsi ilə bağlı yerli və xarici medianının sualları cavablandırlımışdır.

Dövlət Xidmətinin rəsmi internet resursu olan “heritage.gov.az” saytında, “facebook”, “instagram” və “twitter” səhifəsində xəbərlərlə yanaşı, daşınmaz tarix-mədəniyyət abidələri ilə bağlı istifadəçilər üçün maraq doğuran digər məlumatlar da yerləşdirilmişdir.

Qoruqların və abidələrin təşviqat işinin gücləndirilməsi məqsədilə “facebook”, “instagram” sosial şəbəkələrində media planlarına uyğun olaraq mart, aprel və may aylarında layihə həyata keçirilmişdir. Təbliğat-təşviqat işlərinin gücləndirilməsi məqsədilə Dövlət Xidmətinin və tabeçiliyindəki qoruqların saytları yenilənmişdir. Dövlət Xidmətinin veb-səhifəsi müasir tələblərə cavab verən səviyyədə yenilənmiş, 155 abidənin (dünya, ölkə və yerli əhəmiyyətli olmaqla) qısa tarixi məlumatlarının azərbaycan, ingilis və rus dillərində hazırlanaraq saytda yerləşdirilməsi işi yekunlaşdırılmışdır. Dövlət Xidməti ilə razılaşdırlmış sosial media planlarına (08.03-06.04.2020, 09.04-06.05.2020 və 08.05.-09.06.2020) uyğun olaraq mədəni irsin təşviqi həyata keçirilmiş və müvafiq hesabatlar təqdim edilmişdir. Sayt tam işlək vəziyyətə gətirildikdən sonra istifadəyə təqdim ediləcəkdir. Bu bəndin icrası ilə bağlı Dövlət Xidməti ilə razılaşdırlmış rayonlara çəkiliş qrupu səfər etmiş, 2 dəqiqəlik videoçarx və 8 ədəd 15 saniyəlik video roliklər hazırlanmışdır.

İşğaldan azad edilmiş ərazilərimizdə yerləşən daşınmaz mədəni irs nümunələrinə qarşı Ermənistan Respublikası tərəfindən yol verilmiş dağıntı və vandalizmlə bağlı beynəlxalq səviyyədə təbliğatın aparılması ilə bağlı müvafiq sahəyə aid dövlət qurumları və qeyri-dövlət təşkilatlarının müraciətlərinə uyğun materiallar hazırlanaraq təqdim edilmişdir.

**KİNEMATOQRAFİYA**

Hesabat dövründə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında “Sizə məktub var”, “Titrəmə” qısametrajlı bədii filmlərinin, COVİD-19 pandemiyası ilə əlaqədar maarifləndirici xarakterli 3 ədəd sosial çarxın, Milli Kino Günü ilə əlaqədar “Kino-2020” adlı 2 ədəd videoçarxın, “Anamın kitabı” adlı 12 seriyalı bədii filmin (İctimai Televiziya ilə birgə), “Bizim Həsən müəllim” sənədli filminin, “Salnaməfilm” studiyasında “Mirzə Cəlilin Azərbaycanı”, “Ləzgilər”, “Ada” sənədli filmlərinin, eləcə də “Azərbaycanın Milli Qəhrəmanları” silsiləsindən 4 sənədli filmin, “Debüt” studiyasında “Ailəvi şəkil” qısametrajlı bədii filminin, “Azanfilm” studiyasında “Tıq-tıq və dostları möcüzələr axtarışında” animasiya filminin istehsalı başa çatdırılmışdır.

“Azərbaycanfilm”də “Məryəm” tammetrajlı bədii filminin, “Salnaməfilm” studiyasında “Köç”, “Avarlar”, “Rutullar”, “Ulduzların keşikçiləri” (Rusiya ilə birgə), "II cahan savaşı. Cənub-Şimal nəqliyyat dəhlizi" sənədli filmlərinin, “Azərbaycanın Milli Qəhrəmanları” sənədli filmlər silsiləsindən növbəti 6 filmin, “Mozalan” studiyasında “Olimpia” tammetrajlı bədii filminin, “Azanfilm” studiyasında “Oğurlanmış Bahar” animasiya filminin istehsalı davam etdirilmişdir.

“Azərbaycanfilm” kinostudiyasında "Fəryad-2" tammetrajlı bədii filminin, “Bizim kino” maarifləndirici qısa filmlər layihəsinin, "Biz" sənədli filminin, “Salnaməfilm” studiyasında "Vətən müharibəsi (İkinci Qarabağ Müharibəsi) - 44 günlük savaş" tammetrajlı sənədli filminin, “Azanfilm” studiyasında “Tıq-tıq və dostları möcüzələr axtarışında - 2” animasiya filminin istehsalına başlanılmışdır.

Bundan əlavə, Nazirliyin dəstəyi ilə Qarabağ həqiqətlərini bu bölgədən olan insanların dilindən səmimi şəkildə əks etdirən “Qarabağnamə” adlı 9 ədəd videoçarx hazırlanaraq KİV-də və internet resurslarında yayımlanmışdır.

“Azərbaycanfilm” kinostudiyasında istehsala buraxılmış “Manpası qutusu”, “Yüksəliş. Yaradanın adı ilə...”, “Məryəm”, “Xoş sonluqlu faciə”, “Molla Nəsrəddin – çətin günlərimin dostu”, “Kariatida” və “Görmə qüsuru” adlı tammetrajlı bədii filmlərin istehsalında ciddi çətinliklər yarandığından, onların istehsalı müvəqqəti dayandırılmış və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 16 sentyabr 2020-ci il tarixli, 150-f nömrəli əmrinə əsasən dövlət sifarişi ilə film istehsalının mövcud vəziyyətinin araşdırılaraq müəyyənləşdirilməsi və ortaya çıxan problemlərin mümkün həll mexanizmlərinə dair rəy və təkliflərin təqdim edilməsi üçün müstəqil Komissiya yaradılmışdır. Sözügedən Komissiyanın rəyinə əsasən “Məryəm” filminin istehsalının davam etdirilməsi, “Manpası qutusu”, “Yüksəliş. Yaradanın adı ilə...”, “Xoş sonluqlu faciə”, “Molla Nəsrəddin – çətin günlərimin dostu” filmlərinin istehsalı məsələsinə gələcəkdə yenidən baxılması, “Kariatida” və “Görmə qüsuru” filmlərinin isə istehsalına xitam verilməsi qərara alınmışdır.

Azərbaycan kinosunu bədii və texniki keyfiyyət baxımından inkişaf etdirmək, filmlərin istehsal sayını çoxaltmaq və bu sahədə dünya standartlarına uyğun bir sistem yaratmaq məqsədilə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının maddi-texniki bazasının yenidən qurulması qərara alınmışdır. Bunun üçün dünyanın müxtəlif ölkələrində yerləşən və ayrı-ayrı tanınmış markaların vahid istehsalçıları olan 10-dan artıq şirkətdən kinoçəkiliş texnikasının (kamera, obyektivlər, işıq qurğuları, onun aksesuarları və s.) satın alınması bu sahədə böyük təcrübəyə malik “Bakı Media Mərkəzi” MMC ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.

Torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin həyatını və şərəfli döyüş yolunu insanlara daha yaxından tanıtmaq və onların xatirəsinin əbədiləşdirilməsi məqsədilə yanvar ayının 13-dən 17-dək Bakı Şəhər Mədəniyyət Baş İdarəsi ilə birgə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş “Vətənpərvərlik kinosu həftəsi” keçirilmişdir. Kino həftəsi çərçivəsində Binəqədi Mərkəzi Mədəniyyət evində, Müşfiqabad qəsəbə Mədəniyyət evində, Nardaran qəsəbə Mədəniyyət Mərkəzində, Yasamal rayon Heydər Əliyev Mərkəzində, Qızıldaş qəsəbə Mədəniyyət Mərkəzində, R.Axundov adına Mədəniyyət evində, Mərdəkan Mədəniyyət Sarayında, Qaradağ rayon Heydər Əliyev Mərkəzində, A.R.Qobustanlı adına Mədəniyyət evində, Suraxanı rayon Heydər Əliyev Mərkəzində, Şüvəlan qəsəbə Mədəniyyət evində, Şağan qəsəbə Mədəniyyət Mərkəzində Milli qəhrəmanlar Seymur Məmmədov (“Qartal yuvası”), İqor Makeyev (“Mən gəncəliyəm”), Şahlar Şükürov (“Bir elin Şahları”), Əli Məmmədov (“Taleyin sorağında”), Ehtiram Əliyev (“777”), Mikayıl Cəbrayılov (“İki əsgər”), Səfiyar Behbudov (“Qəhrəmanlıq zirvəsi”), Rövşən Əliyev (“Rövşən”), Məmməd Hüseynov (“Müəllim”), Səxavət Məhərrəmov (“Məni yada salarkən”) və Viktor Seryoginə (“Əbədiyyətə uçuş”) həsr olunmuş, dövlət sifarişi ilə çəkilən filmlər nümayiş etdirilmişdir.

Bundan əlavə, fevralın 26-da Nizami Kino Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilmiş və tədbirdə dövlət sifarişi ilə “Salnaməfilm” studiyasında çəkilmiş “Ulu türkün Təbrizi” sənədli filmi tamaşaçılara təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd edilməsi haqqında” 19 avqust 2020-ci il tarixli, 2224 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədi ilə müvafiq qurumların təklifləri nəzərə alınmaqla Tədbirlər Planı hazırlanaraq təsdiq olunmuşdur. Lakin Koronavirus (COVİD-19) pandemiyası ilə bağlı ölkədə tətbiq olunan karantin rejimi səbəbindən bir sıra yubiley tədbirlərinin və film nümayişlərinin keçirilməsi mümkün olmamışdır. Bununla belə, Nazirliyin sifarişi ilə “Azərbaycanfilm” kinostudiyasında Həsən Seyidbəylinin həyat və yaradıcılığına həsr

olunmuş “Bizim Həsən müəllim” sənədli filmi çəkilmiş və İctimai Televiziyada nümayiş etdirilmişdir.

İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2020-ci il tarixli, 2206 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə hazırlanan Tədbirlər Planına əsasən “Salnaməfilm” studiyasında əfsanəvi partizanın həyatı və müharibədə keçdiyi döyüş yoluna həsr olunmuş "Necə varsa" adlı sənədli film istehsala buraxılmışdır.

Ənənəvi olaraq 2 avqust – Milli Kino Günü ilə əlaqədar kütləvi tədbirin keçirilməsi bu il Koronavirus səbəbindən mümkün olmasa da, dövlət studiyaları keçən Kino Günündən ötən müddət ərzində gördükləri işləri əks etdirən videoçarxlar hazırlamış və KİV-də, internet resurslarında yayımlamışlar.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə müstəqil ictimai təşkilatlar tərəfindən oktyabrın 4-dən 18-dək III ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı, dekabrın 10-dan 15-dək isə XI Bakı Beynəlxalq Qısa Filmlər Festivalı təşkil olunmuşdur.

İyun ayının 16-dan iyul ayının 16-dək İctimai Televiziyanın (İTV) media tərəfdaşlığı ilə Nazirliyin “Debüt” studiyası tərəfindən uzunmüddətli kino tədris laboratoriyası kimi nəzərdə tutulan INTERACT layihəsinin ilkin mərhələsi olan INTERACT ONLINE həyata keçirilmişdir. Azərbaycanda kino ilə maraqlanan, film çəkmək istəyən gənc, həvəskar və tələbə filmmeykerlərə alternativ maarifləndirici video mənbə təqdim etmək məqsədi daşıyan layihənin həftədə iki dəfə olmaqla bir ay müddətində davam edən INTERACT ONLINE mərhələsi gənc kinematoqrafçılara tanınmış beynəlxalq peşəkarlarla onlayn ustad dərsləri vasitəsilə məlumat mübadiləsi imkanı yaratmış, bütün ustad dərsləri orijinal dildə (müvafiq olaraq ingiliscə və ya rusca) və Azərbaycan dilində sinxron tərcümə seçimi ilə təqdim olunmuşdur.

Azərbaycan kinosunun dünyada təbliği məqsədilə fevral ayının 18-dən 22-dək Macarıstanda Azərbaycan Kinosu Günləri keçirilmişdir. Ölkəmizin Macarıstandakı Səfirliyinin dəstəyi ilə təşkil olunan Kino Günləri çərçivəsində milli filmlərimiz Macarıstanın Budapeşt, Peç və Seqed şəhərlərində nümayiş etdirilmişdir.

Hesabat dövründə Mədəniyyət Nazirliyinin sifarişi ilə “Azərbaycanfilm” kinostudiyası, “Arizona Production”, “Coyote Cinema”, “Mandarin Agency” və “Debüt” Studiyasının birgə istehsalı olaraq çəkilən “Daxildəki ada” bədii filmi dünyanın ən nüfuzlu kino festivallarından hesab edilən və 100 000-dən artıq auditoriyası olan Sarayevo Film Festivalında ölkəmizi uğurla təmsil edərək “Ən yaxşı rejissor” nominasiyasının qalibi olmuşdur.

Bundan əlavə, Nazirliyin sifarişi ilə "Azanfilm" studiyasının istehsal etdiyi "Mənim balaca Şahzadəm" animasiya filmi Banqladeşdə keçirilən “13th International Children's”, Pakistanda keçirilən “12th Lahore International Children’s”, Rusiyada keçirilən “3th Lucerna Youth and Children” festivallarında iştirak etmiş, Cənubi Koreyada keçirilən “8th Seoul Guro International Kids” Film Festivalında “BRIGHT FUTURE” (“Parlaq gələcək”) nominasiyasının qalibi olmuşdur.

## XALQ YARADICILIĞI VƏ MƏDƏNİ MARŞRUTLARIN İNKİŞAFI

Bütün dünyada yayılmış COVİD-19 Pandemiyası səbəbindən bir sıra tədbirlərin təxirə salınmasına və ləğv olunmasına baxmayaraq günün tələbinə uyğun olaraq Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsi bəzi tədbirlərin həyata keçirilməsini reallaşdıra bilmişdir.

Belə ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 28-29 fevral 2020-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində “Azərbaycanın mədəni marşrutlar potensialı” mövzusunda Respublika Müşavirəsi keçirilmişdir.

Müşavirədə dövlət və özəl sektorun yerli sənaye nümayəndələri, respublikamızın paytaxt və regionlarında yerləşən bir sıra mədəniyyət müəssisələrinin, o cümlədən mədəniyyət mərkəzləri və klubların rəhbərləri iştirak etmişdir. Həmçinin tədbir zamanı Avropa Şurasının Mədəni Marşurtların Sahəvi İnkişafı Sazişi üzrə Katibliyinin rəhbəri, Mədəni Marşurtlar üzrə Avropa İnstitutunun direktoru Stefano Dominioni, Mədəni Marşrutlar üzrə Avropa İnstitutunun layihə rəhbəri Karolina Klark və Avropa Tarixi Termal şəhərlər marşrutunun koordinatoru Katerina Lloydun mövzu ilə əlaqədar çıxışları olmuşdur.

Tədbir çərçivəsində sərgi təşkil edilmişdir. Sərgidə “Şirvan şərabları” MMC tərəfindən Meysəri şərablarının stendi quraşdırılmış və tədbir iştirakçıları üçün dequstasiya təşkil olunmuşdur. Həmçinin “Zirə Olives” şirkətinin də stendi quraşdırılaraq adıçəkilən şirkətin istehsalı olan məhsullar nümayiş etdirilmişdir. Bununla yanaşı sərgidə Qobustan Milli Tarix-Bədii Qoruğu və “Qalaaltı Hotel and Spa” mehmanxanaları da özlərinə məxsus guşələrdə reklam-çap məhsulları ilə təmsil olunmuşlar.

Açılış mərasimindən sonra “Mədəni marşrutlar: Milli mədəni irsin təbliği və yerli inkişafı üçün model” adlı paneldə -“Azərxalça” ASC-nin idarə heyətinin sədrinin müavini Orxan Rzayev və Stefano Dominioni öz təqdimatları ilə çıxış etmişlər.

Tədbir zamanı aşıq, muğam, folklor  kimi ölkədaxili mədəni marşrutların yaradılması təklif olunmuş, mədəniyyət müəssisələrinin layihələrdə aktiv iştirak etmək imkanları müzakirə edilmişdir.

Tədbir çərçivəsində Mədəni Marşrutlar üzrə Avropa İnstitutunun layihə rəhbəri Karolina Klark və Avropa Tarixi Termal şəhərlər marşrutunun koordinatoru Katerina Lloyd tərəfindən tədbir iştirakçıları üçün “Mədəni marşrutlar- nəzəriyyədən təcrübəyə” və “Mədəni marşrutlar - ən yaxşı təcrübələr” mövzularında təlimlər keçirilmişdir.

Mədəniyyət Nazirliyi tərəfindən yeni “#yaradıcılığıevdəöyrən - özünü kəşf et və bacarıqlarınla tanın” və “#evimyeniişyerim – sərhəd tanımadan məqsədlərə doğru fəaliyyətə davam” adlı layihələr həyata keçirmişdir.

“#yaradıcılığıevdəöyrən - özünü kəşf et və bacarıqlarınla tanın” layihəsi nazirliyin youtube kanalından, facebook, instagram səhifələrindən maksimum istifadə olunmaqla həyata keçirilmişdir.

Layihəyə müxtəlif yaradıcı şəxslər qoşulmuşdur. Belə ki, hər biri 30-45 saniyəlik #yaradıcılığıevdəöyrən layihəsinə qoşulmaqla bağlı çağırış videoları, eyni zamanda onların öz sahələri üzrə maarifləndirici 5-30 dəqiqəlik təlim videoları Mədəniyyət Nazirliyinin sosial şəbəkələrində yerləşdirilmişdir.

Həmçinin layihə çərçivəsində Mədəniyyət kanalında hər gün təlim xarakterli "#yaradıcılığıevdəöyrən" verilişinin çəkilişləri aparılmışdır. 06.04.2020-ci il tarixindən etibarən həftə içi hər gün efirə verilmişdir. Hər buraxılışı 30 dəqiqə davam edən verilişin daha geniş tamaşaçı kütləsini məlumatlandırması üçün sosial şəbəkələrdə nümayişi təşkil olunmuşdur.

Şöbənin digər layihəsi isə “#evimyeniişyerim – Sərhəd tanımadan məqsədlərə doğru fəaliyyətə davam” adlanır.

## KİTAB DÖVRİYYƏSİ VƏ NƏŞRİYYATLARLA İŞ

Hesabat dövrü ərzində Mədəniyyət Nazirliyi tərəfindən kitab dövriyyəsi və nəşriyyat işi sahələrində dövlət siyasətinin 2020-ci ilin tələbləri və mövcud imkanları çərçivəsində realizə edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Koronovirus (COVID-19) pandemiyası ilə əlaqədar Azəraycan Respublikasında elan edilmiş xüsusi karantin rejiminin tələblərinə əsasən nazirliyin tabeliyində olan kitabxana şəbəkəsinin ənənəvi formatda fəaliyyəti dayandırılmış, kitabxana fondlarının açıq ictimai istifadəsinə məhdudiyyət qoyulmuşdur. Əhalinin elmi, bədii və informasiya tələbatının kitabxanalar vasitəsilə öndənilməsi məqsədilə oxuculara elektron formada kitabxana-informasiya xidmətlərinin göstərilməsi tətbiq edilmişdir.

Nazirliyin sifarişi ilə 2020-ci ildə mədəniyyət sahəsinin müxtəlif istiqamətləri üzrə 44 adda kitab, azyaşlı oxucular üçün 10 adda uşaq ədəbiyyatı, o cümlədən görkəmli ədəbiyyat və incəsənət xadimlərinin 30 adda portreti nəşr olunmuş, təmənnasız olaraq respublika əhəmiyyətli kitabxanalara, şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinə və aidiyyəti mədəniyyət müəssisələrinə paylanılmışdır.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidentinə həsr olunan və 2020-ci il üzrə ölkə başçısının fəaliyyətinin xronikasını özündə ehtiva edən “İlham Əliyev. İnkişaf – məqsədimizdir” kitabının 94-104-cü cildlərinin nəşri “Azərnəşr” tərəfindən başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2020-ci ilin “Könüllülər ili” elan edilməsi ilə əlaqədar Azərbaycan Milli Kitabxanasında “2020-ci il – Könüllülər ilidir” adlı daimi guşə yaradılmış, “Kitabxana və könüllülər - yeni imkanlar məkanı” adlı metodik vəsait nəşr edilərək şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinə göndərilmişdir.

Azərabycan Respublikası Prezidentinin “Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yebileyinin qeyd edilməsi haqqında” 31 yanvar 2020-ci il tarixli, “Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında” 14 fevral 2020-ci il tarixli sərəncamlarının icrası məqsədilə aidiyyəti qurumlarla birgə tədbirlər planı hazırlanaraq təsdiq edilmişdir. Koronovirus (COVID-19) pandemiyası ilə əlaqədar tədbirlər planında nəzərdə tutulan kütləvi tədbirlərin keçirilməsi təxirə salınmış, digər işlərin icrası təmin edilmişdir.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Milli Kitabxanası tərəfindən “Əbdürrəhim bəy Haqverdiyev” adlı biblioqrafiya kitabı nəşr edilmiş, “Əbdürrəhim bəy Haqverdiyev – 150” adlı virtual daycest, “Əbdürrəhim bəy Haqverdiyev – 150” adlı virtual sərgi və “Əbdürrəhim bəy Haqverdiyev – 150” adlı elektron məlumat bazası hazırlanaraq onlayn rejimdə istifadəçilərə təqdim edilmişdir.

Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi məqsədilə təsdiq olunmuş tədbirlər planına əsasən Mədəniyyət Nazirliyi tərəfindən Nəriman Nərimanovun 150 illik yubileyinə həsr olunmuş tarixi-publisistik teleoçerkin hazırlanması sifariş olunmuşdur.

Teleoçerkdə Nəriman Nərimanov şəxsiyyətinin Azərbaycan tarixindəki ictimai-siyasi rolu, milli nəsrimizdəki novatorluğu, publisist və həkim kimi fəaliyyəti yeni tarixi faktlara istinadən işıqlandırılmışdır.

Azərbayca Respublikası Prezidentinin Sərəncamına əsasən çap olunmuş “Nəriman Nərimanov. Seçilmiş əsərləri” kitabı audio kitab formatında nəşr olunaraq kitabxanaların

internet ünvanları vasitəsilə oxucuların ixtiyarına verilmişdir. Eyni zamanda N.Nərimanovun bioqrafiyasını özündə ehtiva edən 3 D formatında vizual sərgi istifadəçilərə təqdim edilmişdir.

Milli Kitabxana tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası üzrə "Nəriman Nərimanov" adlı fundamental biblioqrafiya kitabı nəşr edilmiş və Nəriman Nərimanov-150" adlı elektron məlumat bazası hazırlanaraq onlayn rejimdə oxuculara təqdim edilmişdir.

Kitab və mütaliə mədəniyyətinin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması məqsədilə Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2020-ci ilin fevral ayında "Kitabı tanıdın, kitabla tanının!" devizi altında V Buktreyler Festivalına start verilmişdir. 23 noyabr 2020-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində V Buktreyler Festivalının qaliblərinin mükafatlandırılma mərasimi keçirilmişdir. Reşad Hüseynovun "Yeddinci mərtəbədə qətl" buktreyleri I yerin, Ağaməli Əliyevin "Pinqvinlər uçur, Mali", Orxan Adıgözəlovun "Ölsəm, bağışla" buktreylerləri II yerin, Kərim Rəhimovun "Erməni zindanında 8 gün", Mürsəl Qafarovun "Difai" fədailəri", Masər Həsənovun "Çin olmuş yuxu" buktreylerləri III yerin qalibləri olmuşdur.

Koronavirus pandemiyasının yaratdığı bəşəri problemlərin və ölkəmizdə bu epidemiyaya qarşı aparılan mübarizənin ədəbiyyat mövzusuna çevirməklə gələcək nəsillərə bədii formada çatdırılması, özündə sosial məsuliyyəti, epidemiyanın təhlükəsi və infeksiyadan qorunmaq barədə informasiyanı ehtiva edən əsərləri ərsəyə gətirməklə əhalinin maarifləndirilməsi və yardıcı potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından yeni hekayələrin yazılmasına stimul vermək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birgə "Koronavirus pandemiyası ilə mübarizə mövzusunda hekayə müsabiqəsi" təşkil etmişdir. 6 aprel 2020-cil tarixində elan olunan və 29 may 2020-ci il tarixində başa çatan müsabiqəyə 417 hekayə təqdim olunmuşdur. Koronavirus pandemiyası ilə mübarizə mövzusunda hekayə müsabəqəsi"nin komissiyası tərəfindən müsabiqəyə qəbul olunan 388 hekayənin mövzu, bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılmış və müəyyən edilmiş qiymətləndirmə cədvəlinə müvafiq olaraq əsərlələrə hər bir üzv tərəfindən 10 ballıq şkala əsasında qiymət verilmişdir. Komissiyasının fərdi qiymətləndirmə cədvəlinə əsasən alınmış ümumi nəticəyə və komissiyanın yekun qərarına müvafiq olaraq Natiq Məmmədlinin "Taclı mələklər" hekayəsi I yer, Sevinc Elsevərin "A quşlarım, getməyin..." hekayəsi II yer, Cavi Danın "Ev" hekayəsi III yer tutmuşdur. Reyhan Yusifqızının "Həkimin gündəliyi" və Əkbər Qoşalının "İradə, mən ölürəm..." hekayələri müsabiqənin xüsusi mükafat üzrə qalibləri olmuşdur.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə hesabat ilinin mart-may aylarında "Radio Antenn" 101 FM-də "Canlı kitab" verilişinin yayımı həyata keçirilmişdir. Həftə içi hər gün saat 10:00-dan 12:00-dək dünya və Azərbaycan ədəbiyyatının seçmə nümunələri peşəkar qiraətçilər tərəfindən "Radio Antenn" 101 FM-in canlı efirində səsləndirilmiş, eyni zamanda layihə çərçivəsində dünya üzrə məşhur ədəbiyyat xadimlərinin həyatı, böyük oxucu auditoriyası qazanmış əsərlər, Azərbaycanın mədəniyyət sahəsində baş verən yeniliklər və Mədəniyyət Nazirliyinin kitabxanalarının elektron resurslarından mütaliə imkanları barədə məlumat verilmişdir. 3 ay ərzində 54 müəllifin 67 əsəri oxuculara təqdim olunmuş, eyni zamanda səsləndirilən bütün əsərlər audiokitab formatına salınaraq kitabxanalara paylanılmışdır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi arasında 19 avqust 2020-ci il tarixində imzalanmış "Amerika guşələri" proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na əsasən Gəncə şəhəri, Salyan, Xaçmaz və Kürdəmir rayon mərkəzi kitabxanalarında 2020-

2023-cü illər üzrə ictimai informasiya mərkəzi kimi fəaliyyət göstərəcək “Amerika guşələri”inin fəaliyyəti bərpa edilmişdir.

Memoranduma əsasən Mədəniyyət Nazirliyi guşələrin fəaliyyət göstərməsinə dəstəyin təmin edilməsini, səfirlik isə guşələri Birləşmiş Ştatlar haqqında, habelə ikitərəfli maraqlara uyğun mövzularda çap edilmiş ədəbiyyat və internet əsaslı elektron resurslarla və ABŞ-ın dövri mətbuatına abunə və Amerika filmlərinin nümayişinə icazəni nəzərdə tutan lisenziya ilə təmin etməyi üzərinə götürmüşdür.

Mədəniyyət Naziriyinin təşəbbüsü ilə həyata keçirilən “Azərbaycan Kitabının Dünyaya Tanıdılması” (AKDT) layihəsi 2020-ci ildə də davam etdirilmişdir. Layihə çərçivəsində “Azərbaycan Ədəbiyyatı Gənclik Seriyası” üzrə istedadlı gənc şair və yazıçılarımızın - Fərid Hüseyn “Yalan bayramı”, Günel Şamilqızı “Div olanda nə olar?”, Mirmehdi Ağaoğlu “Oğlum üçün hər şey”, Rəvan Cavid “Absurd menyu”, Qismət Rüstəmov “Gələcəyin tarixi”, Cavid Zeynallı “Coğrafiya müəllimi”, Ramil Əhməd “Zaman tuneli” və Səidə Sübhi “Şairin monoloqu”, eyni zamanda Elçin “Pyeslər”, Abdulla bəy Divanbəyoğlu “Can yanğısı”, Səyyad Aran “Məzar daşı” kitabları 5000 tirajla Türkiyə türkcəsində çap olunmuşdur.

Hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadətinin və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, gələcək nəsillər üçün II Qarabağ müharibəsi mövzusunda yeni bədii mətnlərin yaradılması məqsədilə 21 oktyabr 2020-ci il tarixində “Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi” təşkil edilmişdir. 2020-ci ilin 30 noyabr tarixində başa çatan müsabiqəyə 3 ədəbi janr üzrə (esse, hekayə, poeziya) 321 əsər təqdim edilmişdir. 2021-ci ilin yanvar ayında müsabiqə qaliblərinin mükafatlandırılması nəzərdə tutulur.

Şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin kitabxana fondlarını yeni ədəbiyyatla təchiz edilməsi məqsədilə respublikada fəaliyyət göstərən nəşriyyatlardan, kitab mağazalarından və müəlliflərdən Respublika Kitabxana Kollektoru vasitəsilə 1525 adda, 20092 nüsxə kitab alınmışdır.

Hesabat ilinin 29 Aprel tarixində MDB dövlətlərinin və bir sıra digər xarici ölkələrin Milli Kitabxana direktorlarının iştirakı ilə “Karantin şəraitində mütaliə: Kitabxanalar yeni formatda” mövzusunda Beynəlxalq Onlayn Kitabxana Forumu keçirilmişdir. Forumda Azərbaycan, Rusiya, Qazaxıstan, İtaliya, Malaziya, Fransa, Çin, Moldova, Bolqarıstan, Gürcüstan və digər ölkələrin Milli Kitabxanasının direktorları iştirak etmişlər.

2020-ci ilin 10 Avqust tarxində Milli Kitabxana TÜRKSOY Beynəlxalq təşkilatının təşkilatçılığı ilə görkəmli qazax şairi və mütəfəkkiri Abay Kunanbayevin 175 illik yubileyinə həsr olunmuş videokonfransda iştirak etmişdir. Videokonfrans çərçivəsində Mədəniyyət Nazirliyinin, TÜRKSOY-un, Qazaxıstanın Azərbaycandakı səfirliyinin, Azərbaycan Milli Kitabxanasının və Dövlət Pedaqoji Universitetinin birgə nəşr etdikləri “TÜRKSOY Kitabxanası” seriyasından “Abay Kunanbayev” kitabının təqdimatı olmuşdur.

19 oktyabr 2020-ci il tarixində Azərbaycan Milli Kitabxanası 45 ölkədən ümumilikdə 49 Milli Kitabxananın üzv olduğu CENL-in onlayn İllik İclasında iştirak etmişdir. Konfransa CENL üzvü olan 33 Milli Kitabxananın direktorları və digər beynəlxalq təşkilatların nümayəndələri qoşulmuşdur.

Dekabrın ayının 3-də Azərbaycan Milli Kitabxanasında işğalından azad olunan rayonlarımızın Mərkəzləşmiş Kitabxana Sistemlərinin direktorları ilə onlayn videokonfrans keçirilmişdir. Onlayn konfransın əsas məqsədi 1992-1993-cü illərdə erməni hərbi birləşmələri

tərəfindən işğal olunmuş və bu gün Azərbaycan ordusu tərəfindən azad edilən rayonlardakı kitabxanaların mövcud durumunu və onların qiymətli kitab fondlarının mühafizə vəziyyətini araşdırmaq və bu barədə beynəlxalq Kitabxana təşkilatı olan IFLA-ya müvafiq məlumatın verilməsindən ibarət olmuşdur. Konfransda Ağdam, Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavənd rayonlarının mərkəzləşdirilmiş kitabxana sistemləri iştirak etmişlər.

Hesabat ilinin 11 dekabr tarixində ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirinin birinci müavini, Nazir vəzifələrini icra edən Anar Kərimovun, digər rəhbər şəxslərin və ziyalıların iştirakı ilə Azərbaycan Milli Kitabxanasında ulu öndər Heydər Əliyevə həsr olunmuş guşənin açılış mərasimi olmuşdur.

2020-ci il ərzində Milli Kitabxana tərəfindən 47 adda, 9335 nüsxə tirajla biblioqrafiya, metodik və biblioqrafik vəsaitlər, daycest, məlumat kitabları, not məcmuələri və s. vəsaitlər nəşr edilmişdir.

Hesabat ilində Milli Kitabxana Mədəniyyət Nazirliyi ilə birgə “Milli musiqi xəzinəmizdən” layihəsi çərçivəsində Azərbaycan bəstəkarlarının ötən əsrin 40-80-ci illərində Moskvada və Bakıda nəşr olunan və Milli Kitabxananın fondunda mühafizə olunan not musiqi məcmuələrinin yenidən nəşr olunaraq respublikamızın musiqi məktəblərinə, kolleclərinə və kitabxanalarına göndərilməsini nəzərdə tutan layihənin icrasını davam etdirmiş və bu layihə üzrə görkəmli Azərbaycan bəstəkarlarının 15 adda not məcmuəsi çap olunmuşdur. Məcmuələr istifadəçilərin ixtiyarına verilməsi məqsədilə Mədəniyyət Nazirliyinin “Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı”nda və Milli Kitabxananın saytında yerləşdirilmişdir.

2020-ci ildə Milli kitabxananın fonduna müxtəlif mənbələrdən 13.435 nüsxə ədəbiyyat daxil olmuşdur. Yeni daxil olmuş ədəbiyyatın 6910 nüsxəsi kitab, 6525 nüsxəsi isə digər sənədlərdir. Daxil olmuş ədəbiyyatın 8501 nüsxəsi azərbaycan, 3411 nüsxəsi rus 1523 nüsxəsi isə digər dillərdə olmuşdur. Kitabxana fondundan oxucular tərəfindən yararsız hala salınmış, köhnəlmiş, aktuallığını itirmiş, artıq nüsxə hesab edilən 10561 nüsxə ədəbiyyat silinmişdir.

Hesabat ili ərzində Milli Kitabxanada 26 adda Elektron məlumat bazası, 43 adda elektron virtual sərgi hazırlanaraq onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Ölkədaxili Kitab mübadiləsi fondundan 2020-ci ildə 12298 nüsxə kitab və jurnal şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinə, aidiyyəti müəssisə və təşkilatlara göndərilmişdir.

İl ərzində Milli Kitabxanaya xarici ölkə kitabxanalarından 240 nüsxə ədəbiyyat daxil olmuş, eyni zamanda Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə təqdim etmək üçün tariximizə, mədəniyyətimizə, iqtisadiyyatımıza, daxili və xarici siyasətimizə, Dağlıq Qarabağ məsələsinə və digər mühüm sahələrə dair 1881 nüsxə ədəbiyyat dünyanın milli kitabxanalarına, səfirliklərə, universitetlərə göndərilmişdir.

Pandemiya şəraiti ilə əlaqədar kitabxananın oxucular üçün bağlanması səbəbindən istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün kitabxananın saytında yeni "Onlayn xidmətlər” pəncərəsi yaradılmışdır. 2020-ci ildə “Sənədlərin sifarişi və elektron çatdırılması” bölməsi vasitəsilə 62850 istifadəçiyə 75523 resurs göndərilmişdir.

Xüsusi karantin rejimi dövründə Milli Kitabxananın virtual xidmət sistemində zəngin tammətnli elektron resurslara malik olan “Elektron kataloq və elektron kitabxana” bölməsinin “onlayn oxu” düyməsindən il ərzində 2.996.278 nəfər istifadə etmişdir.

II Qarabağ müharibəsi zamanı Milli Kitabxana tərəfindən Qarabağın tarixini, mədəniyyətini, Qarabağ həqiqətlərini özündə əks etdirən virtual sərgilər - “Qarabağ Azərbaycandır!”, “Qarabağ abidələri”, “Qarabağ xalq sənətkarlığı”, “Qarabağ geyimləri”, “Qarabağ xalçaları” nümayiş etdirilmişdir. Eyni zamanda kitabxananın elektron kataloqunda müvafiq mövzu üzrə axtarışı sürətləndirmək məqsədilə vətən müharibəsi ilə bağlı – “II Qarabağ Müharibəsi”, “II Qarabağ Müharibəsi beynəlxalq aləmdə”, “II Qarabağ Müharibəsi – döyüşçülər”, “II Qarabağ Müharibəsi bədii ədəbiyyatda”, “II Qarabağ Müharibəsi – Moskva görüşü – bəyanat”, “II Qarabağ Müharibəsi mədəniyyətdə”, “II Qarabağ Müharibəsi – Qələbə”, “II Qarabağ Müharibəsi – mətbuatda”, “II Qarabağ Müharibəsi – şəhidlər, işğaldan azad olunmuş ərazilər” kimi yeni predmetlər açılmış, məqalələr müvafiq sahələr üzrə sistemləşdirilmişdir.

Hesabat ilinin 14 fevralın tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Beynəlxalq Kitab Bağışlama Günü ilə əlaqədar “YAŞA” mərkəzində “Kitabla sevinək – Kitabla yaşayaq” adlı tədbir keçirilmişdir. Tədbir çərçivəsində kitabxana tərəfindən 150-dən çox kitab və jurnal “YAŞA” mərkəzinə hədiyyə edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə 2020-ci ilin fevralın 17-də Beynəlxalq Muğam Mərkəzində C.Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbinin, 2 və 5 nömrəli Xüsusi İnternat Məktəbinin şagirdlərinin iştirakı ilə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün “Beynəlxalq Təmənnasız Xeyirxahlıq İfadəsi Günü”nə həsr olunmuş “Yer üzünün günəşidir – xeyirxahlıq!” adlı tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı), Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İctimai Birliyinin (DAMM İB) vitse-prezidenti, Gəncliyə Yardım Fondunun prezidenti, Mədəniyyət və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri və uşaq yazarları iştirak etmişlər.

Mart ayından başlayaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasında koronavirus (COVİD-19) infeksiyasının yayılmasına qarşı qabaqlayıcı tədbirlər çərçivəsində mütəmadi olaraq tibbi profilaktik və dezinfeksiyaedici işlər həyata keçirilmiş, uşaqlar üçün virusdan qorunmaq məqsədilə posterlər hazırlanmış, kitabxananın saytında azyaşlı oxuculara təqdim edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyin tərəfindən xəstəxanalarda koronavirusdan müalicə alan uşaqlara mənəvi və psixoloji dəstək göstərilməsi məqsədilə həyata keçirilən "Kitab hədiyyəsi" aksiyasında iştirak etmişdir. Aksiya çərçivəsində 300-ə yaxın kitab toplanılaraq müalicə alan uşaqlara göndərilmişdir.

17 aprel tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən "Evdə qal, intellektdən qalma" ailəvi onlayn viktorina müsabiqəsi təşkil edilmişdir. Viktorinanın keçirilməsində əsas məqsəd “birlikdə düşünək, birlikdə tapaq” devizi altında valideynlərin övladları ilə birgə asudə vaxtının səmərəli keçirilməsi idi.

Respublika Uşaq Kitabxanası kiçik yaşlı oxucuların mütaliə tələbatının distant formada təmin edilməsi məqsədi ilə kitabxananın internet ünvanında yerləşən Multimedia bölməsində audio fortmatda 346 ədəd nağıl, hekayə, şeir və uşaqlar üçün 354 ədəd lətifə, 115 uşaq mahnısı, 82 cizgi filmi və jest dilində 11 nağıl yerləşdirilmişdir.

2020-ci ilin 5 may tarixində ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ili münasibətilə 10-15 yaşlı məktəblilər arasında "Sən elə bir zirvəsən ki..." adlı esse müsabiqəsi keçirilmişdir.

Cari ilin 6 oktaybr tarixində "Zəfər sənindir, Azərbaycan əsgəri!" adlı aksiyaya start verilmişdir. Aksiyada 6-16 yaş uşaq və yeniyetmələr iştirak etmiş, onların əsgərlərə yazdıqları məktublar kitabxananın saytında yerləşdirilməklə yanaşı, hərbi hissə və hospitallara göndərilmişdir.

12 oktyabr 2020-ci il tarixində kitabxananın saytında azyaşlı oxuculara vətənpərvərlik mövzusunda "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" adlı virtual sərgi təqdim edilmişdir.

2020-ci ilin oktyabr tarixində Respublika Uşaq Kitabxanası tərəfindən yeniyetmələr arasında "Niyyəti gözəl, bu günü gözəl, sabahı parlaq Azərbaycanım!" adlı esse, "Terrora yox deyək" adlı rəsm müsabiqəsi, "Bu gün gərək hər anımız Vətən! - desin!" adlı şeir müsabiqəsi elan edilmişdir.

Respublika Uşaq Kitabxanası tərəfindən 6 noyabrda "Azərbaycan dili - milli varlığımızdır" adlı esse müsabiqəsinə start verilmişdir. Müsabiqənin keçirilməsində əsas məqsəd yaradıcı gənc nəslə ana dilimizin zənginliyini, saflığını qorumağı təbliğ etmək, istedadlı uşaqları üzə çıxarmaq, tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək, onlarda milli-mənəvi dəyərləri formalaşdırmaqdan ibarət idi.

Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi zəfər münasibəti ilə "Əzizinəm Qarabağ" və "Ana Vətən" adlı virtual sərgilər vasitəsilə 71 adda tammətnli kitablar, musiqilər, səsli nağıllar kitabxananın Multimedia bölməsində oxuculara təqdim edilmişdir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası tərəfindən "Kitab səhifələrindən mavi ekrana" aksiyası çərçivəsində məşhur əsərlərin motivləri əsasında çəkilən filmlər haqqında 85-dən çox videoçarx hazırlanmışdır. Aksiya çərçivəsində "Sevil", "Almas", "Səhər", Dərviş Parisi partladır", "Qətl günü", "Bəxt üzüyü", "Aygün", "Uzaq sahillərdə", "Qürur və qərəz", "Pianoçu", "Amfibiya adam" və s. filmləri haqqında videoçarxlar oxuculara təqdim olunmuşdur.

Eyni zamanda kitabxana tərəfindən "Tariximizin qəhrəmanlıq imzası" adlı aksiyada Qarabağ uğrunda gedən döyüşlərdə şücaət göstərmiş qəhrəmanlarımız haqqında 110-dan çox video material hazırlanaraq nümayiş etdirilmişdir.

Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsindən sonra "Qarabağ Azərbaycandır!" şüar altında kitabxanın elektron ünvanı və sosal şəbəkə səhifələri üzərindən II Qarabağ müharibəsi iştirakçıları – qazi, zabit və əsgərlərlə canlı yayımlar həyata keçirilmişdir.

Hesabat ilinin dekabr ayında "Qarabağı qarış-qarış tanıyaq", "Hardan başlayır Vətən?" layihələrinə start verilmiş və bu layihələr çərçivəsində Qarabağın füsunkar təbiəti, tarixi, mədəni irsi, musiqisi, adət-ənənəsi haqqında maarifləndirici foto, video və yazı materialları yayımlanmışdır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ili münasibətilə "Heydər Əliyev mənim qəhrəmanımdır" və Azərbaycanımızın bütövlüyü uğrunda gedən şərəfli döyüşlərdə adını əbədi olaraq şanlı tariximizə yazdıran qəhrəmanlarımız haqqında 16-35 yaşarası gənclər üçün nəzərdə tutulan "Mənim qəhrəman əsgərim" adlı esse və şeir müsabiqələri keçirilmişdir.

Gənclər Kitabxanası xaricdə yaşayan həmyerlilərimizin iştirakı ilə "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" şuarını dünyanın 15-dən çox dilində səsləndirən sosial videoçarx hazırlamışdır.

## REGİONAL SİYASƏT

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın aidiyyəti bəndlərinin icrası ilə bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "2 fevral - Gənclər günü kimi qeyd olunması haqqında" Sərəncamına, habelə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən 2020-ci il 1-5 fevral tarixlərində ənənəvi "Gəncliyin səsi" festivalı keçirilmişdir. Gənc istedadların üzə çıxarılması, bilik və bacarıqlarının, yaradıcılıq nailiyyətlərinin dəstəklənməsi, yeni simaların aşkar olunması məqsədilə keçirilən festival çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında gənc musiqiçilərin konserti, gənc rəssamların, xalq tətbiqi-dekorativ və tətbiqi sənət ustalarının əsərlərindən ibarət sərgi təşkil edilmiş, muzeylərdə "Açıq qapı günü" keçirilmiş, respublikanın şəhər və rayonlarında silsilə tədbirlər (konsert, sərgi, görüş, dəyirmi masa və s.) təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın aidiyyəti bəndlərinin icrası ilə bağlı Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə Tədbirlər planı təsdiq edilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların səyyar qəbulu cədvəlinə əsasən 2020-ci ilin 23 yanvar tarixində Abşeron rayonunda, 31 yanvar tarixində Sumqayıt şəhərində və Xızı rayonunda, 21 fevral tarixində Yardımlı və Cəlilabad rayonlarında, 25 fevral tarixində Masallı rayonunda, 13 mart tarixində Xaçmaz, Siyəzən, Quba rayonlarında, 9 və 24 aprel tarixlərində Bakı şəhərində (video formatda) qəbulların keçirilməsi ilə bağlı müvafiq təşkilati işlər görülmüşdür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 yanvar tarixli 20 s nömrəli Sərəncamı ilə Bakı şəhər 11 nömrəli Onbirillik Musiqi Məktəbinə Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, akademik Arif Məlikovun adı verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli 469 s nömrəli Sərəncamı ilə Astara şəhər Uşaq Musiqi Məktəbinə Azərbaycan musiqi sənətinin inkişafında əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Xalq artisti, tanınmış bəstəkar Oqtay Kazımının adı verilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, tədrisin səviyyəsinin yüksəldilməsi, müəllimlərin təcrübələrinin artırılması və onlara metodiki köməklik göstərilməsi məqsədilə respublikanın aparıcı təhsil müəssisələrinin təcrübəli müəllimlərinin, tanınmış incəsənət xadimlərinin iştirakı ilə şəhər, rayon uşaq musiqi və incəsənət məktəblərinin şagird və müəllimləri üçün ustad dərsləri təşkil edilmişdir. Hesabat ilin 27-29 fevral tarixlərində tanınmış pianoçu, Fransa Ali Beynəlxalq Musiqi Akademiyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Adilə Əliyeva tərəfindən Bakı və Sumqayıt şəhərlərində uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri keçirilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində çalışan müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması, tutduğu vəzifəyə uyğunluğunun müəyyənləşdirilməsi və fəaliyyətinin

qiymətləndirilməsi məqsədi ilə 2020-ci il ərzində müəllimlərin attestasiyasının keçirilməsi nəzərdə tutulurdu. Bununla əlaqədar müvafiq əmr imzalanaraq yerlərə göndərilmiş, məktəblərdə tədris olunan ixtisaslar üzrə attestasiya proqramları hazırlanmış və müəllimlərə çatdırılması üçün regional idarələrə təqdim edilmişdir. Lakin koronavirus (Covid - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə 2020-ci ilin mart ayının 3-dən bütün təhsil müəssisələrində təlim-tərbiyə prosesinin dayandırılması və bununla bağlı bütün tədbirlərin təxirə salınması, habelə ölkə ərazisində xüsusi karantin rejiminin tətbiq edilməsi ilə əlaqədar sözügedən tədbirlərin keçirilməsi mümkün olmamışdır.

Uşaq musiqi və incəsənət məktəblərində fortepiano alətinin təmiri, köklənməsi və nizamlanması üzrə mütəxəssislərə böyük ehtiyac olduğunu nəzərə alaraq, nazirlik tərəfindən Bakı şəhərində müvafiq təlim kursları təşkil edilir. Bu işin davamı olaraq, 2020-ci ilin fevral ayında kursları təşkil edilmiş, kurslarda Bakı, Gəncə, Naftalan, Sumqayıt, Şəki şəhər, Ağdam, Füzuli, Gədəbəy, Kürdəmir, Sabirabad, Samux, Şuşa, Yardımlı, Zərdab rayon uşaq musiqi və incəsənət məktəblərindən 14 kökləyici və müəllim iştirak etmişdir. Sözügedən kursların iştirakçılarına Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin müvafiq vəsiqələri verilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanın icrası ilə əlaqədar rayonlar üzrə müvəqqəti komendantlıqların nəzdindəki əməliyyat qərargahlarında təmsil olunan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələrinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq işlər görülmüşdür.

İşğaldan azad edilmiş rayonların tarix və mədəniyyət obyektləri (abidələri və müəssisələri) barədə geniş məlumatlar və fotomateriallar hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

İşğaldan azad edilmiş rayonlarda nazirliyin nümayəndələri tərəfindən aparılan ilkin monitorinq məlumatları toplanılıb təhlil edilmiş və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2020-ci il 15 dekabr tarixli 167 nömrəli Sərəncamı ilə Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin tərkibi təsdiq edilmiş, Mərkəzin tərkibinə Nazirliyin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Azad Cəfərli, Regional siyasət şöbəsinin müdiri v.i.e. Vüqar Məmmədov daxil edilmişlər.

2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixlərini əhatə edən Vətən müharibəsində mədəniyyət işçilərinin iştirakı, şəhid və xəsarət alanlar, mədəniyyət müəssisələrinə və əməkdaşların yaşayış evlərinə dəymiş ziyan ilə bağlı müvafiq məlumatların mütəmadi olaraq toplanaraq təhlil edilməsi təmin edilmişdir.

Cari ilin 27 sentyabr – 16 dekabr tarixləri ərzində regional mədəniyyət idarələri üzrə 169 nəfər şəhid olmuşdur ki, onlardan 7-si mədəniyyət işçisi, 46-sı mədəniyyət müəssisələrində çalışan işçilərin ailə üzvləri, 116 nəfər yaxın qohumlarıdır. Müharibə dövründə 7 mədəniyyət

işçisi cəbhədə xəsarət almış, 1 müəllim və 1 şagird düşmən hücumları nəticəsində həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən şəhid olan mədəniyyət işçiləri (7 nəfər) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən döyüşlərdə yaralanmış 4 nəfər mədəniyyət işçisi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsində, regional mədəniyyət idarələrində və tabe müəssisələrdə çalışan işçilərin koronavirus (Covid-19) infeksiyasına yoluxması barədə məlumatlar mütəmadi olaraq toplanıb təhlil edilmiş, idarə və müəssisələrin xüsusi karantin rejimi dövründə fəaliyyətinin təşkili ilə bağlı tövsiyələr hazırlanmış, müvafiq tapşırıqlar verilmişdir.

Ölkəmizdə Covid-19 infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq edilmiş xüsusi karantin rejimi və sosial təcrid şəraitində mədəniyyət müəssisələrinin, uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin, mədəniyyət işçilərinin, ayrı-ayrı yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, regional mədəniyyət idarələri tərəfindən irəli sürülmüş təşəbbüs və sosial layihələrin dəstəklənməsi və təbliği məqsədilə 2020-ci ilin aprel-may aylarında videoyazılar əsasında aşağıdakı bir sıra tədbirlər, o cümlədən "Mədəniyyətimizi virtual məkanda tanıdaq" respublika müsabiqəsi, Uşaq musiqi, incəsənət, muğam, aşıq məktəb və mərkəzləri şagirdlərinin I Distant Respublika Musiqi müsabiqəsi və Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş uşaq incəsənət və rəssamlıq məktəbləri şagirdlərinin rəsm və əl işlərindən ibarət Distant Respublika müsabiqəsi keçirilmişdir.

Xüsusi karantin rejimi dövründə nazirliyin tabeliyində olan 3633 müəssisədə dezinfeksiya işləri aparılmış, sosial yardıma ehtiyacı olan 9458 nəfərə yardım edilmişdir ki, onlardan 3031 nəfəri mədəniyyət işçisidir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində 264179 distant dərs baş tutmuşdur ki, bu dərslərdə 10670 müəllim, 48353 şagird iştirak etmişdir.

Tabe müəssisələr tərəfindən 99036 videoçarx hazırlanmış, 11253 onlayn tədbir keçirilmişdir.

2020/2021-ci tədris ili üzrə Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas pilləsinə (kollecə) və ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi tələbə qəbulu planına və Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi müsabiqə qaydalarına əsasən həyata keçirilmişdir. Bu tədris ili üzrə BXA-nın orta ixtisas pilləsinə qəbul üçün 80 yer ayrılmış və 44-ü ümumi orta, 12-si tam orta təhsil bazasından olmaqla cəmi 56 nəfər kollecə qəbul olmuşdur. Onlardan 44 nəfəri dövlət sifarişli, 12 nəfəri isə ödənişli əsaslarla təhsil alacaqlar. Orta ixtisas pilləsinə qəbul 70% təşkil etmişdir. Bakalavriat səviyyəsinə qəbul üçün ayrılmış 110 yerə əyani təhsil forması üzrə 79 nəfər qəbul olmuşdur. Tələbələrdən 32-si dövlət sifarişli, 47-si isə ödənişli əsaslarla təhsil alacaqdır. Akademiyanın bakalavriat səviyyəsinə qəbul 71,8% təşkil etmişdir. Magistratura səviyyəsinə qəbul üçün ayrılmış 30 yerə 1 nəfər dövlət sifarişli 5 nəfər isə ödənişli olmaqla cəmi 6 nəfər qəbul olmuşdur. Akademiyanın magistratura səviyyəsinə qəbul 20% təşkil etmişdir. BXA-da orta təhsil pilləsinə cəmi 75 şagird qəbul olunmuşdur ki, bunlardan 29 nəfəri tədris azərbaycan dili bölməsi üzrə,

46 nəfəri tədris rus bölməsi üzrə təşkil edir. Qeyd olunmalıdır ki, ixtisaslaşma aparılmaqla şagird qəbulu həyata keçirilən 5-8-ci siniflər üzrə 13 nəfər klassik rəqs, 16 nəfər isə milli rəqs bölmələrinə qəbul olunmuşdur. Cari ilin mart ayından etibarən BXA-da bütün təhsil səviyyələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin müəyyən etdiyi "Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində fəaliyyət göstərən tədris və təlim-tərbiyə prosesinin təşkil Qaydalar"ına uyğun həyata keçirilir. Təhsilalanları tədris prosesinə daha yaxından cəlb edilməsi məqsədilə akademiyanın professor-müəllim heyəti tərəfindən 500-ə yaxın onlayn və videodərs formatında dərslər keçirilmiş, onlardan 200-dən çoxu akademiyanın rəsmi YouTube kanalında və Facebook səhifəsində yayımlanmışdır.

Hesabat ilində Bakı Xoreoqrafiya Akademiyasının beş illik elm və yaradıcılıq fəaliyyətini əks etdirən toplu nəşr olunmuşdur.

"Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun olaraq yeni təhsil proqramlarının (təhsil standartları) hazırlanması ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən yaradılmış mədəniyyət və incəsənət ixtisasları üzrə İşçi qrupuna Mədəniyyət Nazirliyinin əməkdaşları - Elm və tədqiqatlar sektorunun müdiri və Təhsil müəssisələri ilə iş sektorunun müdiri daxil edilmiş və təhsil proqramlarının hazırlanmasında iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli və 26 yanvar 2015-ci il tarixli Sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın aidiyyəti müddəalarına uyğun olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə və təşkilatı dəstəyi ilə Məhər Məhərrəmov S.Q.Stroqanov adına Moskva Dövlət Bədii-Sənaye Akademiyasında magistr səviyyəsində "Dekorativ-tətbiqi sənət və xalq sənətləri (bədii şüşə)" ixtisası üzrə təhsilini başa vurmuş Azərbaycan Respublikasının Əməkdar artisti, Gənclər üçün Prezident Mükafatçısı, Prezident təqaüdçüsü, adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilmiş Elvin Xoca Qəniyev Almaniyanın Hochschule für Musik Theatre und Medien Hannover Universitetinin magistratura səviyyəsində violin ixtisası üzrə və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının artisti işləmiş Murad Kərimov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki A.Y.Vaqanova adına Rus Balet Akademiyasının bakalavriat səviyyəsində "Xoreoqrafiya sənəti" ixtisası üzrə təhsillərini davam etdirmişlər.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən cari ilin 17 sentyabr tarixində Sumqayıt şəhəri, Abşeron, Xızı, Şuşa, Zəngilan, Qubadlı rayonlarının muzey müəssisələri və Heydər Əliyev Mərkəzlərində, 24 sentyabr tarixində isə Lənkəran şəhəri, Lerik, Astara rayonlarının muzey müəssisələri və Heydər Əliyev Mərkəzlərində çalışan əməkdaşlar üçün "Tarixin yaddaşı unudulmur: Faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunur" adlı regional onlayn seminarlar keçirilmişdir. Cari il ərzində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinə bərpa və konservasiya məqsədilə 137 ədəd əşya daxil olmuşdur. Ümumilikdə 360 ədəd əşya bərpa prosesi keçmişdir ki, onlardan 275 ədədi (267 ədədi Mərkəzdə, 8 ədədi isə yerində bərpa olunub təhvil verilib) bərpa olunaraq muzeylərə qaytarılmış, 62 ədədi bərpa olunaraq mərkəzdə saxlanılmış, 23 ədədi isə bərpa prosesindədir. Beləliklə, mərkəz tərəfindən 27ədəd - xalça və xalça məmulatları, 25 ədəd tikmə, parça və geyim, 41 ədəd–ağac, 61 ədəd-keramika, 90 ədəd-metal, 20 ədəd-boyakarlıq, 96 ədəd-qrafika nümunələri bərpa və konservasiya olunmuşdur. 134 ədəd əşyaya hazırda mərkəzdə xüsusi şəraitdə nəzarət olunur.

Hesabat dövrü ərzində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən regional mədəniyyət idarələrinin və tabe müəssisələrin əməkdaşları üçün müvafiq sahələr üzrə onlayn formatda təlimlər təşkil edilmişdir. Sözügedən mərkəz Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi ilə birlikdə Uşaq musiqi və incəsənət məktəbləri üçün Estrada sənəti (vokal) fənni üzrə Proqram hazırlamışdır.

Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı ilə birgə həyata keçirilən #BİZİ BİRLƏŞDIRƏN MƏDƏNİYYƏT telelayihəsi çərçivəsində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində qeyd olunan məktəbin 8 və Bakı şəhər uşaq musiqi və incəsənət məktəblərinin 18 müəlliminin videodərslərinin çəkilişləri aparılmış və "Mədəniyyət" televiziya kanalı vasitəsi ilə distant tədris vasitəsi kimi yayımlanmışdır. Bundan başqa #BİZİ BİRLƏŞDIRƏN MƏDƏNİYYƏT layihəsi çərçivəsində görkəmli bəstəkarlarımıza -Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Arif Məlikova- həsr olunmuş telehəftə çəkilişlərində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagird, məzun və müəllimlərinin çıxış və ifaları öz əksini tapmışdır.

22-29 fevral 2020-ci il tarixində Gürcüstan Respublikasının Batumi şəhərində keçirilən "Silk Way" adlı Beynəlxalq Musiqi Müsabiqəsində ölkəmizi Mədəniyyət Nazirliyinin təşkilatı dəstəyi ilə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi təmsil etmiş və məktəbin şagirdləri simli alətlər və fortepiano nominasiyaları üzrə mükafata layiq yerləri tutmuşlar. Dekabr ayında keçirilən dövlətlərarası MIR 24 telekanalının "Во весь голос" onlayn Beynəlxalq Musiqi Televiziya Yarışmasının 4-cü mövsümündə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin müəllim və şagirdləri ölkəmizi layiqincə təmsil etmiş və müsabiqənin diplomu ilə mükafatlandırlmışlar. 7-12 dekabrda Qazaxıstanda online formatda keçirilən "Ayaulı Astana" V Beynəlxalq musiqi festivalında məktəbin kamança ixtisası üzrə şagirdi birinci yerə çıxmışdır

MDB-yə üzv dövlətlərinin Başçıları Şurasının 28 sentyabr 2018-ci il tarixli Qərarı ilə təsdiq olunmuş "Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş əsas Tədbirlər Planı" çərçivəsində 2020-ci ilin 24-29 aprel tarixində Rusiya Federasiyasının Omsk şəhərində MDB iştirakçısı dövlətlərinin gəncləri arasında "Biz xatırlayırıq..." devizi altında açıq XV Delfi Oyunlarının keçirilməsi nəzərdə tutulmuşdur. Beynəlxalq Delfi Komitəsinin dəvət məktubuna və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin razılığına əsasən potensial iştirakçılar haqqında sənədlər və bədii proqramlar Təşkilat Komitəsinə təqdim edilmiş və təşkilatçılar tərəfindən qəbul olunaraq təsdiqlənmişdir. Pandemiya şəraiti ilə əlaqədar olaraq sözügedən tədbir 2021-ci ilə keçirilmişdir.

MDB-nin Hökümət Başçıları şurasının 21 noyabr 2014-cü il nömrəli Qərarı ilə MDB-iştirakçı dövlətlərinin musiqi, mədəniyyət və incəsənət təhsili sahəsində əməkdaşlıq üzrə Baza Təşkilatı statusu verilən Qnesinlər adına Rusiya Musiqi Akademiyasındakı İctimai Şuranın tərkibinə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi aparatının Elm və tədqiqatlar sektorunun müdiri və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru üzv kimi daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının aidiyyəti müddəaları Mədəniyyət Nazirliyi tərəfindən icra olunmuş və 2020-ci ilin birinci yarımili ərzində müvafiq müddəalar üzrə görülmüş işlər barədə məlumat aidiyyəti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nda Mədəniyyət Nazirliyinə həvalə olunmuş aidiyyəti bəndlər üzrə görülmüş işlər barədə illik hesabat Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupuna təqdim edilmişdir.

Mədəniyyət Nazirliyinin tabeliyində olan elmi müəssisələrinin 2020-ci il üzrə elmi nəticələrinin hesabatı müəyyən olunmuş qaydada Azərbaycan Milli Elmlər Akademiyasına təqdim edilmişdir.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ İNNOVATİV İNKİŞAF

2020-ci il ərzində Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf sahəsində fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir:

### İkitərəfli əməkdaşlığın inkişafı və dərinləşdirilməsi istiqamətində fəaliyyətin təmin edilməsi

2020-ci il 7 fevral tarixində Azərbaycan Milli Xalça Muzeyi və Dövlət Ermitajı arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

2020-ci il 20 fevral tarixində Roma şəhərində “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

2020-ci il 11 mart tarixində Bakı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə ikitərəfli əməkdaşlıq üzrə bir sıra sənədlər, o cümlədən "Azərbaycan Milli Kitabxanası ilə Türkmənistan Mədəniyyət Nazirliyinin Dövlət Mədəniyyət Mərkəzinin Dövlət Kitabxanası arasında kitabxana işi sahəsində Anlaşma Memorandumu" imzalanmışdır.

2020-ci il 19 avqust tarixində Bakı şəhərində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasında Səfirliyi arasında “Amerika guşələri” proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

### İkitərəfli görüşlər

2020-ci il 21 yanvar tarixində Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Li Litzenbergeri qəbul etmişdir. Görüşdə mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün iki ölkə arasında memorandumun imzalanmasını, eləcə də kitabxana sistemində, mədəni irs istiqamətində, muzey işi üzrə təcrübə mübadiləsinin vacibliyi, bu sahələrdə birgə əməkdaşlığın qurulmasının ölkələrimiz arasında təcrübə mübadiləsinə, innovativ yanaşmanın tətbiqi və daha da inkişafına kömək edə biləcəyi qeyd olunmuşdur.

2020-ci il fevralın 6-da mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyu qəbul etmişdir. Görüşdə Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişaf etdirilməsi mövzusunda müzakirələr aparılmışdır.

2020-ci il fevralın 10-da Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Fransanın səfiri Zaxari Qross, Əlcəzair Xalq Demokratik Respublikasının səfiri Səlimə Abdelhaq və İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfiri Sami Abdullah Ğoşehi ilə görüşmüşdür. Keçirilən görüşlərdə ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıq imkanları, gələcək perspektivlər və həyata keçiriləcək layihələr haqqında müzakirələr aparılmışdır.

2020-ci il 11 fevral tarixində Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev İsrail Dövlətinin səfiri Corc Dik və Tacikistan Respublikasının səfiri Rustam Soliyev ilə görüşmüşdür. Görüşlərdə Azərbaycanın hər iki ölkə ilə mədəni əməkdaşlığına nəzər salınmış, mədəniyyətin müxtəlif sahələri üzrə mübadilənin daha da genişləndirilməsi, bu istiqamətdə fəaliyyət planlarının hazırlanması müzakirə olunmuşdur. Gələcəkdə əlaqələrin inkişafına töhfə verə biləcək, xalqlarımızın mədəni irsinin təbliğində rol oynayacaq layihələr ətrafında fikir mübadiləsi aparılmışdır.

2020-ci il 11 avqust tarixində Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı qəbul etmişdir. İlk görüşün məhz Türkiyə səfiri ilə keçirilməsinin əlamətdar olduğu qeyd edilərək, son günlərdə baş verən hadisələrdə qardaş Türkiyənin hər zaman olduğu kimi Azərbaycanı tək qoymamasına və hərtərəfli dəstəyinə görə minnətdarlıq ifadə edilmişdir. Daha sonra Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, hüquqi bazanın genişləndirilməsi, konkret sahələr üzrə təcrübə mübadiləsinin aparılması və ortaq mədəni irsin qorunması üçün geniş imkanlar olduğu vurğulanmışdır. Görüşdə Azərbaycanla Türkiyə arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin mədəniyyət sahəsində əməkdaşlıqda da ön planda olduğu və bundan sonra da əməkdaşlığın uğurla inkişaf etdiriləcəyi qeyd olunmuşdur. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə işçi qrupunun tərkibinin yenidən formalaşdırılması barədə razılıq əldə edilmişdir.

2020-ci il 12 avqust tarixində Braziliya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Manuel Monteneqro ilə görüş keçirilmişdir. Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələr və əməkdaşlığın gələcək perspektivləri, həmçinin həyata keçirilə biləcək layihələr ətrafında müzakirələr aparılmışdır. M.Monteneqro qəbula görə təşəkkür edərək, mədəniyyət sahəsində ölkələrimiz arasında mövcud əməkdaşlığın genişləndirilməsi məqsədilə hüquqi bazanın yaradılması, onlayn film festivalının təşkili, pandemiya dönəmindən sonra klassik musiqi konsertinin keçirilməsi və digər həyata keçirilə biləcək layihələrlə bağlı təkliflər toplusunu təqdim etmişdir. Hər iki ölkə üçün ümumi maraq kəsb edəcək digər tədbir və layihələrlə bağlı təkliflərin Səfirliyə təqdim ediləcəyi qonağın diqqətinə çatdırılmışdır.

2020-ci il 19 avqust tarixində Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Li Litzenberger ilə görüş keçirilmişdir. Görüş çərçivəsində ölkəmizin mədəniyyət və tarix abidələrinin bərpasına səfirliyin ənənəvi dəstəyinin davam etdirilməsi və mədəniyyət sahəsində menecerlərin yetişdirilməsi üçün birgə treninq layihələrinin həyata

keçirilməsi, mədəniyyət sahəsində rəqəmsallaşmanın inkişafı ilə bağlı əməkdaşlığın gücləndirilməsi, yaradıcı sənayelərin inkişafı üçün təcrübə mübadiləsinin aparılması ilə bağlı mövcud əməkdaşlığın daha da genişləndirilməsi məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

23 sentyabr 2020-ci il tarixində Portuqaliya Respublikasının Türkiyə Respublikası və Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Paula Leal da Silva ilə keçirilən görüş zamanı ölkəmizin mədəni irsinin qorunması sahəsində birgə əməkdaşlıq, portuqal dilinin Azərbaycanda təbliği ilə bağlı layihələrin reallaşdırılması, sosial media vasitəsilə portuqaliyalı və azərbaycanlı gənclər arasında mübadilə proqramlarının həyata keçirilməsi və digər məsələlər barədə müzakirələr aparılmışdır.

2020-ci il 29 sentyabr tarixində Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Boçarnikov ilə görüş keçirilmişdir. Görüşdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin Moskvadakı heykəlinin bərpası, dekabr ayında Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının 100 illik yubileyinin keçirilməsi, gənclər sahəsində əməkdaşlıq məsələləri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikiillik mədəni əməkdaşlıq proqramının hazırlanması, habelə Ermitajda Azərbaycan zalının açılması, regionlararası əməkdaşlıq forumunun keçirilməsi, Bakı Beynəlxalq Humanitar Forumu və Mədəniyyətlərarası Dialoq Forumunda Rusiyanın iştirakı, Rusiyada Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Danışıqlar zamanı Ermənistan hərbi birləşmələrinin cəbhə xətti boyunca Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutaraq təcavüzkar siyasətini davam etdirdiyi Rusiya tərəfinin diqqətinə çatdırılmışdır.

2020-ci il 29 sentyabr tarixində Kolumbiya Respublikasının ölkəmizdəki səfiri Luis Antonio Dimate Kardenas ilə görüş keçirilmişdir. Mədəniyyət sahəsində nəzərdə tutulan layihələr barədə məlumat verildikdən sonra Kolumbiya tərəfi ölkəmizdə keçiriləcək beynəlxalq mədəniyyət tədbirlərində fəal iştiraka dəvət edilmişdir. Görüşdə gələcək əməkdaşlıq istiqamətləri, o cümlədən qarşılıqlı mədəniyyət günlərinin təşkili, iki ölkənin mədəniyyət müəssisələri arasında birbaşa əlaqələrin təşviqi və perspektivləri barədə müzakirələr aparılmışdır. Səfir Azərbaycanla Kolumbiya arasında mədəniyyət sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, mövcud əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə etmişdir. Söhbət zamanı gələcəkdə birgə musiqi festivallarının, qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi bildirilmişdir. Görüşün sonunda Ermənistan işğalçı hərbi birləşmələrinin cəbhə xətti boyunca təxribatları haqqında məlumat, o cümlədən düşmənin Azərbaycanın yaşayış məntəqələrini, mülki əhalini, obyektləri, tarixi tikililəri ağır artilleriya və raket atəşinə tutması, dinc sakinləri qətlə yetirməsi qonağın diqqətinə çatdırılmışdır. Səfir L.Kardenas Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycanın mülki əhalisinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar xalqımıza başsağlığı vermişdir.

2020-ci il sentyabrın 30-da Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi ilə keçirilən görüş zamanı iki ölkə arasında mədəni əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fəaliyyət planının hazırlanması, mədəni irsin qorunması sahəsində Macarıstan ilə təcrübə mübadiləsinin aparılması kimi məsələlərə toxunulmuş, bu ilin noyabr ayında mədəni irsin rəqəmsallaşdırılması ilə bağlı Macarıstanın təşkilatçılığı ilə keçirilməsi planlaşdırılan beynəlxalq onlayn konfransda Azərbaycan tərəfinin iştirakının vacibliyi vurğulanmışdır.Şəki Xan sarayı ilə şəhərin tarixi mərkəzinin 2019-cu ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsində Macarıstanın dəstəyi yüksək qiymətləndirilmiş, həmçinin Macarıstanın Türk

Şurasına daxil olmaq istəyi ilə bağlı müzakirə aparılmışdır.Sonda işğalçı Ermənistanın hərbi təxribatları və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi üçün apardığı haqlı mübarizə qonağın diqqətinə çatdırılmış, Səfir V.Sederkenyi isə Macarıstanın Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini və ölkəmizin tərəfdaşı olduğunu vurğulamışdır.

2020-ci il 30 sentyabr tarixində Yaponiyanın ölkəmizdəki səfiri Vada Cuniçi ilə görüş keçirilmişdir. Görüş zamanı ilk olaraq Azərbaycan Respublikasında diplomatik fəaliyyətə başlaması münasibətilə Səfir təbrik edilmiş, hər iki ölkənin tarixi İpək Yolu üzərində yerləşməsinin böyük əhəmiyyət kəsb etdiyi və Azərbaycanın bu tarixi marşrut üzərində yerləşən ölkələrlə əməkdaşlığa önəm verdiyi qeyd edilmişdir. Hazırda ölkəmizdə bir çox sahədə Yaponiya şirkətlərinin fəaliyyət göstərdiyi vurğulanaraq, mədəniyyət sahəsində fəaliyyət göstərən şirkətlərin də sayının artması arzusu ifadə edilmişdir. Mədəni irsin qorunmasında Yaponiyanın böyük nailiyyətlərinin olduğu qeyd edilərək, dəvət əsasında yapon ekspertlərinin ölkəmizə səfərinin təşkili və onların təcrübəsindən faydalanmaq istəyi ifadə olunmuşdur. Eyni zamanda yaradıcı sənayenin ölkəmizdə inkişafı, mədəni irsin rəqəmsallaşdırılması, mədəni sahədə əqli mülkiyyətin qorunması, özəl sektor tərəfindən mədəniyyət sahəsinə investisiya qoyuluşu ilə bağlı yapon təcrübəsinin Azərbaycan üçün maraqlı olduğu bildirilmişdir.Görüşdə Yaponiyada Azərbaycan evinin və Azərbaycanda Yaponiya evinin təsis edilməsinin əhəmiyyəti vurğulanmış, bu sahədə müvafiq addımların atılmasının zəruriliyi qeyd olunmuşdur.Görüşün sonunda səfirə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlar barədə məlumat verilmiş, Azərbaycanın haqq işi barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmin ədalətli mövqe nümayiş etdirməsi ilə bağlı inam ifadə edilmişdir.

2020-ci il oktyabr ayının 1-də Böyük Britaniyanın ölkəmizdəki səfiri və Britaniya Şurasının təmsilçisi ilə videokonfrans formatında görüş keçirilmişdir. Görüşdə Azərbaycan və Böyük Britaniya arasında mövcud mədəni əlaqələr müzakirə olunmuş və bu əlaqələrin inkişafında hər iki tərəfin maraqlı olduğu qeyd edilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Britaniya Şurasının ölkəmizdə həyata keçirdiyi müxtəlif mədəni layihələr barədə fikir mübadiləsi aparılmışdır. Görüş zamanı ölkəmizin mədəni siyasətinin inkişafına, yaradıcı sənayelər sahəsində araşdırma işlərinin aparılmasına Britaniya Şurası tərəfindən verilən texniki dəstək yüksək qiymətləndirilmişdir. Bundan əlavə, Azərbaycan və Böyük Britaniya arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və hər iki ölkənin bir-birinə qarşılıqlı dəstək verməsindən məmnunluq ifadə edilmişdir.Görüş çərçivəsində Ermənistan hərbi birləşmələrinin təcavüzkar siyasətini davam etdirdiyi, Azərbaycanın mədəni irsinə, tarix-mədəniyyət abidələrinə və infrastruktura ciddi zərbə vurduğu diqqətə çatdırılmışdır.

Özbəkistan Respublikasının ölkəmizdəki səfiri Baxrom Aşrafxanov ilə 8 oktyabr 2020-ci il tarixində keçirilmiş görüşdə Azərbaycanla Özbəkistan arasında humanitar sahədə və UNESKO çərçivəsində əlaqələrin yüksək səviyyədə olduğu vurğulanmış, iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın gələcək perspektivləri, həyata keçirilə biləcək layihələr ətrafında müzakirələr aparılmışdır.Türkdilli ölkələrlə münasibətlərin mühüm əhəmiyyət kəsb etdiyi bildirilərək, mövcud əməkdaşlığın daha da genişləndirilməsi üçün iki ölkə arasında kitabxana sistemi, kinematoqrafiya, muzey işi və mədəni irsin qorunması sahələrində təcrübə mübadiləsinin vacibliyi vurğulanmışdır.Səfir Baxrom Aşrafxanov Özbəkistanla Azərbaycan arasında ortaq mədəni dəyərlərin, ədəbi əlaqələrin, incəsənət və miniatür sənəti sahələrində

oxşar cəhətlərin yaratdığı potensialdan səmərəli istifadə edilməsinin mövcud əməkdaşlığın inkişafına təkan verəcəyini bildirmişdir. Görüş zamanı Ermənistan ordusunun cəbhə xətti boyunca törətdiyi təxribatlar, yaşayış məntəqələrini, mülki əhalini, obyektləri, o cümlədən tarixi tikililəri ağır artilleriya və raket atəşinə tutması, Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad etmək üçün həyata keçirdiyi əməliyyatlar barədə məlumatlar qonağın diqqətinə çatdırılmışdır.

2020-ci il 5 noyabr tarixində Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan və Tacikistan arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunularaq, hər iki ölkə arasında əməkdaşlığın uğurla inkişaf etməsi və genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən bu kimi görüşlərin mühüm əhəmiyyət daşıdığı qeyd edilmiş, mədəniyyətin müxtəlif sahələri üzrə mübadilənin daha da genişləndirilməsi, bu istiqamətdə birgə fəaliyyət planlarının hazırlanması müzakirə olunmuşdur. Qarşılıqlı mədəniyyət günlərinin təşkili, müvafiq sahədə təhsil müəssisələri ilə tələbə mübadiləsinin reallaşdırılması, habelə gələcəkdə bu sahədə əlaqələrin inkişafına töhfə verə biləcək, hər iki xalqın mədəni irsinin təbliğində mühüm rol oynayacaq layihələr ətrafında fikir mübadiləsi aparılmışdır.Səfir Rustam Soli Tacikistanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini, münasibətlərin yüksək səviyyədə olduğunu və müvəffəqiyyətlə inkişaf etdiyini ifadə etmişdir.Görüş çərçivəsində, 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində genişmiqyaslı hərbi təxribat törətdiyi, Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutduğu, nəticədə dinc sakinlər arasında çox sayda ölən və yaralananların olduğu, habelə mülki obyektlərə, yaşayış binalarına, müxtəlif tikililərə, o cümlədən maddi mədəni irs nümunələrinə ziyan dəydiyi səfir Rustam Solinin diqqətinə çatdırılmışdır.Eyni zamanda Ermənistanın işğal altında saxladığı müddətdə əzəli yurd yerimizdə xalqımızın zəngin mədəni irsini talan etdiyi, tarixini saxtalaşdıraraq mənimsədiyi, tarixi-mədəni abidələrini dağıtdığı və işğaldan azad olunan ərazilərdə bu kimi faktların üzə çıxdığı vurğulanmışdır.

2020-ci il 18 noyabr tarixində İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə keçirilmiş görüşdə Azərbaycanla İsrail arasında müxtəlif istiqamətlər üzrə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etməsinin iki ölkənin maraqlarına uyğun olduğu vurğulanmışdır. Azərbaycanın tarixi qələbəsi ilə başa çatan Vətən müharibəsindən söz açılaraq, Ermənistan ordusunun yaşayış məntəqələrimizə, dinc əhaliyə qarşı hücumları barədə danışılmışdır. Gəncəyə raket zərbəsindən sonra səfir Corc Dikin oraya gedərək insanlıq əleyhinə bu cinayəti öz gözləri ilə görməsi təqdirlə qeyd edilərək, göstərilən dəstəyə görə minnətdarlıq bildirilmişdir.Multikultural və çoxkonfessiyalı ölkə olan, müxtəlif xalqların və dinlərin nümayəndələrinin birlikdə dinc yaşadığı Azərbaycanda yəhudi icmasının da cəmiyyətimizin tərkib hissəsi olduğu, Azərbaycan xalqı ilə tarixən mehriban şəraitdə yaşadığı, bu gün də ölkəmizin inkişafına dərin töhfələr verdiyi vurğulanmışdır. Söhbət zamanı İsrail Dövlətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ədalətli mövqe nümayiş etdirməsinin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyi, Azərbaycanın İsraillə mədəniyyətin müxtəlif sahələrində, xüsusilə yaradıcı sənayelər istiqamətində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğu ifadə edilmişdir.

2020-ci ilin 20 noyabr tarixində mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıçı qəbul etmişdir. Görüşdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən tarixi Qələbədə qardaş Türkiyənin və türk xalqının dəstəyinə görə qraşı tərəfə

dərin minnətdarlıq ifadə edilmişdir. Danışıqlar çərçivəsində Azərbaycanla Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə töhfə olaraq ölkə daxilində və xaricində fəaliyyət göstərən Azərbaycanın Mədəniyyət Mərkəzlərinin fəaliyyətinin genişləndirilməsində Yunus Əmrə İnstitutunun təcrübəsindən istifadə edilməsi, növbəti ildə qarşılıqlı mədəniyyət günlərinin təşkili, Azərbaycanın film sənayesinin daha da canlandırılması və inkişaf etdirilməsi, zəngin mədəni irsi ilə tanınan Qarabağa həsr olunan filmlərin çəkilməsi və digər layihələrin icrası ilə bağlı birgə fəaliyyət planının hazırlanması məsələləri müzakirə edilmişdir.

2020-ci il 26 noyabr tarixində Meksika Birləşmiş Ştatlarının səfiri Xuan Rodriqo Labardini Flores ilə görüş keçirilmişdir.Bu günlərdə Azərbaycanın tarixi zəfəri ilə başa çatan Vətən müharibəsindən söz açılaraq, işğaldan azad edilən və Azərbaycan mədəniyyətinin beşiyi, Qarabağın zəngin tarixi-mədəni irsə malik olduğu vurğulanmışdır. Eyni zamanda Ermənistanın təcavüzkar və işğalçı siyasəti nəticəsində Azərbaycan mədəniyyətinə və irsinə dəymiş ziyan, vandalizm aktları barədə məlumat verilmişdir.Azərbaycanla Meksika arasında müxtəlif istiqamətlərdə münasibətlərin uğurla inkişaf etdiyi qeyd edilərək, ikitərəfli mədəni əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.Səfir fəaliyyəti dövründə Azərbaycanla Meksika arasında iqtisadi, siyasi və digər sahələrlə yanaşı, mədəniyyət sahəsində də əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etmişdir.Görüşdə "Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında təhsil, elm, gənclər, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş"ə də toxunulmuş, mədəniyyət sahəsində mövcud əlaqələrə töhfə olaraq qarşılıqlı mədəniyyət günlərinin təşkili, hər iki ölkədə Azərbaycanın və Meksikanın zəngin mədəniyyətlərinin təqdim edilməsi məqsədilə birgə layihələrin icrası məsələləri müzakirə edilmişdir.Görüş çərçivəsində Azərbaycan və Meksika xalqlarının dünya mədəni irsinə bəxş etdiyi mədəniyyət nümunələrindən söhbət açılaraq, onların gələcək nəsillərə ötürülməsinin, bu baxımdan ötən dövr ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində tarixi mədəniyyət abidələrinin saxtalaşdırılması və ya məhv edilməsi hallarının ifşa edilməsinin zəruriliyi vurğulanmışdır.

2020-ci ilin 3 dekabr tarixində Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran ilə görüş keçirilmişdir.Görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdə münasibətlərin uğurla inkişaf etdiyi, ikitərəfli mədəni əməkdaşlığın genişləndirilməsi üçün birgə tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır. Danışıqlar zamanı Azərbaycan xalqının Vətən müharibəsindəki zəfəri, 30 ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımızın talan olunduğu, mədəniyyət müəssisələrinin, tarixi abidələrin məhv edildiyi barədə qarşı tərəfə ətraflı məlumat verilmişdir. Azad edilmiş rayonlarda geniş quruculuq işlərinin başlanacağı, həmin ərazilərdə mədəniyyət infrastrukturunun yaradılması, tarixi-mədəni abidələrin bərpası ilə bağlı böyük işlərin görüləcəyi qeyd edilmişdir.Qəbula görə minnətdarlığını bildirən Səfir ölkələrimiz arasındakı münasibətlərin mədəniyyət sahəsində ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa zəmin yaratdığını bildirmişdir. Söhbət əsnasında qarşı tərəfə Azərbaycan-Venesuela mədəni əlaqələrinin inkişafı ilə bağlı təklif və təşəbbüslərə dəstək göstəriləcəyi, eyni zamanda keçiriləcək tədbirlərin xalqlarımızın mədəniyyətlərinin qarşılıqlı təbliğinə töhfə verəcəyinə inam ifadə edilmişdir. Görüşün sonunda A. Maratinez cari ilin 28 oktyabr tarixində ADA Universitetində "Azərbaycanın tarixi və mədəni irsinə qarşı Ermənistanın törətdiyi cinayətlər" mövzusunda xarici ölkələrin diplomatik korpus nümayəndələri və media təmsilçiləri üçün keçirilmiş brifinqi yüksək qiymətləndirdiyini, işğaldan azad edilən rayonlarda

yerləşən tarixi-mədəniyyət abidələri haqqında verilən məlumatların olduqca faydalı olduğunu bəyan etmişdir. İşğaldan azad olunmuş ərazilərin gözəlliyini vurğulayan Səfir həmin torpaqlara təkrar səyahət etmək niyyətində olduğunu qeyd etmişdir. Səfir böyük əzmkarlıq və qəhrəmanlıqla torpaqlarını işğaldan azad etməsi münasibətilə Azərbaycan tərəfini təbrik edərək, xalqımıza hər zaman sülh və əmin-amanlıq arzuladığını bildirmişdir.

2020-ci ilin 17 dekabr tarixində Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov ilə İsveç Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kristian Kamill arasında onlayn görüş keçirilmişdir.Görüşdə mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, İsveç Krallığının Azərbaycandakı səfirliyinin ticarət və mədəniyyət məsələləri üzrə katibi Sirus Rüstəmov, nazirliyin və səfirliyin rəsmiləri, habelə hər iki ölkənin incəsənət sektorunun nümayəndələri iştirak etmişlər. Görüş çərçivəsində iki ölkə arasında mədəniyyət sahəsində qarşılıqlı maraq doğuran əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

## Əsas tədbirlər

2020-ci ilin 23-25 yanvar tarixində Bakı şəhərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Moskva hökuməti və Rusiyanın TASS İnformasiya Agentliyinin dəstəyi ilə Bakıda "Bakı-Moskva: Mədəniyyətlərin Dialoqu" adlı konfrans keçirilmişdir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əlaqələrin gücləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə keçirilmiş tədbirdə hər iki ölkənin hökumət rəsmiləri, nazirlər, tanınmış rəhbər şəxslər və iş adamları, mədəniyyət, təhsil və elm xadimləri, o cümlədən KİV nümayəndələri iştirak etmişlər."Moskva-Bakı: mədəniyyətlərin dialoqu" adlı konfrans çərçivəsində "Mədəniyyətlərin dialoqu – xalqların dialoqunun əsası" mövzusunda dəyirmi masa, TASS İnformasiya Agentliyi və Azərbaycan Dövlət İnformasiya Agentliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın Rusiyada və Rusiyanın Azərbaycanda yaşayan görkəmli şəxslərinin fotosərgisi, TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini, Rusiya Federasiyasının əməkdar jurnalisti Mixail Qusmanın "Hakimiyyət formulu" və "Həyat formulu" adlı kitablarının təqdimatı və digər mədəni tədbirlər həyata keçirilmişdir. Rusiya Federasiyasının nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Milli Məclisində ikitərəfli görüşlər keçirilmişdir.

2020-ci il 20 fevral tarixində Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konsert proqramında iştirak etmişlər. Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa etmişdir. Koronavirus pandemiyası ilə əlaqədar olaraq Mədəniyyət İli çərçivəsində silsilə tədbirlərin keçirilməsi təxirə salınmışdır.

## Hökumətlərarası Komissiyalar çərçivəsində əməkdaşlıq

2020-ci il 17 yanvar tarixində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasında Azərbaycan Hökuməti ilə Macarıstan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyasının 7-ci iclasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin iştirakı təmin olunmuşdur.

2020-ci ilin 31 yanvar tarixində Kiyev şəhərində Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin iştirakı təmin olunmuşdur.

2020-ci il 25 fevral tarixində Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclas Protokoluna əlavə olaraq qəbul edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında bütün sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi üzrə Yol Xəritəsi"nin və Hökumətlərarası Komissiyanın 16-cı iclas Protokolunun müddəalarının icrası ilə bağlı Qazaxıstan tərəfi ilə keçirilmiş video-konfransda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin iştirakı təmin olunmuşdur.

2020-ci il 26 noyabr tarixində Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın növbəti iclası ilə bağlı keçirilmiş videokonfransda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin iştirakı təmin olunmuşdur.

**Digər tədbirlər**

2020-ci ilin 2-5 mart tarixində Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasiliy Qolubevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı Azərbaycanda "Rostov vilayət günləri" keçirilmiş və silsilə tədbirlər çərçivəsində Nazirliyin təşkilati dəstəyi ilə 2020-ci ilin 3 mart tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında konsert proqramı baş tutmuşdur. "Rostov vilayət günləri" çərçivəsində cari ilin 4 mart tarixində keçirilmiş Biznes forumda Rostov vilayətinin səlahiyyətli nümayəndələri ilə görüş keçirilmişdir.

2020-ci ilin 1 dekabr tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Özbəkistanın ölkəmizdəki səfirliyi və "Özbəkkino" Milli Agentliyi arasında "Film sənayesində əməkdaşlığın gücləndirilməsi" mövzusunda videokonfrans keçirilmişdir.Videokonfransın əsas məqsədi film sənayesi sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsi, bu sahə üzrə mütəxəssislərin yeni tərəfdaş imkanları ilə tanış edilməsi  və birgə istehsal üçün açıq olan layihələrin təqdimatı olmuşdur.Görüş zamanı hər iki ölkədə qarşılıqlı kino həftələrinin keçirilməsi, Azərbaycan və Özbəkistan filmlərinin festivallarda iştirakı, milli dəyərlər, ənənələr və mədəniyyət tarixinə əsaslanan birgə kommersiya filmlərinin çəkilməsi və beynəlxalq səviyyəyə çıxarılması barədə söhbət açılmışdır.

**Beynəlxalq təşkilatlarla əməkdaşlıq**

**UNESCO ilə əməkdaşlıq**

Cari ilin yanvar-fevral aylarında UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilməsi məqsədilə yeni nominasiyaların hazırlanmasına

başlanılmışdır. Bu fəaliyyət çərçivəsində Türkiyə Respublikası ilə birgə “Balaban hazırlanması və ifaçılığı sənəti” və “Çay mədəniyyəti” faylları hazırlanmışdır. Türkiyəli ekspertlərin Bakıya səfəri çərçivəsində qeyd edilən fayllar üzərində iş yekunlaşmış və 28 fevral tarixində mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva ilə Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Araşdırma və Təhsil Baş İdarəsinin baş direktoru Okan İbiş arasında faylların rəsmi imzalanma mərasimi keçirilmişdir.

Qeyd olunanlarla yanaşı, Türkiyə tərəfinin təşəbbüsü ilə “Molla Nəsrəddin lətifələri şifahi ənənəsi” adlı çoxmillətli nominasiya faylının hazırlanması üçün faylın Azərbaycana aid hissənin yazılışı, müvafiq fotomaterialların və filmin çəkilişi, dəstək məktublarının toplanması və s. əlaqədar işlər həyata keçirilərək Türkiyə tərəfinə təhvil verilmişdir. Çoxmillətli faylın yekun versiyasının hazırlanması üçün 9-10 mart Ankarada nəzərdə tutulan toplantı COVİD-19 pandemiyası səbəbindən təxirə salınmışdır.

Ölkəmizə aid milli nominasiyaların hazırlığı prosesi çərçivəsində “Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri” adlı faylının da ilkin versiyası hazırlanmışdır.

UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi məqsədilə yeni nominasiya fayllarının hazırlanması məqsədilə 13-18 fevral 2020-ci il tarixində maltalı ekspert Raymond Bondinin ölkəmizə səfəri təşkil olunmuşdur. Səfər çərçivəsində “Xəzərsahili mühafizə sistemləri” adlı nominasiya faylının hazırlanması məqsədilə Şabran rayonuna səfər təşkil edilmiş və müvafiq abidələrə baxış keçirilmişdir. Səfər nəticəsi olaraq faylın hazırlanması üzrə görüləcək işlərə dair yekun iclas keçirilmişdir.

22 aprel tarixində UNESCO Mədəniyyət Nazirlərinin onlayn formatda iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası mədəniyyət naziri çıxış etmişdir.

23 aprel tarixində Azərbaycan Respublikasının mədəniyyət naziri, BMT baş katibinin ali nümayəndəsi, ICESCO-nun baş direktoru, UNESCO və digər qurumların nümayəndələrinin iştirakı ilə “Bakı Prosesi” beynəlxalq işçi qrupunun virtual görüşü keçirilmişdir. Virtual görüşün məqsədi xüsusilə COVİD-19 pandemiyası ilə əlaqədar hazırkı böhranın insanlar və mədəniyyətlər arasındakı münasibətlərə təsirlərini müzakirə etmək, effektiv dövlətlərarası və mədəniyyətlərarası əməkdaşlıqda ehtimal olunan inamsızlıq və qorxu ya qarşı mübarizə ilə bağlı fikir mübadiləsi aparmaq olmuşdur.

UNESCO-nun 2020-2021-ci illər üçün İştirak Proqramı çərçivəsində 2020-ci ilin 31 may tarixinə qədər müəllif təşkilatlarla birgə 4 layihə təklifi işlənib hazırlanmış, nəzərdən keçirilməsi və UNESCO-ya təqdim edilməsi üçün Xarici İşlər Nazirliyinə göndərilmişdir.

2020-ci ilin iyun ayında 2006-2020-ci illərdə beynəlxalq təşkilatlarla mədəni əməkdaşlıq çərçivəsində əldə olunan uğurlar və nəzərdə tutulan fəaliyyətlərin icmalı hazırlanmışdır.

13 avqust tarixində UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının təşəbbüsü ilə 12 avqust - Beynəlxalq Gənclər Gününə həsr olunmuş videokonfrans keçirilmişdir. Müxtəlif dövlət qurumlarının iştirakı ilə keçirilən konfransda mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva çıxış edərək yaradıcı sahələrdə gənclərin təşviq edilməsi ilə bağlı layihələr, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən gənclər üçün yaradılan imkanlardan, eləcə də musiqi, teatr, kinematoqrafiya sahəsində gənclərin əldə etdiyi uğurlardan bəhs edib, iqtisadi inkişafa töhfə verə bilən yaradıcı gənc nəslin formalaşması və birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

3 sentyabr tarixində İçərişəhərin Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi ilə birgə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20-ci ildönümünə həsr olunmuş

“Dünya İrsi: Post-pandemiya dövründə konservasiya və inkişaf çağırışları” adlı beynəlxalq onlayn konfrans keçirilmişdir. Konfransada nazirin birinci müavini, nazir vəzifələrini m.i.e. Anar Kərimov çıxış etmişdir.

7-8 oktyabr tarixində Avropa Şurası Mədəni Marşrutlarının İdarəetmə Şurasının virtual formada növbəti iclası keçirilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən başlanan 44 günlük Vətən müharibəsi dövründə işğal olunmuş ərazilərdə mədəni irsimizə qarşı törədilən vandalizm aktları, habelə, Gəncə, Bərdə və digər ərazilərə raket hücumları ilə əlaqədar UNESCO-ya dəfələrlə müvafiq müraciətlər ünvanlanmışdır. Bununla yanaşı, müharibədən sonrakı dövrdə azad edilmiş torpaqlarda mədəni irsin vəziyyətinin müəyyənləşdirilməsi üçün başlanan ilkin monitorinqin nəticələrinə dair müvafiq hesabatların UNESCO-ya göndərilməsi təmin olunmuşdur.

14-19 dekabr tarixlərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Komitəsininin 15-ci sessiyasında müvafiq Reprezentativ siyahıya daxil edilməsi məqsədilə Azərbaycan tərəfindən təqdim edilmiş “Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti” milli nominasiya faylı və Azərbaycan, Türkiyə, Özbəkistan və İranla birgə təqdim edilən “Miniatür sənəti” çoxmillətli faylının müzakirəsi keçirilmişdir. Qeyd olunmalıdır ki, iclasdan bir neçə həftə öncə Ermənistan təxribat törətməyə cəhd etmiş və UNESCO-ya müvafiq etiraz müraciəti göndərərək çoxmillətli nominasiya sənədində Azərbaycanın Qarabağ ərazisində miniatür sənəti ilə bağlı məsələlərin qeyd edilməsinin yolverilməz olduğunu ifadə etmişdir. Bununla yanaşı, Qarabağ miniatür sənətinin yalnız ermənilərə və xristian irsinə aid olduğunu iddia edilmişdir. Azərbaycan tərəfindən beynəlxalq hüququn prinsiplərinə, 2003-cü il Konvensiyanın ruhuna və tarixi həqiqətlərə istinad olunaraq təxribatçı ölkəyə müvafiq olaraq layiqli cavab verilmişdir. 16 dekabr tarixində hər iki nominasiya faylının Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilməsi haqqında qərar qəbul edilmiş, beləliklə də Azərbaycan sözügedən siyahıda olan mədəni elementlərinin sayı 15-ə çatdırılmışdır. Sessiyada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyini təmsil edən Aparat rəhbəri vəzifələrini m.i.e. Vasif Eyvazzadə çıxış etmişdir.

24 dekabr tarixində UNESKO-nun 2020-2021-ci illər üzrə “Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı” çərçivəsində 2020-ci qeyd edilən Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi ilə əlaqədar virtual konfrans təşkil olunmuşdur. Konfransda mədəniyyət naziri vəzifələrini m.i.e. Anar Kərimov, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti akademik İsa Həbibbəyli, təhsil nazirinin müavini Firidun Qurbanov, Azərbaycan Respublikasının Macarıstandakı səfiri Vilayət Quliyev, Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu və Ə.Haqverdiyev Mərkəzinin təsisçisi və sədri Eldar Məlik-Abbas çıxış etmişlər. Tədbir Nazirliyin rəsmi sosial media kanalları ilə canlı yayımlanaraq ictimaiyyətə açıq şəkildə təşkil olunmuşdur.

## İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ilə əməkdaşlıq

2020-ci ilin 29 yanvar tarixində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə İSESKO-nun İcraiyyə Şurasının 40-cı sessiyası keçirilmişdir. Sessiyada ölkəmizi Azərbaycan Respublikasının İSESKO üzrə Milli Komissiyasının katibi, Mədəniyyət Nazirliyinin aparat

rəhbərinin müavini və Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə təmsil etmişdir. Sessiyada təşkilatın yeni adı və loqosu səsverməyə qoyularaq yekdilliklə qəbul edilmişdir. Təşkilatın əvvəlki adı dəyişdirilərək İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı adlandırılmışdır. Tədbirdən sonra Azərbaycan Respublikasının İSESKO üzrə Milli Komissiyasının katibi, Mədəniyyət Nazirliyinin aparat rəhbərinin müavini və Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə ilə İSESKO baş direktoru arasında görüş keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 2020-ci il tarixli Sərəncamı ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi təsdiq edilmişdir.

2020-ci ilin aprelin 24-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevlə ICESCO-nun baş direktoru Salim Al-Malik arasında onlayn görüş keçirilmişdir. Görüşdə ICESCO ilə Azərbaycan arasındakı mövcud əlaqələr və əməkdaşlığın perspektivləri, COVİD-19 pandemiyası ilə mübarizə dövründəhəyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılmışdır.

Ermənistan işğalçı hərbi birləşmələrinin sentyabrın 27-dən cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərini və yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutması və Azərbaycan Ordusunun cavab tədbirləri beynəlxalq birliyin diqqətini yenidən bu problemə yönəltmişdir.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İCESCO bəyanat verərək bu məsələyə münasibət bildirmişdir. Təşkilatın yaydığı açıqlamada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin son inkişaf dinamikasından, eləcə də arxeoloji, tarixi məkanların, bir neçə məscidin və müqəddəs yerlərin dağıdılmasına hədəflənən addımlardan narahatlıq ifadə olunmuşdur. Bildirilmişdir ki, İCESCO münaqişə tərəflərini son dərəcə təmkinli davranmağa, dialoqa və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) da daxil olmaqla, bir çox ölkə və beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmiş qərarlara əməl etməyi zəruri sayır.

İCESCO həmçinin BMT Təhlükəsizlik Şurasının erməni vəhşiliyini özündə əks etdirən, 1993-cü ildə qəbul olunmuş 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edərək tərəfləri beynəlxalq hüququn prinsiplərinə riayət etməyə, tarixi və mədəni hüquqlara hörmət etməyə, beynəlxalq humanitar yardımın bölgəyə maneəsiz daxil olmasına imkan verməyə və region ölkələri arasında barışıq, mehriban qonşuluq və konstruktiv əməkdaşlığı möhkəmləndirməyə çağırmışdır.

Noyabrın 20-də Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov ICESCO-nun baş direktoru Dr. Salim bin Məhəmməd Əl-Malik ilə onlayn görüş keçirmişdir.

Görüş zamanı Anar Kərimov son 30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin, xüsusilə də Azərbaycan mədəniyyətinin beşiyi hesab edilən Şuşa şəhərinin müzəffər ordumuz tərəfindən azad edilməsi və bunun dünya və islam mədəniyyəti üçün əhəmiyyəti barədə məlumat vermişdir. Qarabağ bölgəsinin işğalı nəticəsində bir sıra şəhərlərin tamamilə məhv edildiyi, bütün mədəni mülkiyyət talan olunduğu, tarixi abidələr və mədəniyyət müəssisələrinin vəhşicəsinə dağıdıldığı, xüsusilə islam irsinə aid olan abidələr və məscidlərin təhqir edildiyi diqqətə çatdırılmışdır. Nazir müavini hazırda azad edilmiş ərazilərdə mədəni mühiti canlandırmaq, abidələri, muzeyləri və müxtəlif mədəniyyət müəssisələrini bərpa etmək üçün Mədəniyyət Nazirliyi tərəfindən xüsusi fəaliyyət planının hazırlandığını bildirmişdir.

Dr. Salim bin Məhəmməd Əl-Malik Azərbaycan xalqını bu tarixi qələbə münasibətilə təbrik edərək ICESCO-nun bu məsələdə ilk günlərdə bəyanat verərək Azərbaycana tam olaraq öz dəstəyini ifadə etdiyini bildirmiş və eyni zamanda bu sahədə əməkdaşlığa dair birgə İş Planının hazırlanmasının tərəfdarı olduğunu qeyd etmişdir. ICESCO ekspertlərinin sözügedən ərazilərə araşdırma səfərinin təşkilinə də hazır olduğu baş direktor tərəfindən ifadə olunmuşdur.

27 noyabr tarixində ICESCO-nun "Bəşər sivilizasiyasının qurulmasında və sülh dəyərlərinin yayılmasında İslam incəsənətinin rolu" mövzusunda beynəlxalq onlayn vebinarı keçirilmişdir. Vebinarda Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov iştirak etmişdir.

İslam sivilizasiyasının dünya mədəniyyətinə verdiyi töhfələri qeyd edən Anar Kərimov 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılan Qarabağ bölgəsində mövcud olan İslam irsinin vəziyyətindən də bəhs etmişdir. O, Ermənistan tərəfindən məscidlərin dağıdılmasının və təhqir olunmasının Azərbaycanın tarixi-mədəni irsinin, eyni zamanda İslam irsinin məhv edilməsi məqsədi daşıdığını qeyd etmişdir. Dini mənşəyindən asılı olmayaraq mədəni irsin qorunmalı olduğunu qeyd edən Anar Kərimov Ermənistanın əməllərinə qlobal mədəniyyət institutları tərəfindən obyektiv qiymətin verilməsinin, bu əməllərin pislənilməsinin zəruri olduğunu bildirmişdir. Xüsusilə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində islam sivilizasiyasın mədəniyyət və dini irsinə qarşı həyata keçirilmiş vandalizm aktlarının İCESCO və digər beynəlxalq təşkilatlar tərəfindən daha sərt pislənilməli olduğunu, müsəlman dünyasının öz mirasını qətiyyətlə müdafiə etməli olduğunu diqqətə çatdırmışdır.

### Müstəqil Dövlətlər Birliyi (MDB) ilə əməkdaşlıq

2020-ci ilin MDB-də Böyük Vətən müharibəsində qələbənin 75 illiyi elan olunması ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində aidiyyəti üzrə tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

MDB iştirakçı dövlətlərinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) iştirakı ilə 2021-ci ildə həyata keçirilməsi nəzərdə tutulan tədbir və layihələrlə bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihələrdən 3-ü DHƏF-in 2021-ci il üçün plan-smetasına daxil edilmişdir. Layihələrin 2021-ci il ərzində icrası nəzərdə tutulur.

14 iyul 2020-ci il tarixində Belarus Respublikasının Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində MDB iştirakçı dövlətlərinin İşçi qrupu tərəfindən «Virtual Mədəni İrs Muzeyi» internet-portalı haqqında əsasnamə layihəsinin hazırlanması ilə bağlı iclas keçirilmişdir. İclas iştirakçıları portalın idarə olunması formatının, virtual muzey fondunun yaradılması prinsiplərinin müəyyənləşdirilməsi, internet-portalın quruluşu və dizaynının, məzmunun doldurulması qaydasının və texniki tələblərin hazırlanması məsələlərini daha da geniş öyrənilməsi və təkliflərin hazırlanması qərarına gəlmişdilər.

18 noyabr 2020-ci il tarixində MDB iştirakçı dövlətlərinin Mədəni əməkdaşlıq üzrə Şurasının videokonfrans formatında 35-ci iclası keçirilmişdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyini nazir müavini Sevda Məmmədəliyeva təmsil etmişdir. S.Məmmədəliyeva çıxışında MDB ilə əməkdaşlıq çərçivəsində ölkədə mədəniyyət sahəsində həyata keçirilən layihələr, görülən işlər və yeni növ Koronavirus (COVID–19) pandemiyası dövründə fəaliyyətini onlayn qaydada davam etdirən mədəniyyət müəssisələri barədə məlumat vermişdir.

Həmçinin, iclasda MDB iştirakçı dövlətlərinin mədəniyyət sahəsində əməkdaşlıq üzrə 2016-2020-ci illər üçün həyata keçirilmiş əsas tədbirləri və MDB-nin Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş Tədbirlər Planının icra vəziyyəti haqqında hesabatlar dinlənilmiş, 2021-2025-ci illər üçün mədəniyyət sahəsində həyata keçiriləcək əsas tədbirlərin təşkili ilə bağlı görüləcək işlər, MDB çərçivəsində elan olunmuş Xalq yaradıcılığı və mədəni irs ilinə (2022) həsr olunmuş Tədbirlər Planı layihəsinin hazırlanması və digər məsələlər müzakirə olunmuşdur.

Beynəlxalq layihələr və proqramlar üzrə əməkdaşlığın gücləndirilməsi, innovasiyaların tətbiqi və yaradıcı sənayelərin inkişaf etdirilməsi cari ildə Nazirliyin əsas prioritet istiqamətlərindən biri olmuşdur.

Ölkədə mədəniyyət sahəsində idarəetmənin modernləşdirilməsi, mədəniyyət və yaradıcı sənayelərin inkişaf etdirilməsi istiqamətində səylər cari il ərzində davam etdirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin **“Kreativ Azərbaycan” portalının (creative.az)** mütəmadi yenilənməsi və müasir tələblərə uğunlaşdırılması ilə bağlı iş aparılmışdır. Saytda ayrı-ayrı yaradıcı sənaye sahələri üzrə fəaliyyət göstərən dövlət və özəl müəssisələr, şirkətlər, ictimai birliklər və yaradıcı fərdlər haqqında reyestr formasında məlumatlar, mədəniyyət və yaradıcı sənayelər üzrə yeniliklər və elanlar yerləşdirilir. Həmçinin, “Facebook” (12481 izləyici) və “Instagram” (1141 izləyici) vasitəsilə maarifləndirmə və təbliğat işləri həyata keçirilir. Portal yarandığı gündən burada 300-dən çox məqalə və xəbər paylaşılmışdır.

27 fevral 2020-ci il tarixində “Kreativ Azərbaycan” portalının dəstəyi, Mədəniyyət Nazirliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında İctimai Şuranın təşkilatçılığı ilə “YARAT” Müasir İncəsənət Mərkəzində **“Mədəniyyət biznesi forumu: mövcud vəziyyət və perspektivlər” mövzusunda ictimai müzakirə** təşkil edilmişdir. Nazirliklərin, qeyri-hökumət təşkilatlarının, müvafiq sahədə fəaliyyət göstərən sahibkarların, mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə keçirilən forumda mədəniyyət və incəsənət sahəsində biznesin inkişafına dair müzakirələr aparılmışdır.

Bakı şəhərinin 2019-cu ildə “dizayn” sahəsi üzrə UNESCO-nun “Yaradıcı Şəhərlər Şəbəkəsi”nə daxil edilməsi və Bakının “Yaradıcı şəhər” kimi brendləşdirilməsi ilə əlaqədar müvafiq dövlət qurumları ilə birlikdə Tədbirlər Planı hazırlanmışdır. Müvafiq olaraq, “**Azerbaijan Design Award**” müsabiqəsi çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi və “Kreativ Azərbaycan portalı”nın rəsmi tərəfdaşlığı ilə 10 fevral - 20 fevral 2020-ci il tarixlərində **xüsusi loqo müsabiqəsi** keçirilmişdir. Yaradıcı şəxslər üçün tamamilə ödənişsiz təşkil olunan müsabiqə ölkədə dizayn bacarıqlarını inkişaf etdirmək və istedadlı şəxsləri üzə çıxarmaq məqsədi daşımışdır. Ümumilikdə müsabiqəyə 400-dən çox dizaynerin 611 əsəri təqdim olunmuşdur. Dizaynerlər rəsmi sayt üzərindən 10 kateqoriya üzrə layihələrini təqdim etmişlər: brendinq, qablaşdırma dizaynı, illüstrasiya, veb-dizayn, sənaye dizaynı, tətbiq (app) dizaynı, interyer dizaynı, eksteryer dizaynı, çap dizaynı, outdoor dizaynı. Müsabiqədə bu 10 kateqoriya ilə yanaşı, 2019-cu ildə Bakı şəhərinin UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə “Dizayn” tematikası üzrə daxil edilməsi ilə əlaqədar “Bakı Dizayn Şəhərinin xüsusi loqosunun hazırlanması nominasiyası” üzrə də işlərin qəbulu həyata keçirilmişdir. Layihələr *azerbaijandesignaward.com* saytında xüsusi “Bakı Dizayn Şəhəri (Baku Design City)” kateqoriyasında qəbul edilmişdir. Bütün layihələr dünya səviyyəli məşhur peşəkarlardan ibarət münsiflər heyəti tərəfindən onlayn şəkildə anonim olaraq dəyərləndirilmişdir. Rəqabətin böyük olduğu müsabiqəyə 8 ölkədən 20 münsif cəlb olunmuş, hər bir kateqoriya üzrə layihələri

8 münsif qiymətləndirmişdir. 2 mart 2020-ci il tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında “Azerbaijan Design Award” layihə-müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir. Finalçılar “Azerbaijan Design Award” və Mədəniyyət Nazirliyi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılmışlar. Qaliblərə isə əsas mükafat olan “Azerbaijan Design Award” kuboku, diplom və hədiyyələr təqdim olunmuşdur. “Bakı Dizayn Şəhərinin xüsusi loqosunun hazırlanması nominasiyası” üzrə müsabiqənin qalibi xüsusi mükafatla – “Apple Macbook Air 2019 noutbuku” ilə təltif edilmişdir. Şəbəkəyə üzvlük qaydalarına uyğun olaraq, **“Baku Design City” loqosu** təsdiq olunmuş, xüsusi **bakudesigncity.az internet səhifəsi** yaradılmışdır.

Mədəniyyət Nazirliyinin “Kreativ Azərbaycan” portalı tərəfindən 21 mart 2020-ci il tarixində “Facebook” sosial şəbəkəsi vasitəsilə **“Evdə qal evdə yarat”** adlı təşəbbüs elan edilmişdir. Müsabiqə 10 may 2020-ci il tarixinə qədər davam etmişdir. İştirakçılar öz yaradıcılıqlarını nümayiş etdirərək “Kreativ Azərbaycan” portalının sosial şəbəkələrində #evdəqalevdəyarat həştəqi ilə paylaşımlar etmişlər. Müsabiqə ümumilikdə 70 000 insanı əhatə etmişdir. Ölkəmizin regionları da daxil olmaqla, 4500-dən çox iştirakçı yaratdığı əl işləri, rəsm əsərləri, musiqi parçaları, həmçinin ifaçılıq və bədii qiraət nümunələrini “Kreativ Azərbaycan” portalının “Facebook” və “Instagram” səhifələri üzərindən onlayn şəkildə paylaşmışdır. 2 oktyabr 2020-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində müsabiqə qaliblərinin mükafatlandırma mərasimi baş tutmuşdur. Onların arasında beş kateqoriya üzrə (xüsusi qalib, ən çox bəyənilən paylaşım, ən gənc iştirakçı, ən aktiv iştirakçı, ən kreativ ideya) qaliblər elan olunmuş və mükafatlandırılmışdır. Sözügedən təşəbbüs çərçivəsində Azərbaycandan Xalq artisti Mircavad Cəfərovun rəhbərlik etdiyi “Cəngi” etno-caz qrupu tərəfindən hazırlanan Dave Brubeckin “Take Five” əsərinin milli musiqi alətlərində ifası 2020-ci il 8 avqust tarixində Rusiya Federasiyasıın Sankt-Peterburq Mədəniyyət Komitəsinin dəstəyi və Sankt-Peterburq Teatr və Musiqi Muzeyinin təşkilatçılığı ilə keçirilən "Dünya Musiqiləri" adlı Beynəlxalq Etnik Festivalda səsləndirilmişdir.

Mədəniyyət Nazirliyinin “Kreativ Azərbaycan” portalı tərəfindən “Azeri Express” şirkətinin tərəfdaşlığı ilə daha bir virtual layihə - **"Sənətə dəstək ol" adlı xeyriyyə aksiyası** həyata keçirilmişdir. Aksiya çərçivəsində pandemiyanın yaratdığı şərait nəticəsində çətin maddi vəziyyətdə qalmış yaradıcı insanlar (sənətkarlar, rəssamlar, yazıçılarvə s.) haqqında məlumat verilmiş, onların əsərləri sosial şəbəkələr vasitəsilə satışa çıxarılmışdır.

“Kreativ Azərbaycan” portalı vasitəsilə mədəniyyət sahəsində çalışan əməkdaşlar, eləcə də özəl sektor nümayəndələri və ayrı-ayrı yaradıcı şəxslərin vacib mövzular üzrə bilik və bacarıqlarının artırılması məqsədilə **"onlayn" video təlimlər proqramı** həyata keçirilmişdi. Mövzular üzrə video təlim mühazirələri "creative.az" portalında xüsusi bölmədə, eləcədə portalın “Facebook” səhifəsində yerləşdirilir. Qrafik dizayn, layihə idarə etməsi, marketinq, PR və digər mövzulara dair keçirilən təlimlər moduldan asılı olaraq müxtəlif müddəti əhatə edir. 1 may 2020-ci il tarixindən etibarən "Dizayn" mövzusunda 4 video təlim təqdim olunmuşdur.

Dövlət və özəl sahədə çalışan istedadlı və yüksək bacarıqlı şəxləsin hazırkı koronavirus (COVİD-19) pandemiyası dövründəki vəziyyət və post-pandemiya dövründə gözlənilən problemlər və reallıqlar barədə virtual müzakirənin aparılması məqsədi ilə **"Kreativ Azərbaycan” portalının Virtual Platforması** təsis olunmuşdur. 14 aprel 2020-ci il tarixində “Covid-19 virus Pandemiyasının yaratdığı virtual reallıq və gələcək proqnozlar” mövzusunda ilk virtual panel təşkil olunmuşdur.

Koronavirus (COVİD-19) pandemiyası dövründə "online" fəaliyyətə və müasir, çevik, yüksək keyfiyyətli texnoloji həllərə tələbatın artması, digər ölkələrdə olduğu kimi yerli səviyyədə rəqəmsal mədəniyyətə keçid proseslərinin dəstəklənməsi üçün Mədəniyyət Nazirliyinin "Kreativ Azərbaycan" portalı tərəfindən **"Mədəniyyət və yaradıcılıq sahəsində rəqəmsal həllər" adlı startap müsabiqəsi** həyata keçirilmişdir. Müsabiqə 10 aprel 2020-ci il tarixində elan edilmişdir. Müsabiqə xüsusilə yaradıcı gənclər tərəfindən böyük maraqla qarşılanmış və xeyli maraqlı müraciətlər qəbul edilmişdir. İştirakçılar öz startap ideyalarını video və yazı formatında təqdim etmiş, ideyanın yaradıcılıq sahəsinə olan faydasından bəhs etmişdir. Münsiflər heyəti tərəfindən iki mərhələdə qiymətləndirmədən keçdikdən müsabiqənin qalibləri müəyyən edilmişdir. I yer – Rəşid Ağamalıyev ("Aydın və Aydan 2020" uşaqlar üçün ilk Azərbaycan internet animasiya serialı), II yer – Fərrux Rəhimov ("kreativmart.com" – yaradıcı sənaye məhsullarının satışı və nümayişinə imkan verən onlayn platforma), III yer – Ta(r)dino (onlayn rəqəmsal incəsənət arxivi). Qaliblərə pul mükafatları verilmişdir.

Ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizəyə dəstək məqsədilə Mədəniyyət Nazirliyinin "Kreativ Azərbaycan" portalının dəstəyi ilə "AFFFAİR" brendinin rəhbəri, məşhur moda dizayneri Rüfət İsmayılla birlikdə "LoveLife" adlı aksiya keçirilmişdir. Aksiya çərçivəsində R. İsmayıl tərəfindən xüsusi şəkildə dizayn edilmiş və məhdud sayda hazırlanmış köynəklər (T-shirt) satışa buraxılmış, köynəklərin satışından əldə olunan gəlir "Koronavirusla Mübarizəyə Dəstək Fonduna" bağışlanmışdır.

Mədəniyyət Nazirliyinin Kreativ Azərbaycan portalı (creative.az) Vətən torpaqlarını işğaldan azad etmək uğrunda müqəddəs savaşın getdiyi dövrdə hərbçilərimizə mənəvi dəstək olmaq, cəmiyyətdə vətənpərvərlik ruhunu daha da yüksəltmək üçün 13 oktyabr 2020-ci il tarixində "Ordumuz üçün yarat" sənət aksiyasını elan etmişdir. Aksiyanın təşkilində əsas məqsəd ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçməyə hazır olan igidlərimizin hərb meydanındakı şücaətinin, vətənsevərlik ruhunun sənət əsərlərində, bədii yaddaşda əks etdirilməsinə zəmin yaratmaq və yaradıcı potensiala malik hər kəsin yeni işlərinin ərsəyə gəlməsinə təkan vermək idi.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan edilməsiilə bağlı 4 mart 2020-ci il tarixində Mədəniyyət Nazirliyinin "Kreativ Azərbaycan" portalı (creative.az) tərəfindən "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatının formalaşması prosesinə start verilmişdir. Hərəkat çərçivəsində yaradıcı şəxslərin mədəniyyət və yaradıcı sənayelər sahəsində iştirakının gücləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi, bilik və bacarıqların daha da artırılması məqsədilə yaradıcı şəxslərin hərəkat halında təşkilatlanması, onlar üçün tematik bilik və təcrübə proqramlarının hazırlanması və həyata keçirilməsi, karyera proqramlarında iştirak, regionlarda yaşayan yaradıcı insanlar və incəsənət nümayəndələri ilə şəbəkələrin qurulması və birgə təcrübə mübadiləsi proqramlarının tərtib edilməsi planlaşdırılır. Bu Hərəkat gələcək könüllülər üçün peşəkar inkişafa, nazirliyin genişmiqyaslı fəaliyyətində yaxından iştirak etməyə, ölkəmizdə yaradıcı sənayelərin inkişafına yönəlmiş "Kreativ Azərbaycan" prosesinin bir hissəsi olmağa, eləcə də yaradıcı təhsil sisteminin təkmilləşməsinə töhfə verməyə böyük imkan yaradacaqdır.

Yaradıcı sənayelər üzrə ölkədə startap fəaliyyətinin dəstəklənməsi məqsədilə Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə Britaniya Şurası (British Council) tərəfindən "Creative Spark" proqramı çərçivəsində "Big Idea Challenge" adlı layihə müsabiqəsi təşkil olunmuşdur. Layihələr bir neçə kateqoriya üzrə (yaradıcılıq, rəqəmsal texnologiyalar, sosial təsir, xalqın seçimi və ölkə üzrə qalib) qiymətləndirilmiş, qaliblər pul mükafatı və sertifikatlarla təltif olunmuşlar. Londonda

baş tutmalı olan, amma koronavirus pandemiyasının yaratdığı çətinliklər səbəbi ilə cari ilin sentyabr ayında onlayn formatda keçirilən dünya mərhələsində UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin "Biznesin idarəolunması" ixtisası üzrə III kurs tələbəsi Məhəmməd Kekalovun "Kekalove adaptive fashion" biznes ideyası həm dünya çempionu (Grand Champion), həm də "Yaradıcı" (Creative) kateqoriyası üzrə beynəlxalq qalib seçilmişdir. UNEC tələbəsinin biznes startapı əngəlli şəxslərin fiziki məhdudiyyətlərini nəzərə alan xüsusi geyimləri dizayn və istehsal edir. Layihəyə əsasən, əngəlli şəxslərin geyim seçimləri ilə bağlı öncədən sorğu təşkil olunur. Sonra isə onların əngəllərinə uyğunlaşdırılmış adaptiv geyimlər hazırlanır.

Hazırda mədəniyyət sahəsində idarəetmənin təkmilləşməsi istiqamətində aparılan islahatlarda sektor tərəfindən iştirak təmin olunur, Nazirlikdə yaradılan İslahat Komissiyasının fəaliyyətinə dəstək göstərilir, Milli Mədəniyyət Strategiyasının hazırlanması üzrə aparılan işlərin koordinasiyası həyata keçirilir. 6 avqust 2020-ci il tarixində Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət sahəsində fəaliyyət göstərən təşkilatların, bu sahə ilə bağlı insanların, yaradıcı şəxslərin fikir və təkliflərini öyrənmək məqsədilə ictimaiyyətə müraciət olunmuşdur. Nazirliyin ictimaiyyətə müraciəti geniş maraq doğurmuş, çoxsaylı vətəndaş, dövlət və özəl mədəniyyət müəssisələri tərəfindən 22 müxtəlif sahə üzrə (tədris, mədəniyyətimizin xarici ölkələrdə təbliği, gənc kadrlara dəstəyin gücləndirilməsi, kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi, mədəniyyət sahəsində idarəetmə, mədəni irsin qorunması, kino, teatr və musiqi sahələrinin inkişafı) çoxlu sayda rəy və təklif daxil olmuşdur. Bundan əlavə, mədəniyyətimizin televiziya/radio kanallarında və sosial şəbəkələrdə geniş təbliğ olunması, regionlarda mədəniyyət müəssisələrinin idarəedilməsində yeniliklərin tətbiq olunması, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı təkliflər, ayrı-ayrı layihə və müraciətlər daxil olmuşdur. Sözügedən islahatların öz əksini tapacağı Azərbaycan Respublikasının Mədəniyyət Strategiyasın formalaşdırılması üçün İctimai Rəyin Öyrənilməsi Sorğusu keçirilir.

Koreya Respublikasının Maliyyə və Strategiya Nazirliyi tərəfindən hər il həyata keçirilən "Bilik Mübadiləsi Proqramı" çərçivəsində əməkdaşlığa dair layihə işlənib hazırlanaraq aidiyyəti üzrə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur. Hazırda layihə dəyərləndirmə mərhələsindədir.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Bakı şəhərinin Baş Planının hazırlanması üzrə işçi qrupun prioritet təşkil edən layihə təkliflərinin müəyyənləşdirilməsi məqsədilə 26-27 noyabr 2019-cu il tarixlərində təşkil edilən yekun Strateji Sessiyası təşkil olunmuşdur.

21 aprel Birləşmiş Millətlər Təşkilatı tərəfindən Dünya Yaradıcılıq və İnnovasiya Günü kimi elan olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə təsis olunmuş "Kreativ Azərbaycan" Virtual Platformasının ikinci Panel Müzakirəsi məhz bu mövzuya həsr olunmuşdur. Panel müzakirəsinin məqsədi COVİD-19 pandemiyası dövründə yaradıcı sənayelərin vəziyyətinin, ölkəmizdə kreativlik və innovasiya sahələrinin inkişaf tendensiyalarının, imkanlarının və problemlərinin müzakirəsi, dövlət və özəl sahələr arasında fikir bölgüsünün təşkili, yeni əməkdaşlıq imkanlarının üzə çıxarılmasıdır. Mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə baş tutan panel müzakirəsində AR Prezidentinin Administrasiyasının, İqtisadiyyat, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliklərinin, BMT-nin İnkişaf Proqramının, eləcə də bir sıra özəl şirkətlərin nümayəndələri iştirak etmişdir.

Magistr və bakalavr dərəcələri üzrə yuxarı kurs tələbələri üçün ADA Universiteti tərəfindən təşkil olunan "Capstone" adlı elmi-praktiki tədqiqat layihəsi çərçivəsində əməkdaşlıq

həyata keçirilmişdir. Layihə çərçivəsində Universitet tərəfindən 2 qrup müəyyənləşdirilmiş, Nazirlik tərəfindən seçilmiş 2 mövzu üzrə araşdırma işi həyata keçirilmiş, YS-lərin inkişafına dair beynəlxalq təcrübənin və yerli vəziyyətin müqayisəli analizinə dair hesabat sənədi təqdim olunmuşdur.

Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan və Azərbaycan üçün əhəmiyyət kəsb edən qlobal məqsəd və hədəflərə uyğun prioritet hədəflər və onlara dair göstəricilər siyahısına “Dünyada mədəni və təbii irsi qorumaq və mühafizə etmək üçün səyləri gücləndirmək.” (11.4.) adlı hədəfin və “Bütün mədəni və təbii irsin qorunması, müdafiəsi və konservasiyasına dair adam başına düşən cəmi xərclər (dövlət və özəl): - mədəni irsin növü (mədəni, təbii, qarışıq və Dünya İrs Siyahısına salınmış), - idarəetmə səviyyəsi (milli, regional və yerli/bələdiyyə), xərclərin növü (əməliyyat xərcləri/investisiya xərcləri) və özəl maliyyələşmə növü (ianələr, özəl qeyri-kommersiya sektoru və sponsorluq) üzrə.” (11.4.1) göstərici daxil edilmişdir.

28 oktyabr 2019-cu il tarixində Böyük Britaniyanın Plimut İncəsənət Kollecinin nümayəndələri Matiyas Rikardo Şortkuk və Kim Baqli ilə “Crafting Futures” proqramı ilə əlaqədar görüş keçirilmişdir. Britaniya Şurası (British Council) tərəfindən həyata keçirilən bu proqram iqtisadi, sosial və mədəni inkişaf məqsədilə bilik mübadiləsinə və resurslara çıxış imkanlarının genişləndirilməsinə şərait yaratmaqla dünyada sənətkarlığın və tətbiqi sənətin növlərinin innovativ inkişafını dəstəkləyir. Sözügedən proqram çərçivəsində reallaşan layihələr tədqiqatların aparılması, əməkdaşlığın genişləndirilməsi və maarifləndirmə tədbirlərinin təşkili yolu ilə ustaların təcrübə mübadiləsinə və peşəkarlıq səviyyəsinin artırılmasına yönəlmişdir. 28 oktyabr tarixində baş tutan görüşdə proqramın paytaxt Bakı ilə yanaşı, regionlarda fəaliyyət göstərən sənətkarlara da tətbiq olunması barədə razılıq əldə olunmuşdur.

Böyük Britaniya Baş nazirinin Azərbaycan, İraq, Qazaxıstan və Türkmənistan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə razılıq əsasında və Nazirliyin dəstəyi ilə İraq Respublikasının folkloruna aid musiqi parçalarının notlaşdırılması layihəsi həyata keçirilmişdir. Bu layihənin məhz Azərbaycan musiqiçiləri tərəfindən icrası ölkəmizdə musiqinin klassik formada notlaşdırma ənənəsinin dərin köklərə malik olduğunu sübut edir. Layihə çərçivəsində 17 müxtəlif kompozisiya təhlil olunaraq elektron formada notlaşdırılmış və müvafiq olaraq Böyük Britaniya tərəfinə təqdim olunmuşdur.

Cari ilin 27 fevral tarixində Mədəniyyət naziri ilə Bakıda səfərdə olan Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baroness Emma Nikolson arasında görüş baş tutub. Görüşdə xanım Nikolson İraqda yaşayan yerli əhalinin ənənəvi musiqilərinin nota köçürülməsi ilə bağlı həyata keçirilən layihəsinin müvəffəqiyyətlə yekunlaşdığını qeyd edərək layihənin reallaşmasında göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan tərəfindən təqdim olunan materiallar artıq nəşr edilib və Birləşmiş Krallığın ali rəhbərliyi və yüksək səviyyəli rəsmilərinə təqdim edilib. O, həmçinin ölkəmizin dərin musiqi mədəniyyətini yüksək qiymətləndirdiyini qeyd edib.

## İNFORMASİYA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

2020-ci il ərzində Mədəniyyət Nazirliyinin tərəfindən nazirliyin təşəbbüsü, təşkilatçılığı, dəstəyi və iştirakı ilə keçirilən tədbirlər və həyata keçirilən layihələrin kütləvi informasiya vasitələrində, nazirliyin rəsmi internet resursları və sosial media hesabları, televiziya kanalları və informasiya agentlikləri vasitəsilə geniş işıqlandırılması istiqamətində məqsədyönlü iş aparılmış, mütəmadi olaraq müxtəlif təhlillər, analizlər və yayılan informasiyanın monitorinqi həyata keçirilmişdir.

2020-ci ilin mart ayında Dünya Səhiyyə Təşkilatı tərəfindən rəsmən elan olunan COVİD-19 pandemiyası ölkəmizdə də bir sıra sahələrə, xüsusilə mədəniyyət sahəsinə təsirini göstərmişdir. Həmin dövrdən başlayaraq mədəniyyət müəssisələri öz işini Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara və xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq qurmuşdur.

Hesabat dövründə ölkə rəhbərliyinin tapşırıq və  tövsiyələrinə uyğun olaraq Mədəniyyət Nazirliyi sistemində aparılan islahatlar və ümumilikdə mədəniyyət siyasətinin həyata keçirilməsi istiqamətində gerçəkləşən tədbirlər, nazirliyin rəhbərliyinin iştirakı ilə keçirilən görüşlər, brifinq və təqdimatlar, Qarabağın zəngin mədəni irsinin tanıdılması və işğal edilmiş ərazilərdə dağıdılan tarix-mədəniyyət abidələri barədə reallaşdırılan layihələr, Ermənistanın təcavüzkar siyasətini nümayiş etdirən və beynəlxalq hüquqa zidd əməllərini pislələyən bəyanatlar, beynəlxalq təşkilatlara edilən müraciətlər, foto, video və digər materiallar nazirliyin rəsmi vebsaytı, sosial media hesabları (“Facebook”, “Instagram”, “Twitter” və “Youtube”), nazirliyin təsisçisi olduğu mətbu orqanları (“Mədəniyyət” qəzeti və “Mədəniyyət\Culture” jurnalı) və onların rəsmi saytları vasitəsilə geniş ictimaiyyətə təqdim edilmişdir. Eyni zamanda ölkə vətəndaşlarının məlumat almaq məqsədilə Mədəniyyət Nazirliyinin rəsmi sosial media hesablarına təqdim etdiyi çoxsaylı müraciətləri, sorğuları, nazirliyin layihələri barədə sualları mütəmadi olaraq cavablandırılmış, təklifləri qeydə alınaraq nazirliyin aidiyyəti şöbələrinə yönləndirilmişdir.

Xüsusi karantin rejimi dövründə yaradıcı fəaliyyətin təşviq edilməsi üçün Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən “Evdə qal – evdə yarat” kampaniyası, "Sənətə dəstək ol" xeyriyyə aksiyası, "Mədəniyyət və yaradıcılıq sahəsində rəqəmsal həllər” adlı startap müsabiqəsi, “Bizi birləşdirən mədəniyyət” devizi altında layihə və təqdimatlar, “Yaradıcılığı evdə öyrən – özünü kəşf et və bacarıqlarınla tanın”, “Evim – yeni iş yerim”, “Muzey eksponatının hekayəsini sən danış”, pandemiya ilə mübarizə mövzusunda hekayə və rəsm müsabiqələri və digər layihələr müntəzəm işıqlandırılmışdır.

2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında ölkə başçısının 2019-cu il 30 dekabr tarixli Sərəncamına uyğun olaraq mədəniyyət müəssisələrinin reallaşdırdığı tədbir və layihələr, o cümlədən pandemiya dövründə mədəniyyət könüllülərinin fəaliyyəti, dövlət başçısının müvafiq sərəcancamlarına əsasən 2020-ci ildə yubileyləri qeyd olunan görkəmli şəxsiyyətlər, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin yubileylərinə həsr olunan yazılar dərc edilmiş, tədbirlər işıqlandırılmışdır.

Mədəni irsin mühafizəsinə diqqətin artırılması, tarix-mədəniyyət abidələrinə qanunsuz müdaxilə və bu sahədə digər neqativ hallarla bağlı məsələlərin dərhal nəzarətə götürülməsi, müvafiq tədbirlərin operativ şəkildə həyata keçirilməsi məqsədilə Nazirliyin ictimaiyyətə müraciəti, habelə mədəni irs nümunələrimizə cəmiyyətin daha həssas yanaşaraq onların qorunması, öyrənilməsi və tanıdılmasında yaxından iştirak etmək və bütün bunları hər bir vətəndaşın özünə mənəvi vəzifə olaraq qəbul etməsini aşılamaq məqsədilə həyata keçirilən

“İrsimiz Məsuliyyətimizdir” layihəsi və layihə çərçivəsində görülən işlər ölkə ictimaiyyəti üçün işıqlandırılmışdır.

27 sentyabrdan 10 noyabradək davam edən Vətən müharibəsində rəşadətli Ordumuzun əldə etdiyi zəfərlər, xalq-dövlət-ordu birliyi, müxtəlif ölkələrdəki soydaşlarımızın həmrəyliyi, mədəniyyət və incəsənət xadimlərinin bu prosesdə fəal iştirakı, Ermənistanın təcavüzkar siyasətini bütün dünyaya nümayiş etdirmək məqsədilə beynəlxalq təşkilatlara Mədəniyyət Nazirliyi tərəfindən edilən müraciətlər barədə məlumatlar kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır. Ermənistanın beynəlxalq hüquqa zidd əməllərini pislələyən bəyanatlar verilmiş, vətənsevərlik ruhunun artırılması üçün videoçarxlar hazırlanmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş Vətən övladlarının, o cümlədən şəhid olan mədəniyyət işçilərinin əziz xatirəsi silsilə yazılarla, onlara həsr olunan foto və videomateriallarla yad edilmişdir.

“Azərbaycanın tarixi və mədəni irsinə qarşı Ermənistanın törətdiyi cinayətlər” mövzusunda xarici ölkələrin diplomatik korpus nümayəndələri və media təmsilçiləri üçün brifinq təşkil edilmişdir.

Eyni zamanda, əzəli yurd yerimiz olan Qarabağın tarixi-mədəni irsi, erməni işğalçılarının dağıdıb talan etdiyi mədəni sərvətlərimiz haqqında çoxsaylı yazılar dərc olunmuş, “Qarabağ – mədəniyyətimizin beşiyi” layihəsi (layihə çərçivəsində 50-dən çox abidə barədə Azərbaycan və ingilis dillərində məlumat hazırlanıb), “Biz bərpa edəcəyik” (işğaldan azad olunan 11 rayonda yerləşən tarixi-mədəni abidələr və mədəniyyət müəssisələri barədə statistik məlumatları əks etdirən fotomateriallar Azərbaycan, ingilis və rus dillərində hazırlanıb), “Mədəniyyəti Qarabağa qaytarırıq” (50-dən çox abidə barədə fotomaterial hazırlanıb) və “Evimizə qayıdırıq” (işğaldan azad olunan rayonlara həsr olunan fotomateriallar Azərbaycan və ingilis dillərində hazırlanıb) şüarı ilə hazırlanan materiallar nazirliyin rəsmi internet resurları, sosial media hesabları və KİV-lər vastəsilə ölkə və dünya ictimaiyyətinə təqdim edilmişdir. Həmçinin, paytaxt sakinləri və şəhərin qonaqlarına nümayiş etdirmək üçün işğaldan azad olunan ərazilərdə yerləşən tarixi-mədəni abidələr və mədəniyyət müəssisələri barədə “Biz bərpa edəcəyik” şüarı ilə infoqrafika afişaları hazırlanmış, Bakı şəhərinin mərkəzi küçələrində afişa sütunlarında yerləşdirilmişdir. Vətənsevərlik ruhunun artırılması üçün hazırlanan videoçarxlar (Alim Qasımovun Gəncə hadisəsi ilə bağlı videomüraciəti, Mübariz Tağıyevın “Ulu torpaq” ifası, tanınmış sənətçilərin "Azərbaycan" şeirini səsləndirməsi, Kənan Bəşirlinin ifasında “Bayatı-Şiraz” muğamı, "Xarı bülbül") və təqdimatlar ("Biz bərpa edəcəyik”, Culture is back to Karabakh (fransız dilində), Under armenian hay occupation (fransız dilində) geniş ictimaiyyətin diqqətini cəlb etmişdir. Həmçinin, Nazirlik tərəfindən bu mövzuda həyata keçirilən “Ordumuz üçün yarat” aksiyası, “Mənim qəhrəman əsgərim” müsabiqəsi, “Qarabağnamə”, “Xristian irsimizi tanıyaq” və Yurda Qayıdış: Qarabağ adətləri - ənənələri” layihələrinin geniş işıqlandırılması təmin edilmişdir.

Mədəniyyət nazirinin birinci müavini, mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimovun “Vestnik Kavkaza”, “Oxu.az, “Azərtac”, “TASS” informasiya agentliklərinə, “France 24” və “TRT World” televiziya kanallarına təşkil edilən müsahibələri Ermənistanın Gəncədə törətdiyi terror aktları, Ermənistanın təcavüzkar və vandalizm siyasəti, mədəni irsimizə dəymiş ziyanın qiymətləndirilməsi, tarix və mədəniyyət obyektlərinin (abidələr və mədəniyyət müəssisələri) ilkin inventarlaşdırılması və mühafizəsi, xristian irsinin qorunması, işğaldan azad olunan ərazilərdə abidələrin vəziyyətinin öyrənilməsi, Qarabağda mədəni irsin bərpası, işğaldan azad olunan ərazilərdə yerləşən abidələrin UNESCO siyahısına salınması, Şuşa

şəhərinin zəngin tarixi, Şuşada və ümumilikdə işğaldan azad olunan ərazilərdə görüləcək işlər barədə mövzulara həsr olunmuşdur.

Bu il ərzində nazirliyin təsisçisi olduğu “Mədəniyyət” qəzetinin 96 sayı, “Mədəniyyət.AZ” jurnalının 6 sayı nəşr olunmuşdur.

Mədəniyyət Nazirliyinin mətbu orqanı olan “Mədəniyyət” qəzeti, mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, ölkənin mədəni həyatının bütün sahələrini davamlı şəkildə işıqlandırır. Qəzet, həmçinin Azərbaycan Respublikasının mədəniyyət sahəsində beynəlxalq əlaqələri, mədəniyyətlərarası dialoq, zəngin mədəni irsimizin xarici ölkələrdə təbliği ilə bağlı məsələlərə səhifələrində geniş yer ayırır. Teatr, kino, təsviri sənət və başqa sahələrdə mədəniyyətimizin inkişafına töhfələrini davam etdirən yubilyar sənətkarlara da qəzetin səhifələrində diqqət ayrılmışdır.

“Mədəniyyət” qəzeti 2020-ci ildə də ənənəvi və yeni rubrikalarla oxucularına maraqlı yazılar təqdim etmişdir. Cari il ərzində qəzetdə ümumilikdə 4050-yə yaxın yazı, o cümlədən 2800-dən çox xəbər və informasiya xarakterli material, nazirliyin Bakı şəhəri və regionlar üzrə idarələrinin, tabe müəssisələrinin fəaliyyəti, karantin rejiminə uyğun həyata keçirilən tədbir və onlayn layihələri ilə bağlı 500-dən artıq material, eləcə də müxtəlif mövzularda 58 müsahibə, 290 reportaj, təhlil, 164 yaddaş, xatirə və portret yazısı, 300-dən çox nəşr xəbəri, resenziya xarakterli informasiya dərc olunmuşdur. Dünya mədəniyyəti, həmçinin qardaş türkdilli ölkələrin mədəni irsi ilə bağlı silsilə yazılara da qəzetdə yer verilmişdir.

2020-ci ildə qəzetin medeniyyet.az vebsaytının fəaliyyəti də genişləndirilmişdir. 2008-ci ildə yaradılan sayt hazırda ölkəmizdə mədəniyyətlə bağlı ən zəngin elektron resursa çevrilmişdir. Ötən müddətdə qəzetin çap olunmuş bütün saylarının materialları müvafiq tarix üzrə saytda yerləşdirilmişdir. Bu il isə pandemiyanın doğurduğu reallıqlar, elektron xidmət və resursların xüsusi əhəmiyyəti də nəzərə alınaraq, medeniyyet.az saytı avqust ayından etibarən artıq gündəlik yenilənən onlayn xəbər resursu kimi də fəaliyyət göstərir. Bundan əlavə, qəzetin hər yeni sayının çap variantı da (PDF formatda) saytda yerləşdirilir.

Mədəniyyət Nazirliyinin digər mətbu orqanı “Mədəniyyət\Culture” jurnalının səhifələrində, jurnalın medeniyyet.info vebsaytında Azərbaycan tarixinin, ədəbiyyatının, musiqisinin, teatr və kino rəssamlığının, mətbəxinin, mədəni irsimizin - bir sözlə Azərbaycan mədəniyyəti anlayışına ən dərin və geniş mənada daxil olan bütün məqamlarına toxunulmuş, müxtəlif: “Azərbaycan Cümhuriyyəti”, “Ədəbiyyat”, “Nisgilimiz Qarabağ”, “Vətən uzaqda deyil”, “Mədəni irs”, “Teatr”, “Musiqi”, “Kino”, “Portret”, “Muzeylərimiz”, “Bizə yazırlar”, “Bizdən yazırlar”, özəlliklə də “Elm” və digər bu kimi mövzulara uyğun rubrikalarda mədəniyyətimizin dünənini, bugününü və gələcəyini, işğaldan azad edilmiş ərazilərdəki abidələr haqqında yazılar dərc edilmişdir.

2020-ci il ərzində həmin rubrikalar çərçivəsində “İstanbulda azərbaycanlı cazmen Vaqif Mustafazadənin xatirəsinə konsert”, Rüfət Əhmədzadə dünyasına işıq salan “Kədərə gülmək qədər çətin...”, “Fərman Qulamovun yaradıcılığında məkan tərənnümünün bədii ifadəsi”, “Sənətdə yaşayan qəhrəmanlıq”, “Şahdağın övladları”, Əbdürrəhimbəy Haqverdiyevin anadan olmasının 150 illiyinə həsr olunmuş “Zülməti yaran təfəkkür və qələm ziyası”, “Qarabağ xalq oyunları”, “Səttar möcüzəsi”, “İstiqlal şəhidi Məhəmmədbağır Şeyxzamanlı”, “Şuşa simfoniyası”, “Səfəvi-Osmanlı müharibələri”, Şahmar Əkbərzadə yaradıcılığına həsr olunmuş “Vətən və həsrət qoxulu poeziya”, dahi opera ifaçısı Eldar Əliyevin işıqlı xatirəsinə ithaf edilmiş “Uşalıqda qalan səs”, “Xalçaya maraq və məhəbbət mənə genlərimdən keçib” “Ömər Faiq Nemanzadənin naməlum məktubları”, “Cənub bölgəsinin Novruz adətləri” və bir sıra digər maraqlı məqalə, araşdırma, esse və müsahibələr dərc olunmuşdur.

“Mədəniyyət\Culture” jurnalı 2020-ci ildə isə “Azərbaycan mədəniyyətinin uğurlu təbliği və özünəməxsus dəst-xəttinə görə” “Humay” Milli Mükafatına layiq görülmüşdür.

Statistik məlumatlar: Cari ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyəti, nazirlik tərəfindən keçirilən tədbirlər, reallaşdırılan layihələr və mədəniyyət sahəsində görülən işlərlə bağlı nazirliyin rəsmi vebsaytında 1634 xəbər, elektron mediada 18228, televiziya kanallarında 400, qəzetlərdə 1155 material yayımlanmışdır.

Cari ildə Mədəniyyət Nazirliyinin rəsmi “Facebook” səhifəsinin izləyicisi 42250, bəyənmə sayı 40510, “Instagram” hesabının izləyicisi 5312, “Twitter” hesabının izləyicisi 873-ə çatmış, rəsmi “Youtube” kanalında yayımlanan 191 videomaterial üzrə 32685 baxış sayı əldə edilmişdir. Həmçinin, sosial media hesabları vasitəsilə Mədəniyyət Nazirliyinə ünvanlanan 1000-dən artıq sosial şəbəkə istifadəçisinin müraciəti cavablandırılmışdır.

## TEXNİKİ TƏCHİZAT VƏ ƏMLAKIN İDARƏ EDİLMƏSİ

Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” 6 iyun 2007-ci il tarixli 586 nömrəli Fərmanının icrası ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi il ərzində davam etdirilmişdir.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin binası mövcud qanunvericiliyə uyğun Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin balansından çıxarılmış və Mədəniyyət Nazirliyinin balansına keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2020-ci il tarixli 40s nömrəli sərəncamı ilə Dövlət Neft Şirkətinin balansında olan, Şamaxı rayonu, Dəmirçi kəndində “Dəmirçi Arxeologiya Muzeyi”nin binası və istinad divarı və 8 aprel 2020-ci il tarixli 142s nömrəli sərəncamı ilə Gədəbəy Rayon İcra Hakimiyyətinin balansında olan, Gədəbəy rayon Heydər Əliyev Mərkəzinin binası Mədəniyyət Nazirliyinin balansına verilmişdir. Nazirlik müvafiq əmrlərlə bu sərəncamlardan irəli gələn məsələlərin həyata keçrilməsinin təmin edilməsi ilə bağlı İsmayıllı və Şəmkir Regional mədəniyyət idarələrinə verilmiş tapşırıqlar icra edilmişdir.

Biləsuvar rayon Xırmandalı kənd Uşaq incəsənət məktəbi binasının Mədəniyyət Nazirliyinin balansına keçirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilmiş və buna uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 sentyabr 2020-ci il tarixli 508s nömrəli sərəncamı ilə məktəb binası Nazirliyin balansına verilmişdir. Nazirliyin müvafiq əmrinə əsasən sözügedən bina Biləsuvar Regional Mədəniyyət İdarəsi tərəfindən qəbul olunmuşdur.

Hesabat dövründə Heydər Əliyev Mərkəzlərinin fəaliyyəti və bu sahədə mövcud olan problemlərlə bağlı araşdırma aparılmışdır:

Hazırda ölkə üzrə 60 Heydər Əliyev Mərkəzi fəaliyyət göstərir. Bunlardan 3-ü Bakı şəhərində, 57-si isə digər şəhər və rayonlarda yerləşir. Mərkəz binalarının 14-ü Nazirliyin balansındadır, 45 bina heç bir təşkilatın balansında deyil, 1 bina isə hazırda Yardımlı Rayon İcra Hakimiyyətinin balansına qəbul edilib. Həmin binanın Mədəniyyət Nazirliyinin balansına verilməsi istiqamətində işlər görülür.

Heydər Əliyev Mərkəzlərinin binalarının nazirliyin balansına qəbul edilməsi istiqamətində işlərin sürətləndirilməsi məqsədilə yuxarı dövlət orqanları qarşısında məsələ qaldırılması ilə bağlı təklif hazırlanmışdır.

Özəlləşdirilmiş, ləğv olunmuş, adları dəyişdirilmiş müəssisələrlə əlaqədar mədəniyyət müəssisələrinin balans mənsubiyyəti haqqında məlumat bazasında müntəzəm olaraq dəyişikliklər aparılmışdır.

Cari ildə Nazirliyin mərkəzləşdirilmiş vəsaiti hesabına 11 mədəniyyət müəssisəsinin təmir və cari təmir işlərinin layihə-smeta sənədləri hazırlanaraq müvafiq qaydada ekspertizadan keçirilmişdir. Bundan əlavə fəaliyyətdə olan mədəniyyət müəssisərərinin texniki təchizatı sahəsində də işlər görülmüşdür. Bir sıra müəssisələr avadanlıq və inventarlarla təchiz edilmişdir.

Cari ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında əsaslı təmir və yenidən qurulma, "Çıraqqala" abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işləri davam etdirilmiş, Tovuz rayonunda Mədəniyyət Evinin yenidən qurulma işləri isə başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2010-cu il tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq növbəti büdcə ili və sonrakı üç il üçün Dövlət İnvestisiya Proqramı layihəsinin hazırlanması məqsədilə məlumatlar hazırlanmış və İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur.

Nazirliyin 2019-cu il üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində layihələrin icrası barədə illik hesabat, eləcə də 2020-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində layihələrin icrası barədə rüblük hesabatlar hazırlanaraq İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və Hesablama Palatasına təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Mədəniyyət Nazirliyinə aid tədbirlərin 2019-cu ilin yekunu üzrə icra vəziyyəti barədə İqtisadiyyat Nazirliyinə və Dövlət Statistika Komitəsinə məlumat verilmişdir. Cari ildə görülən işlər barədə isə hər rübdə bir dəfə həmin dövlət orqanlarına məlumat təqdim olunmuşdur. Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsi üçün "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" üzrə də məlumatlar hazırlanmışdır.

## İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA

Mərkəzləşdirilmiş xərclər üzrə büdcə vəsaitindən maliyyələşdirilən büdcə təşkilatlarının xərclər smetaları Maliyyə Nazirliyinin Xəzinə Əməliyyatları şöbəsi tərəfindən qeydiyyatdan keçirilmişdir.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarələrinin büdcə və büdcədənkənar fərdi smetaları hazırlanaraq təsdiq edilmişdir.

«Mərkəzi Aparat», «Mədəniyyət», «Təhsil» bölmələri, Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarələri üzrə müəssisələrə açılan vəsait Dövlət Xəzinədarlıq Agentliyinin müvafiq xəzinə orqanlarından müəyyən olunmuş qaydada alınmış və müəssisələrə çatdırılmışdır.

«Mərkəzi Aparat», «Mədəniyyət» və «Təhsil» bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarələri üzrə mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisələrin büdcə vəsaitinin, habelə mərkəzləşdirilmiş «Mədəniyyət» xərcləri üzrə vəsaitin açılması təmin olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Mərkəzi Aparat", "Mədəniyyət", "Təhsil" bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarələri üzrə 2020-ci ilə büdcə və büdcədənkənar xüsusi vəsait smetaları təsdiq olunaraq müəssisələrə göndərilmişdir.

«Mərkəzi Aparat», «Mədəniyyət», «Təhsil» bölmələri, həmçinin Bakı şəhər Mədəniyət İdarəsi və 15 Regional Mədəniyyət İdarələri üzrə ştat cədvəlləri, xərclər smetası hazırlanmışdır.

Bundan başqa Nazirliyin, Regional İdarələrin və mərkəzləşdirilmiş mühasibatlıq üzrə müvafiq sərəncama uyğun olaraq ştat cədvəlləri hazırlanaraq təsdiq olunmuş və Maliyyə Nazirliyinə, həmçinin Regional İdarələrə göndərilmişdir.

Teatr-tamaşa müəssisələrinin əsas proqnoz göstəricilərinin və büdcədən ayrılan vəsaitinin bölgüsü və ştat cədvəlləri hazırlanmış, təsdiq olunmuş və yerlərə çatdırılmışdır.

Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin və digər statistik hesabatların 2019-cu il üzrə toplu (yekun) hesabatları, Mərkəzi Aparat üzrə 4-əmək (yekun) işçilərin sayı və əmək haqqı fondu hesabatı, rüblər üzrə 5 istehlak (elektrik və istilik enerjisi, təbii qaz və rabitə xidmətləri), 11 yanacaq nömrəli hesabatları qəbul edilərək toplusu hazırlanmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

Teatr-konsert, sirk, təsərrüfat təşkilatları üzrə əsas proqnoz göstəricilərinin yerinə yetirilməsi haqqında, teatrlarda dövlət sifarişi yolu ilə və öz vəsaitləri hesabına hazırlanan yeni və əsaslı bərpa olunmuş tamaşalar və aktyorların tamaşalarda məşğulluğu barədə 2019-cu il üzrə məlumat və arayışlar hazırlanaraq ümumiləşdirilmiş və rəhbərliyə təqdim edilmişdir.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət İdarəsi və 15 Regional Mədəniyyət İdarələri üzrə öhdəlik sənədləri hazırlanmış və Dövlət Xəzinədarlıq Agentliyinə və müvafiq xəzinədarlıq idarələrinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, İqtisadi İnkişaf, Maliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun, Həmkarlar İttifaqları Konfederasiyasının və s. orqanların göstəriş və məktublarını icra etmək üçün müəssisələrə məktublar göndərilmiş, müxtəlif məsələlər ilə əlaqədar regional mədəniyyət idarələri ilə yazışmalar aparılmışdır.

## DÖVLƏT QULLUĞU VƏ KADR MƏSƏLƏLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyin mədəniyyət sahəsində dövlət kadr siyasətinin həyata keçirilməsi istiqamətində öz fəaliyyətini Azərbaycan Respublikası Əmək Məcəlləsinin, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun, dövlət qulluğuna və əmək qanunvericiliyinə aid digər normativ-hüquqi aktların tələblərinə uyğun həyata keçirmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 108 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nın, 2007-ci il 5 fevral tarixli 522 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları”nın, 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları”nın, 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları”nın, 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun icrası ilə bağlı bütün zəruri tədbirlər görülür.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq cari dövr ərzində nazirliyin strukturunda 26 nəfər müvafiq vəzifələrə təyin edilmişdir. İlin 2-ci yarısı onlardan 16 nəfər Nazirliyin aparatında, 4 nəfər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində və 2 nəfər regional mədəniyyət idarələrində işə qəbul olunmuşlar.

Hesabat dövrü ərzində vakant inzibati dövlət qulluğu vəzifələrin tutulması məqsədilə Nazirliyin aparatında, Dövlət Xidmətində və regional mədəniyyət idarələrində ümumilikdə 3 vəzifə üzrə daxili müsahibə elan olunmuşdur:

Müsahibələrdən uğurla keçən namizədlər müvafiq dövlət qulluğu vəzifələrinə təyin edilmişlər.

Hesabat dövrü ərzində kadr məsələlərinə aid ümumilikdə 460-dən çox əmr hazırlanmışdır ki, bunlar da əsasən nazirliyin aparatında, Dövlət Xidmətində, Bakı Şəhər Mədəniyyət Baş İdarəsində, regional mədəniyyət idarələrində, həmçinin nazirliyin tabe müəssisə və təşkilatlarında işə qəbul, başqa vəzifəyə keçirilmə və işdən azad edilmə ilə bağlı əmrlərdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli qərarı ilə təsdiq edilmiş “Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar”a uyğun olaraq əmək müqavilələrinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə hesabat dövründə nazirliyin vəzifələr nomenklaturası üzrə bağlanılmış əmək müqavilələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya Sisteminə daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları”na uyğun olaraq Nazirliyin dövlət qulluqçuları barədə müvafiq məlumatlar Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə (DQRİS-ə) göndərilmişdir.

Hesabat dövründə Maliyyə Nazirliyinin təqdim etdiyi “Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları” avtomatlaşdırılmış informasiya sisteminə (SERP) nazirliyin aparatının işçiləri barədə kadr məlumatları (işçilərin əmək fəaliyyəti, əmək haqqı, məzuniyyətlər, ixtisas dərəcələrinə və qulluq stajlarına görə əlavə haqların verilməsi, əmək qabiliyyətinin olmaması barədə məlumatlar və sair) daxil edilmişdir.

Dövlət İmtahan Mərkəzi və dövlət orqanları tərəfindən idarə olunan “Vəzifələrin İdarə Edilməsi Sistemi”-nə nazirliyin dövlət qulluğu vəzifələri üçün “Vəzifə təlimatları” və “Müsahibə proqramları”-na aid məlumatlar daxil edilir və daim yenilənir.

Ötən dövr ərzində nazirliyin tabeliyində olan təşkilatlarda 33 nəfər işə qəbul edilmişlər.

Çalışmanın yaş həddi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddəaların icrası ilə əlaqədar hesabat dövründə 39 nəfər işçinin çalışma müddəti uzadılmışdır, o cümlədən nazirliyin aparatından 2 nəfər, Regional idarələrdən 2 nəfər və nazirliyin nomenklaturasına daxil olan vəzifələrdən 35 nəfər.

Cari dövr ərzində nazirliyin strukturunda çalışan 61 nəfər dövlət qulluqçusuna müvafiq ixtisas dərəcələri verilmişdir.

Hesabat dövrü ərzində nazirliyin aparatının 17 nəfər əməkdaşına dövlət qulluğundakı qulluq stajlarına görə vəzifə maaşlarına əlavə haqqın ödənilməsi təmin edilmişdir.

İşləyən və brona alınmış (təxsislənmiş) hərbi mükəlləfiyyətlilərin sayını müəyyən etmək üçün nazirliyin tabeliyində olan təşkilat və müəssisələrə Forma 6 təqdim edilmişdir. Bununla bağlı işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya” təsdiq edilmişdir. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2020-ci il üçün Tədbirlər Planı” təsdiq edilmişdir:

Cari dövr ərzində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanunun izahı ilə bağlı metodiki tövsiyə və Mədəniyyət Nazirliyinin nomenklaturasına aid olan əməkdaşlar haqqında statistik toplular hazırlanaraq nazirliyin əməkdaşlarına və regional mədəniyyət idarələrinə çatdırılmışdır.

Həmçinin 2020-ci ilin 2-ci yarısından başlayaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və kadr islahatının aparılması məqsədilə Ekvita şirkətinin mütəxəssisləri Aparatın əməkdaşları və rəhbər şəxslər ilə bir sıra görüşlər keçirilmişdir.

Mədəniyyət Nazirliyinin strateji istiqaməti ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, gələcəkdə insan resursları sisteminin idarə edilməsi prosesinin mərkəzləşdirilmiş qaydada qurulması, müxtəlif analitik və iş analizlərinin aparılması istiqamətində lazimi tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən əlamətdar hadisələrlə əlaqədar təltif edilmiş 3 nəfər mədəniyyət və incəsənət xadiminin mükafatı təqdim edilmək üçün Nazirliyə təhvil verilmişdir və 1 nəfər dövlət qulluqçusunun mükafatı isə Nazirliyin 1-ci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən cənab Anar Kərimov tərəfindən təqdim edilmişdir.

“Əmək veteranı” adının verilmə qaydalarına uyğun olaraq hesabat dövründə mədəniyyət sahəsi üzrə 7 nəfərə müvafiq vəsiqələr verilmişdir.

Statistik məlumatların təhlili onu göstərir ki, hazırda nazirliyin aparatında çalışan 27 nəfərin (19 %) dövlət qulluğunda qulluq stajı 15 ildən yuxarı, 33 nəfərin (23%) 10-15 il arası,

21 nəfərin (15%) 5-10 il arası, 31 nəfərin (22%) 1-5 il arası, 1 nəfərin (1%) qulluq stajı isə 1 ildən azdır. Nazirliyin dövlət qulluqçularından 7 nəfər (5%) dövlət qulluğunun müşaviri, 52 nəfər (37%) dövlət qulluğunun kiçik müşaviri, 25 nəfər (18%) 1-ci dərəcə dövlət qulluqçusu, 25 nəfər (18%) 2-ci dərəcə dövlət qulluqçusu, 8 nəfər (6%) isə yardımçı vəzifə tutan dövlət qulluqçularıdır.